RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 23 (10043) 6 fevral 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri başa çatıb





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri fevralın 5-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Əbu-Dabinin Zayed Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi Əbu-Dabi Əmirliyinin İcraiyyə Şurasının üzvü, Əbu-Dabi İnvestisiya Holdinqinin prezidenti Şeyx Hamid bin Zayed Al Nəhyan və digər rəsmi şəxslər yola saldılar.

## Prezidentin sosial media hesabında BƏƏ-yə işgüzar səfərlə bağlı videoçarx paylaşılıb




https://video.azertag.az/site/video/295019



# İlham Əliyevin sülh missiyası

## Müharibə vəziyyətində olan ölkələr bu təcrübədən yol xəritəsi kimi istifadə edə bilərlər

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan ədaləti və barışı öz gücünə təmin etməklə dünya üçün unikal nümunə ortaya qoydu. Bununla sübut etdi ki, bütün çətinliklərə rəğmən nümayiş etdirilən qətiyyətli siyasi iradə sülhü bərqərar etmək iqtidarındadır. Regionda müşahidə olunan de-fakto sülh də buna sübutdur.

Ötən çərşənbə Prezident İlham Əliyevə Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi isə beynəlxalq aləmin Azərbaycanın ədalətli Zəfərinə və tarixi sülh missiyasına verdiyi dəyərin rəsmi təsdiqi oldu.

Bəli, Azərbaycan Prezidenti öz əlləri ilə Cənubi Qafqazda elə bir sülh tağı ucaltdı ki, bu, dünyanın hər yerindən göründü.

Hazırda bəşəriyyətin qarşısında duran ən vacib çağırışlardan biri davamlı sülhün təmin olunmasıdır. Bu gün dünyanın yenidən bölüşdürülməsi uğrunda böyük güclərin apardıqları siyasi oyunların əksər hallarda bitməyən münaqişələrlə, qanlı müharibələrlə müşayiət olunması təəssüfləndirici gerçəklikdir. Geopolitik maraqların çarpışdığı çətin dövrdə sülhə xidmət edən liderlərin fəaliyyəti qabarıq şəkildə özünü göstərir. Bu mənada Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsadüfi xarakter daşımırdı.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, ölkəmizin sülh gündəliyinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinin bariz göstəricisi olan bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

4

## Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir



### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Qardaş Türkiyə Respublikasını dərindən sarsıdan zəlzələdən üç il ötür. Dəhşətli faciə nəticəsində həlak olmuş insanların əziz xatirəsini böyük ehtiram və hörmətlə yad edirəm.

Bu fəlakət Türkiyə üçün ciddi humanitar sınaq oldu. Bir gecədə minlərlə insan həyatını itirdi, bir çox şəhər və yaşayış məntəqələri dağıntıya məruz qaldı. Həmin günlərdə Azərbaycan xalqı baş verənləri dərin ağrı hissi ilə izləyərək qardaş Türkiyənin kədərini öz kədəri kimi qəbul etdi, onun dərdinə şərik çıxdı.

Azərbaycan-Türkiyə münasibətlərinin əsasında duran sarsılmaz qardaşlıq məhz belə çətin məqamda öz real mahiyyətini nümayiş etdirdi. Faciənin ilk anlarından etibarən Azərbaycan dövləti və cəmiyyəti birlik və həmrəylik prinsiplərinə sadiq qalaraq Türkiyənin yanında oldu, dəstək və yardım əlini uzatdı.

Sizin müdrik rəhbərliyiniz altında aparılan güclü dövlət idarəçiliyi və xalqın birliyi sayəsində hazırda Türkiyə zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində mühüm nəticələr əldə etmişdir. Zərər çəkmiş bölgələrdə genişmiqyaslı yenidənqurma işlərinin aparılması, müasir yaşayış infrastrukturunun yaradılması və sosial rifahın bərpası Türkiyənin uzunmüddətli inkişaf strategiyasının bariz göstəricisidir.

Qardaşlıq borcumuzun təzahürü olaraq Azərbaycan Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə vermiş, burada "Azərbaycan" məhəlləsinin salınmasında yaxından iştirak etmişdir. Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir.

Əminəm ki, "Bir millət, iki dövlət" fəlsəfəsinə əsaslanan Azərbaycan-Türkiyə güclü birliyi və strateji müttəfiqliyi bundan sonra da xalqlarımızın firavanlığına töhfə verməklə yanaşı, regional sabitliyin, təhlükəsizliyin və davamlı inkişafın təmin olunmasına xidmət edəcəkdir.

Bu anım günündə Sizə, həlak olanların ailələrinə və bütün qardaş Türkiyə xalqına bir daha dərin hüznlə başsağlığı verir, həyatlarını itirmiş bacı-qardaşlarımıza uca Allahdan rəhmət diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 fevral 2026-cı il*

## Ədalətin qələbəsi

### Müharibə cinayətləri törədənlər layiq olduqları cəzalarını alıblar



Azərbaycanın hüquq-mühafizə orqanları antiterror tədbirləri nəticəsində Qarabağdakı qondarma rejimin başçıları olmuş Arkadi Qukasyan, Bako Saakyan, Arayik Harutyunyan, habelə "sabiq xarici işlər naziri" David Babayan, "parlament sədri" David İşxanyan, "generallar" Lyova Mnatsakanyan, David Manukyan və "keçmiş dövlət naziri" Ruben Vardanyan və digər separatçılar qandallanaraq Bakıya gətirildilər. Onların törətdikləri cinayət əməllərinə görə istintaq prosesi başladı.

Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə təqsirləndirilən 15 şəxs ədalət mühakiməsinə cəlb olunublar.

7

## Dünya təcrübəsi, Azərbaycan nümunəsi



Azərbaycanda son illər bu istiqamətdə mühüm addımlar atılır. Xeyli sayda park salınması, şəhər mərkəzlərinin abadlaşdırılması və yeni nəqliyyat layihələri göstərir ki, ölkə şəhərsalma sahəsində qlobal trendlərə uyğunlaşmağa çalışır. Xüsusilə Bakı şəhərində aparılan yenidənqurma və abadlıq işləri dəyişikliklərin ən bariz nümunəsidir. Paytaxtda yeni bulvar zolağının istifadəyə verilməsi, piyada zonalarının genişləndirilməsi, ictimai nəqliyyat infrastrukturunun yenilənməsi şəhər mühitinin daha yaşanılan hala gətirilməsinə xidmət edir. Bakı həm müasir memarlıq nümunələri, həm də tarixi şəhər simasını bir arada yaşatmağa çalışan şəhər kimi formalaşma mərhələsindədir.

Bununla belə bir sıra problemlər hələ də açıq şəkildə özünü göstərir. Artan avtomobil sayı və yol infrastrukturunun qeyd olunan artıma tam uyğunlaşmaması şəhərdə başgicəlləndirici tıxaclara meydan verir. İctimai nəqliyyatın inkişaf etdirilməsi məqsədilə atılan addımlara baxmayaraq, hələ də şəxsi avtomobildən asılılıq yüksək olaraq qalır. Xüsusilə pik saatlarda şəhərin əsas prospekt və küçələrində yaranan sıxlıq paytaxtın gündəlik həyat tempini xeyli ləngidir.

10

## Fransa yenə təəccübləndirmədi

### Senat Bakı və İrəvan arasında sülh prosesini sabotaj etməyə çalışır



Senatın bu addımı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı birbaşa hörmətsizlikdir. Bakıda mühakimə edilən separatçıların "hərbi əsir" kimi qələmə verilməsi hüquqi cəhətdən əsassızdır. Çünki bu şəxslər konkret cinayət əməllərinə, o cümlədən separatçılıq və terrorçuluq fəaliyyətlərinə görə məsuliyyətə cəlb olunublar.

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üzrə intensiv danışıqların getdiyi, liderlər arasında təmasların sıxlaşdığı, ikitərəfli ticarətin və sərhədlərin delimitasiyası prosesinin başladığı bir vaxtda belə absurd bir sənədin qəbulu ermənidən daha artıq erməni olmaq cəhdidir. Ermənistandakı revanşist qüvvələri stimullaşdıran bu cür zərərli təşəbbüslər regionda uzunmüddətli sabitlik üçün vacib olan etimad quruculuğu tədbirlərinə də mane olur.

7

# Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri dünya mətbuatının diqqət mərkəzindədir


Aliyev ve Paşinyan'a "2026 Zayed İnsan Kardeşliği Ödülü" verildi
Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ile Ermenistan Başbakanı Nikol Paşinyan, Azerbaycan ile Ermenistan arasında sağlanan barış sürecine katkıları dolayısıyla "2026 Zayed İnsan Kardeşliği Ödülü"ne layık görüldü.


Пашиняну и Алиеву вручили премию Zayed за содействие миру
Премьер-министру Армении Николу Пашиняну и президенту Азербайджана Ильхаму Алиеву в Абу-Даби вручили премию Zayed, которая присуждается за вклад в мирное существование и солидарность. Лидеры стали ее лауреатами из-за договоренности о мирном соглашении.
Фото: Пресс-служба Президент Азербайджанской Республики
Во время церемонии Ильхам Алиев обратил внимание, что страны, которые «находились в состоянии войны более 30 лет», живут в мире уже шесть месяцев


FarodiRoma
Il Premio Zayed e il messaggio del Papa sulla fraternità umana. Leone XIV riconosce gli sforzi di pace tra Azebaigian e Armenia e auspica collaborazione e dialogo per la Palestina (Chiara Lonardo)


Parrocchia Matrice San Michele Arcangelo
Zayed 2026: Un Premio Alla Pace, All'istruzione E All'aiuto Umanitario


Vatican News
Zayed 2026: un premio alla pace, all'istruzione e all'impegno umanitario


TravelsDubai
Peace over war: Azerbaijan, Armenia leaders receive Zayed Human Fraternity Award in Abu Dhabi
Regional rivals recognised after Washington-brokered agreement ends decades of conflict
Armenia's Nikol Pashinyan and Azerbaijan's Ilham Aliyev receive the Zayed Award for Human Fraternity in Abu Dhabi, recognising their role in ending a 35-year conflict through a landmark peace agreement.
TravelsDubai Report 4 Feb, 2026

**Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabiyə səfəri çərçivəsində dövlətimizin başçısının "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində iştirakı, həmçinin burada keçirdiyi görüşlər dünya mediasının diqqət mərkəzindədir.**

AZƏRTAC xəbər verir ki, Türkiyənin rəsmi **Anadolu** agentliyinin materialında "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində dövlət və hökumət başçıları Rəcəb Tayyib Ərdoğan, Kasım-Jomart Tokayev, Şavkat Mirziyoyev, Sadır Japarov, Kral II Abdulla, Şahbaz Şərifin Azərbaycan Prezidentinin müdrik və düşünülmüş rəhbərliyi sayəsində regionda sülhün və təhlükəsizliyin bərqərar olması barədə fikirləri yer alıb. Agentlik vurğulayıb ki, Prezident İlham Əliyev mərasimdəki çıxışında Azərbaycan ilə Ermənistan arasında sülhün təkcə iki ölkə üçün deyil, bütün geniş region üçün əhəmiyyətini vurğulayıb. Materialda diqqətə çatdırılıb: "Zayed İnsan Qardaşlığı Mükafatı"na görə təşəkkürünü bildirən Azərbaycan Prezidenti qeyd edib ki, Vaşinqtonda imzalanan Birgə Bəyannamədən ötən altı ay Azərbaycan-Ermənistan münasibətlərinin inkişafı baxımından çox mühüm olub. Yazıda Prezident İlham Əliyevin aşağıdakı sözləri sitat gətirilib: "Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik".

Türkiyənin **"Hürriyet"** qəzetinin dərc etdiyi "Əbu-Dabidə kritik təmas: Əliyev Paşinyan ilə görüşdü" sərlövhəli məqalədə bildirilib ki, tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Bakı və İrəvan ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Qardaş ölkənin **"İhlas"** xəbər agentliyinin və **"Haber Global"** telekanalının saytında, həmçinin **"Akşam"**, **"Yeni Akit"**, **"Birgün"** qəzetlərində, **"Haber365"**, **"Haberlerim"**, **"Son dakikam"**, **"Haber sitesi"** və geniş auditoriyaya malik digər portallarda Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması, həmçinin onun Ermənistanın Baş naziri ilə keçirdiyi görüş barədə materiallar dərc olunub.

Rusiyanın **TASS** agentliyinin saytında dərc olunmuş "Əliyev Azərbaycan ilə Ermənistan arasında praktik əməkdaşlığın başladığını bəyan edib" sərlövhəli yazıda qeyd olunur ki, "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülən Azərbaycan Prezidenti son altı ay ərzində Bakı ilə İrəvan arasında münasibətlərin konfrontasiyadan qarşılıqlı fəaliyyət mərhələsinə keçdiyini bildirib. Rusiyanın rəsmi agentliyi dövlətimizin başçısının sözlərini sitat gətirib: "Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik".

Prezident İlham Əliyevin Əbu-Dabidə "Zayed İnsan


Aletihad
SCIENCES OF THE HOUSE
The President of the State attends the ceremony honoring the recipients of the "Zayed Award for Human Fraternity" for the year 2026
His Highness Sheikh Mohammed bin Zayed Al Nahyan, President of the UAE, may God protect him, today witnessed the ceremony honoring the recipients of the 2026 Zayed Award for Human Fraternity in its seventh edition, which was held at the Founder's Memorial in Abu Dhabi.
LATEST NEWS

Qardaşlığı Mükafatı"na layiq görülməsi və dövlətimizin başçısının çıxışından sitatlar Rusiyanın **"Kommersant"** qəzeti, **"RİA Novosti"** agentliyi, **"News.ru"** portalının materiallarında da yer alıb. Rusiya mətbuatı qeyd edib ki, mərasimdə İlham Əliyev 30 ildən çox müharibə aparan ölkələrin artıq altı aydır ki, sülh şəraitində yaşadıqlarını bildirib (8 avqust 2025-ci ildə ABŞ-də sülh müqaviləsinin paraflanmasına istinad edir). "Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda evsahibliyi etdiyi tarixi Zirvə Görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur", - deyə Azərbaycanın lideri vurğulayıb.

Azərbaycan Prezidentinin Əbu-Dabi səfəri İtaliyanın nüfuzlu media orqanlarında da işıqlandırılıb. Bu ölkənin **"Notizie da Est"**, **"Latestata"**, **"Farodiroma"**, **"Parroçcia"** qəzetləri, həmçinin **"Agenzie Nova"** agentliyi Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması, həmçinin dövlətimizin başçısının Ermənistanın Baş naziri ilə keçirdiyi görüş barədə materiallar dərc ediblər. Yazılarda qeyd olunub ki, Azərbaycan Prezidenti Ermənistanla 30 ildən artıq davam edən münaqişəyə son qoyub, bununla da Cənubi Qafqaz regionunun inkişafına töhfə verir. Vurğulanıb ki, məhz sülh istiqamətində səylərinə görə Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan bu nüfuzlu mükafata layiq görülüblər.

Vatikanın rəsmi **"Vatican News"** nəşri də Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması, həmçinin dövlətimizin başçısının Ermənistanın Baş naziri ilə keçirdiyi görüş barədə material dərc edib.

Prezident İlham Əliyevin Əbu-Dabiyə səfəri BƏƏ mediasında da geniş işıqlandırılıb. Bu ölkənin rəsmi **WAM agentliyi** dövlətimizin başçısının fevralın 2-də Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü barədə xəbər dərc edib və videomaterial yayımlayıb. Agentliyin daha bir materialında isə Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması barədə geniş məlumat verilib. BƏƏ-nin rəsmi agentliyi qeyd edib: "Azərbaycan Prezidenti bu mükafata görə münsiflər heyətinə dərin minnətdarlığını bildirib, Birləşmiş Ərəb Əmirliklərinin banisi, mərhum Şeyx Zayedin adını daşıyan bu mükafata layiq görülməsini özü üçün böyük şərəf adlandırıb. O vurğulayıb ki, bu böyük liderin uzaqgörənliyi və fəaliyyəti BƏƏ-ni dünyanın ən firavan və uğurlu ölkələrindən birinə çevirib".

Materialda Prezident İlham Əliyevin aşağıdakı sözləri sitat gətirilib: "Əziz qardaşım Şeyx Məhəmməd atasının inkişaf, tərəqqi və davamlı müasirləşmə siyasətini davam etdirir. Bu gün Birləşmiş Ərəb Əmirlikləri tarixi köklərinə möhkəm bağlı qalmaqla yanaşı, gələcəyə də inamla baxan, sülh və ahəngdar şəraitdə yaşayan bir cəmiyyətin necə qurulması baxımından həqiqətən də bir çox ölkələr üçün nümunədir".

BƏƏ-nin **"Al İttihad"**, **"The Travel Dubai"**, **"UAE Barq"**, **"Al Vatan"**, **"Nabd"** qəzet və portalları da Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması barədə materiallar dərc edib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı dinlərarası dialoqun inkişafına verdikləri töhfəyə, həmçinin sivilizasiyaların bir-birinə daha da yaxınlaşması istiqamətində göstərdikləri səylərə görə Əl-Əzhərin böyük imamı, doktor Əhməd Əl-Tayyibə və Roma Papası, Zati-müqəddəsləri Leoya dərin minnətdarlığını bildirib, həmçinin mərasimə ünvanladıqları xoş müraciətlərində bir daha Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayan bütün həmkarlarına təşəkkür edib. Dövlətimizin başçısının sözləri də sitat gətirilib: "Bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir. Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq".

Pakistanın **"Pakistan in the World"** nəşri və Qazaxıstanın **"İnform.kz"** portallarında da Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi barədə xəbərlər dərc olunub.

# *Samir ŞƏRİFOV:* "Azərbaycan qlobal ticarət şəbəkəsinin strateji qovşağına çevrilir"

Azərbaycan Respublikasının Baş nazirinin müavini Samir Şərifov Dubayda keçirilən Dünya Hökumətlər Sammiti çərçivəsində təşkil olunmuş "Yeni İpək Yolu" Forumunda iştirak edib.



Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən S.Şərifov Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsindəki rolunun qlobal təchizat zənciri, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsü, Orta dəhliz üçün həlledici əhəmiyyət daşıdığını vurğulayıb.

Baş nazirin müavini ölkənin logistika imkanları barədə son statistik məlumatları da açıqlayıb. O qeyd edib ki, 2025-ci ildə Orta dəhliz vasitəsilə yükdaşımalar 11 faiz, Şimal-Cənub dəhlizi üzrə isə 12 faiz artıb. Samir Şərifov Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi nəticəsində illik ötürücülük qabiliyyətinin 5 milyon tona çatdırıldığını, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücünün isə 25 milyon tona qədər artırılmasının hədəflændiyini diqqətə çatdırıb. Xüsusilə vurğulanıb ki, 2025-ci ildə Bakı Limanında konteyner aşırılması (TEU) əvvəlki illə müqayisədə 40 faiz artaraq 107,000-i keçib.

S.Şərifov həmçinin Vaşinqtonda əldə olunan üçtərəfli razılaşmaya əsasən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) kimi tanınan Zəngəzur dəhlizinin strateji önəmindən bəhs edib. O bildirib ki, bu layihə Avropa ilə Mərkəzi Asiya arasında etibarlı quru əlaqəsi yaratmaqla yanaşı, 2040-cı ilə qədər 865,000 TEU həcmində yük axınını təmin etmək potensialına malikdir.

Yekunda Baş nazirin müavini sərhəd keçidlərinin rəqəmsallaşdırılması və gömrük prosedurlarının uyğunlaşdırılması istiqamətində beynəlxalq əməkdaşlığın, xüsusilə Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri arasında əlaqələndirmənin vacibliyini qeyd edərək, tərəfdaş ölkələri birgə fəaliyyətə çağırıb.

# Azərbaycanla BƏƏ arasında strateji tərəfdaşlığın müxtəlif aspektləri müzakirə olunub

Fevralın 4-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Əbu-Dabidə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Al Nəhyan ilə görüşüb.



XİN-dən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan-BƏƏ hərtərəfli strateji tərəfdaşlığının siyasi, iqtisadi, ticarət, energetika, humanitar aspektləri, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə bölgədə cari təhlükəsizlik vəziyyəti müzakirə olunub.

Hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərinin və bu səfərlər çərçivəsində əldə olunmuş razılaşmalar və imzalanmış sənədlərin əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisinə yüksəlməsindəki əsas rolu vurğulanıb.

Ötən ilin noyabr ayında iki ölkə arasında Hərtərəfli Strateji Tərəfdaşlıq üzrə Əməkdaşlıq Komitəsinin ilk iclası çərçivəsində əldə edilmiş razılıqların icrası məsələləri nəzərdən keçirilib, bu il Bakıda keçiriləcək ikinci iclasa hazırlıq işləri məmnunluqla qeyd olunub.

Regional və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin bundan sonra da davam etdirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov 8 avqust Vaşinqton sammitindən sonra sülh gündəliyi barədə qarşı tərəfi məlumatlandırıb.

Azərbaycanla BƏƏ arasında münasibətlərdə müsbət dinamika təqdir olunub, bu çərçivədə digər səylərlə yanaşı, iki ölkə vətəndaşlarının səfərlərinin daha da asanlaşdırılması istiqamətində mümkün addımlar müzakirə olunub.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Əmin-amanlığın və sabitliyin qətiyyətli təminatçısı

Azərbaycanın sülh təşəbbüsləri növbəti dəfə ən yüksək səviyyədə nümunə kimi təqdim olundu. Prezident İlham Əliyevin BƏƏ-yə budəfəki səfəri, Əbu-Dabidə keçirilən görüşlər, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimatı Cənubi Qafqazda mövcud olan sülh prosesinin beynəlxalq birlik tərəfindən tanındığını bir daha təsdiqlədi.



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, məhz Vaşinqton sammitində ABŞ Prezidentinin şahidliyi ilə sülh müqaviləsi layihəsinin paraflanması Azərbaycanın 44 günlük Vətən müharibəsində və 23 saatlıq antiterror əməliyyatında əldə etdiyi qələbəni daha da möhkəmləndirməkdədir. Dövlət başçımız Əbu-Dabidə mükafatlandırma mərasimində çıxışı zamanı son 6 aydır ki, sülh şəraitinin hökm sürdüyünü bir daha bəyan etdi. "Cənab Prezidentin təqdimat mərasimindəki çıxışı onu deməyə əsas verir ki, son altı ay davamlı sülhə doğru irəliləyiş dövrüdür. Biz təkcə Azərbaycan vasitəsilə Ermənistana yük daşınmasına qoyulan məhdudiyyətləri aradan qaldırmadıq, həm də Ermənistana neft məhsulları ixrac etməyə başladıq. Başqa sözlə, əməkdaşlığımız bu altı ay ərzində başlayıb", - deyə Prezident İlham Əliyev qeyd etdi. Yəni məhz Azərbaycanın ədalətli yanaşması, möhkəm iradəsi sayəsində son 6 ayda yeni sülh mərhələsi başlayıb", - deyə deputat əlavə edib.

Deputat qeyd edib ki, bu gün Azərbaycanın sülh istiqamətindəki təşəbbüskarlığı, Bakı ilə İrəvan arasındakı əlaqələrin hazırkı mərhələsi münaqişə vəziyyətində olan dövlətlər üçün də nümunədir: "Cənab Prezidentin də söylədiyi kimi, bizim nümunəmiz uzunmüddətli münaqişələrə, əzablara və qarşılıqlı inamsızlığa baxmayaraq, sülhün mümkün olduğunu göstərir. Dünyanın getdikcə parçalanmış vəziyyətə düşdüyü bir vaxtda sülh sazişi istiqamətində Azərbaycanın və Ermənistanın əldə etdiyi irəliləyiş tarixi əhəmiyyətə malik dönüş nöqtəsi kimi qiymətləndirilir. Bu, uzunmüddətli münaqişələrin dialoq və məsuliyyət vasitəsilə həll oluna biləcəyini nümayiş etdirir".

N.Məmmədova deyib ki, mükafatlandırma mərasimi ilə bağlı təbriklərdə də Prezident İlham Əliyev Qafqazda və onun hüdudlarından kənarda sülh və sabitliyin qətiyyətli carçısı kimi təqdim olunur.

Deputat hesab edir ki, regionda sülhlə bağlı yeni dövr başlayır və Ermənistan da bu istiqamətdə praktik addımları intensivləşdirməlidir: "Prezident İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Əbu-Dabidə keçirilən görüşdə normallaşma prosesinin ikitərəfli əsasda irəlilədilməsində müsbət dinamikanın qorunub saxlanılmasının vacibliyini vurğulayıblar. Azərbaycanın bu addımları sülhü möhkəmləndirməyə yönəlib. Ermənistandan da etimadı doğrultmağı gözləyirik".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Leyla Əliyeva Əbu-Dabidə əfqanıstanlı qadın hüquqları fəalı və tədqiqatçısı Zarqa Yaftalı ilə görüşüb

Fevralın 5-də Leyla Əliyeva Əbu-Dabidə əfqanıstanlı qadın hüquqları fəalı və tədqiqatçısı Zarqa Yaftalı ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Heydər Əliyev Fondunun uzun illərdir maarifləndirmə, səhiyyə və sosial dəstək sahələrində əhəmiyyətli layihələr həyata keçirdiyi, həm regionda, həm də beynəlxalq səviyyədə əhalinin həssas təbəqələri üçün bərabər imkanların yaradılmasına kömək etdiyi barədə məlumat verildi.

Eyni zamanda Heydər Əliyev Fondu ilə Zarqa Yaftalının rəhbərlik etdiyi Qadınlar və Uşaqlar üzrə Hüquqi Araşdırmalar Fondu arasında əməkdaşlıq imkanlarına toxunuldu, bu fondun fəaliyyətinin 100 mindən çox qadın və uşağın təhsilə, həmçinin hüquqi müdafiəyə çıxışını təmin etdiyi qeyd olundu.

Görüşdə həmçinin qlobal humanitar təşəbbüslərin həyata keçirilməsində ortaq məqsədlərin olduğu vurğulandı, qadın hüquqlarının qorunması və davamlı təhsilin təmin edilməsinin əhəmiyyəti barədə fikir mübadiləsi aparıldı.



# Leyla Əliyeva Luvr Əbu-Dabi muzeyini və İbrahim Ailə Evini ziyarət edib







Leyla Əliyeva fevralın 5-də Luvr Əbu-Dabi muzeyini və İbrahim Ailə Evini ("The Abrahamic Family House") ziyarət edib.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Leyla Əliyeva Luvr Əbu-Dabi Muzeyində olub.

Parisdəki məşhur Luvr muzeyinin ilk xarici filialı olan Luvr Əbu-Dabi Saadiyat adasında yerləşir. Fransız memar Jan Nuvel tərəfindən layihələndirilən muzey 2017-ci ilin noyabrında ziyarətçilərə açılıb. Muzeyin daimi fondunda müxtəlif dövrləri və sivilizasiyaları əks etdirən çox sayda sənət əsəri nümayiş etdirilir. Bundan əlavə, tərəfdaş muzeylər tərəfindən təqdim olunan əsərlər də ekspozisiyada yer alır.

Sonra Leyla Əliyeva İbrahim Ailə Evi ("The Abrahamic Family House") ilə tanış olub. 2019-cu ildə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan İbrahimin ailə evinin yaradıldığını elan edib. Bu unikal kompleks Əhməd Əl-Tayyib məscidini, Müqəddəs Fransisk kilsəsini və Musa bin Maymon sinaqoqunu eyni məkanda birləşdirir. Dini ibadətgahlarla yanaşı, burada ziyarətçilərin müxtəlif dinlərlə daha yaxından tanış ola biləcəkləri təhsil mərkəzi də fəaliyyət göstərir.

# Azərbaycanda ilk regional "LEGIS Hüquq Forumu" keçirilib

Fevralın 5-də "PAŞA Holdinq" və onun törəmə şirkətləri tərəfindən təşkil edilən, hüquq sahəsində peşəkarları, ekspertləri və texnologiya liderlərini bir araya gətirən "LEGIS Hüquq Forum"u keçirilib.




AZƏRTAC xəbər verir ki, tədbirin açılış mərasimində iqtisadiyyat naziri Mikayıl Cabbarov, ədliyyə naziri Fərid Əhmədov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və Hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov, Baş prokuror Kamran Əliyev, Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov, eləcə də "PAŞA Holding"in qrup üzrə hüquq və komplayens departamentinin direktoru Aytac Qasımova çıxış ediblər.

"Ölkəmizdə ilk dəfə olaraq hüquq mövzusunda belə miqyasda forum keçirilir və bizim üçün bu forumun təşəbbüskarı və təşkilatçısı qismində çıxış eləmək həm çox sevindirici, həm də çox qürurverici haldır", - deyə "PAŞA Holding"in baş icraçı direktoru Cəlal Qasımov çıxışında bildirib.

"İqtisadiyyatın şaxələndirilməsi üçün bu sahədə hüquq sisteminin inkişafı, həmçinin dövlət və özəl sektor arasında qarşılıqlı etimadın daha da gücləndirilməsi vacibdir. Biznes fəaliyyətinin stimullaşdırılması, dövlət müəssisələrinin səmərəli idarə olunması, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi iqtisadi sferada prioritet istiqamətlərdəndir. İqtisadiyyatın ayrı-ayrı sahələri inkişaf etdikcə hüquq-mühakimə sisteminin də qarşısında yeni çağırışlar yaranır. "LEGIS Hüquq Forumu" qanunvericiliyin təkmilləşdirilməsi sahəsində təkliflərin dəyərləndirilməsi üçün əhəmiyyətli platformadır", - deyə iqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd edib.

"Dövlət və özəl sektor arasında təmasın olması zəruridir. Bu təmas, təbii ki, hakimiyyətin hər üç qolunu əhatə etməlidir. Düşünürəm bu forum bu məqsədə əhəmiyyətli dərəcədə xidmət göstərəcək", - deyə ədliyyə naziri Fərid Əhmədov vurğulayıb.

"Özəl sektorda fəaliyyət göstərən şirkətlər bəzən baş verən qanunsuzluqlarla bağlı Baş Prokurorluğa müraciət etmək istəmirlər. Prokurorluq qanunların dəqiq və dürüst icra olunmasına nəzarət edən qurumdur. Biz özəl sektorla bağlı müraciətlərlə açıq-aydın cinayət əməli olmayanda digər dövlət qurumlarına yönəldilir. Biz açıq-aşkar çalışırıq ki, özəl sektorun fəaliyyətinə heç bir müdaxilə edilməsin, zərurət olmadığı halda qarışılmasın", - deyə Baş prokuror Kamran Əliyev "LEGIS Regional Hüquq Forumu"nda deyib. O bildirib ki, lakin müasir Baş Prokurorluq onların müdafiəçisi qismindədir.

Bundan əlavə, tədbir çərçivəsində hüquq sahəsinin aktual məsələlərinə həsr olunmuş bir neçə mühüm panel müzakirələri keçirilib.

Dövlət və özəl sektor əməkdaşlığı panel müzakirə sessiyası hüquqi çərçivələrin gücləndirilməsi və innovasiyaların təşviqi istiqamətində tərəfdaşlıqların rolunu araşdırıb. "PAŞA Bank"ın hüquqi məsələlər şöbəsinin rəhbəri İlham Hüseynov panelin moderatoru kimi dövlət, özəl, akademik və vəkillik sahəsində çalışan hüquqşünasları salamlayıb və qeyd edib ki, hüquqşünasların birləşdiyi bu dörd icma arasında dialoq çox vacib və önəmlidir, hüquqşünasların dövlət və özəl dialoqunda yaxından iştirak etdiyi üçün onların arasında olan dialoqun keyfiyyəti dövlət və özəl dialoquna da təsir edir, hüquqşünaslar bu dialoqu təmin edərkən daha çox həllyönümlü davranmalıdırlar.

Eyni zamanda paneldə spiker kimi çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev dövlət-özəl sektor əməkdaşlığının əhəmiyyətini vurğulayaraq, bu tərəfdaşlığın ölkənin iqtisadi inkişafında mühüm rol oynadığını qeyd edib. O, dövlət və özəl sektorun birgə fəaliyyətinin sosial əhəmiyyətli problemlərin həllində və iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında əhəmiyyətli olduğunu bildirib.

Həmin paneldə çıxış edən Baş prokurorun müavini Heydər Məmmədov bildirib ki, prokurorluq orqanlarında aparılan sistematik təhlillər nəticəsində bütün sahələrdə, o cümlədən özəl sektorda baş verən hüquqpozmalar və korrupsiyaya şərait yaradan hallar müəyyən edilir: "Onların qarşısının alınması və gələcəkdə törədilməməsi məqsədilə, habelə qanun pozuntularından çəkindirmək üçün həmin qurumlara və aidiyyəti dövlət təsisatlarına prokuror təsir aktı olan müvafiq təqdimatlar, xəbərdarlıqlıqlardan geniş şəkildə istifadə olunur. Təhlil edilmiş son iki ilin statistik göstəricilərinə görə aidiyyəti qurumlara 194 təqdimat göndərilib, 80 halda isə xəbərdarlıq elan edilib".

Həmçinin paneldə çıxış edən Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli dövlət və özəl tərəfdaşlığına Rəqabət Məcəlləsinin təsiri və sağlam rəqabət mühitinin formalaşdırılması barədə, "bp Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli xarici investor kimi dövlət və özəl tərəfdaşlığının bp təcrübələri barədə, "Deloitte Azərbaycan" şirkətinin vergi və hüquq üzrə partnyoru Nuran Kərimov isə həm özəl və dövlət sektorunun qarşılıqlı dialoqda gözləntiləri barədə, COVID19 və Vətən müharibəsi dönəmində dövlət və özəl sektorun sıx əməkdaşlığı kimi mühüm mövzulara toxunublar.

Digər mühüm sessiya olan "Arbitraj" panelində müasir hüquq sistemlərində arbitrajın inkişaf edən roluna, arbitrajın müasir hüquq sistemlərində artan əhəmiyyətinə və Azərbaycanda bu sahənin inkişaf perspektivlərinə həsr olunub. Azərbaycan Arbitraj Assosiasiyasının sədri Kəmalə Mehdiyevanın moderatorluğu ilə keçirilən paneldə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin qanunvericiliyin inkişafı sektorunun müdiri Araz Poladov, İsveçrənin "Patocchi & Marzolini" hüquq firmasının təsisçi partnyoru Paolo Marzolini, İsveçrənin "Peter & Kim" hüquq firmasının partnyoru və professor Hüqo Barbier, eləcə də SOCAR-ın korporativ hüquq departamentinin rəhbəri Nurlan Mustafayev çıxış ediblər. Paneldə arbitrajın səmərəli mübahisə həlli mexanizmi kimi əhəmiyyəti vurğulanıb və onun Azərbaycanın hüquqi mühitində daha geniş tətbiqi imkanları müzakirə edilib.

Bununla yanaşı, Rəqəmsal Ekosistem paneli maraqlı müzakirələr ilə yadda qalıb. Texnologiya hüququ sahəsindəki aktual məsələlərin təhlili sessiyasında hüquq və innovasiyanın kəsişmə nöqtələri araşdırıldı. "Kapital Bank"nin hüquq departamentinin direktoru Ələkbər İsmayılzadənin moderatorluğu ilə baş tutan müzakirədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin hüquqi xidmətlərin göstərilməsi məsələləri sektorunun müdiri Vüsal İsayev, Dövlət Vergi Xidmətinin rəisinin müşaviri Fərid İsayev, "Competo"nun hüquq departamentinin direktoru Həbib Teymurov, "Trendyol Qrup" Azərbaycan şirkətinin hüquq departamentinin rəhbəri Funda Tüfekçi və "PashaPay"in hüquq departamentinin direktoru Arif Mehdiyev fikirlərini bölüşüblər. Paneldə ecosistem funksiallığı və vacibliyi, süni intellektin tətbiqi, hüquqi risklər və dövlət tənzimlənməsi müzakirə olunub.

Bundan əlavə, spikerlər texnoloji inkişafı, innovasiyaları dəstəkləyən vergi təşviq mexanizmləri, vergi islahatlarının planlamasında ekosistem strategiyasının faydalı aspektləri, eləcə də rəqəmsal ekosistemdə hüquqşunasın və hüquq departamentin mövcud və gələcək rolu barədə fikirlərini səsləndiriblər.

"Rəqəmsal ekosistemin əsas məqsədi müştəri məmnuniyyətidir. Halbuki, innovasiyalar, xüsusən də süni intellekt hüquqşünasların öz işini səmərəli görməsində yeni resurs olduğu üçün bəzən tənzimləyici orqanların həddən artıq konservativ yanaşmaları, rəqəmsal biznesin inkişafı üçün çətinliklər yaradır", - deyə "Kapital Bank"ın hüquq departamentinin direktoru Ələkbər İsmayılzadə vurğulayıb.

"Süni intellekt texnoloqiyalarının tətbiqi ilə bağlı bir sıra hüquqi məsələlərin həllinin zəruri olduğunu vurğulamaq istəyirəm. O cümlədən növbəti illərdə bu sahədə inkişafın təmin edilməsi üçün hazırda ayrıca süni intellekt strategiyası hazırlanır", - deyə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının sektor müdiri Vüsal İsayev çıxışı zamanı qeyd edib.

"Təşviq mexanizmlərinin formalaşdırılmasında dövlət və özəl sektorların effektiv qarşılıqlı fəaliyyəti vacib amildir. Bu xüsusda texnoloji sahələrin gələcək inkişafının vergi alətləri vasitəsilə dəstəklənməsi üçün sahibkarlıq subyektlərinin təkliflərinə və dialoqa açıq olduğumuzu bir daha ifadə etmək istəyirəm", - deyə Dövlət Vergi Xidmətinin rəisinin müşaviri Fərid İsayev bildirib.

Panel müzakirələri ilə yanaşı, tədbir çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi Lətif Hüseynovun çıxışı da baş tutub. O, insan hüquqları sahəsində aktual məsələlərə dair dəyərli fikirlərini bölüşərək, insan hüquqlarının müasir hüquq sistemindəki rolu və inkişaf tendensiyaları haqqında vacib məqamları diqqətə çatdırıb.

Tədbirin ən maraqlı məqamlarından biri isə dünyaca məşhur humanoid robot Sofiyanın iştirakı ilə baş tutan interaktiv müsahibə olub. "PAŞA Həyat Sığorta"nın hüquq departamentinin direktoru Səbuhi Göyüşovun moderatorluğu ilə keçirilən bu sessiyada innovasiya və qanunvericilik sahəsindəki son trendlər müzakirə edilib. Süni intellekt və hüququn kəsişmə nöqtələrinə toxunan bu dialoq, rəqəmsal dövrdə hüquqi tənzimləmə mexanizmlərinin necə dəyişdiyini və gələcəkdə bu sahədə hansı çağırışların gözlənildiyini izah edib.

❖ ❖ ❖

"Paşa Holding"in təşkilatçılığı ilə keçirilən "LEGİS Hüquq Forum"u çərçivəsində "Süni intellekt və hüquq: Tənzimləmə, məsuliyyət və gələcəyin imkanları" adlı sonuncu panel təşkil edilib.

Panelə "Deloitte & Touche" (Azərbaycanın) hüquq və komplayens üzrə baş meneceri Bahar Kavuzova moderatorluq edib.

Panel müzakirələrdən əvvəl çıxış edən "Koç Holding A.Ş." şirkətinin baş hüquq və komplayens müşaviri Kənan Yılmaz çıxışında son illər startap dünyasının hüquq bazarının böyüklüyünü nəzərə almağa çalışdığını qeyd edib: "Dünyada dəyişikliklər sürətlə baş verir. Əvvəllər sahibkarlar hüquqşünasları onların işlərini yavaşladan insanlar olaraq görürdülər. Sonralar isə bu anlayışın mahiyyəti dəyişdi. Bildirim ki, şirkətlərin baş hüquq müşavirləri idarəedici heyətin iclaslarına qatılmalıdırlar. Şirkətlərin hüquqşünaslarına qapı arasından suallar verilməməlidir. Şirkətlərin rəhbərləri hüquqşünasların daim yanında olmalıdırlar".

Panel müzakirənin ilk çıxışçısı, Almaniyanın Martin Lüter adına Halle-Vittenberg Universitetinin professoru Azər Əliyev bildirib ki, hüquqda cəmiyyətin mürəkkəbliyinin parçalanması üçün müxtəlif imkanlar var: "Bir qayda olaraq hər hansı inqilabi dəyişikliklər tənzimləmə ilə bağlı dəyişikliyə gətirib çıxarır. Getdikcə münasibətlərin mürəkkəbliyi artır, eyni zamanda sürətlənmə baş verir. Artıq Avropa İttifaqında sürətlənmiş prosesləri tənzimləmək üçün bir neçə alət hazırlanıb".

"Esin Attorney Partnership (Baker McKenzie)" şirkətinin idarəedici partnyoru Eren Kurşun bir zamanlar yenidən tərtib olunmuş sazişlərin şirkətlərə göndərildiyini xatırladıb: "Şirkətlər faktların gəlməsini saatlarla gözləyirdi. İndi beş saniyəyə imeyl göndərmək olur. Bir dəqiqə fərqlə sənədləri müqayisə etmək mümkündür. Əminəm ki, süni zəka nə qədər inkişaf etsə də, hüquqşünaslar gələcəkdə işsiz qalmayacaqlar. Bir şey dəqiqdir ki, hüquqşünaslar tam olaraq səhnədən kənarda qalmayacaqlar. Təbii ki, məlumat sızıntısı baş verəcək".

Harvard və Oksford universitetlərində tədqiqatçı, İngiltərə və Uels üzrə fəaliyyət göstərən barrister, süni intellekt və texnologiya hüququ mövzusunda "New York Times bestseller" kitablarının müəllifi Ceymi Susskind bildirib ki, əvvəlcə hüquqşünasların mövcud olmasının səbəblərinə baxılmalıdır. "Onlar problemləri həll etmək üçün var. Əgər bunu süni zəka edəcəksə, ona müraciət ediləcək. Əgər fiziki şəkildə həkimə getmədən xəstəliyi süni zəka ilə həll edə biliriksə, təbii ki, süni zəkaya müraciət edəcəyik. Əvvəllər süni intellekt sistemləri təhlilləri ən yaxşı hüquqşünaslardan yaxşı edəcəyini desəydilər, biz inanmazdıq. Hüquqşünaslar da səhvlər edə bilirlər. Bizim müştərilərimiz böyük kommersiya müqavilələrinin hazırlanmasına baxırlar. Müəyyən qədər hüquq şirkətləri gələcəkdə də mövcud olacaq. Süni intellektin yaratdığı yeni imkanların fonunda bazarlar da açılacaq", - deyə o vurğulayıb.

"KPMG Lav"ın hüquq və süni intellekt üzrə meneceri Martin Knost bildirib ki, hüquq şirkətləri xoşbəxt sonluq qurmaq barədə düşünməlidir: "Biz müştərilərimizin rəqabətliliyini artırmağa çalışırıq. Süni intellekti anlayan hüquqşünas daha azdır. Bu sahədə şəffaf idarəetmə çox vacibdir. Yoxlama prosesinin necə baş verəcəyini bilmək lazımdır. Müştərilərimiz təhlükəsizliyə önəm verirlər. Biz bir layihədə istifadə olunan həllər deyil, təkrar istifadə edilən alətlər işləyib hazırlayırıq. Prosesə bütövlükdə transformasiya kimi baxmaq lazımdır".

# Azərbaycanın xarici siyasətinin uğurları

## Barış və əməkdaşlıq siyasəti

### Prezident İlham Əliyevin prinsipial mövqeyi Cənubi Qafqazda sülh gündəliyini əsas prioritetə çevirib

**Prezident İlham Əliyevin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın regionda sülhün və əməkdaşlığın təşviqində oynadığı mühüm rolun beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsi kimi dəyərləndirilməlidir. Təbriklərə qoşulan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan videomüraciətində vurğulayıb ki, "biz sülh, təhlükəsizlik, rifah və sabitlik üçün atılan bütün təşəbbüsləri səmimi qəlbdən dəstəkləyirik". O, həmçinin Prezident İlham Əliyevin cəsarətli addımlarının sülhün təmin olunmasında mühüm rol oynadığını qeyd etmişdir.**

Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərif onlayn yayımlanan mesajında Azərbaycanın bu istiqamətdəki fəaliyyəti ilə bağlı demişdir: "Biz Prezident İlham Əliyevin müdrik və dinamik rəhbərliyi altında Azərbaycanın diqqətəlayiq nailiyyətlərini qürurla alqışlayırıq. Bu saziş yalnız iki ölkə üçün deyil, bütövlükdə region üçün yeni dövrün başlanğıcıdır".

"Zayed İnsan Qardaşlığı Mükafatı" yalnız humanizm və qardaşlıq ideyalarının təbliği ilə seçilən şəxslərə verilir. Azərbaycan Prezidentinin bu ali mükafata layiq görülməsi ölkəmizin postmünaqişə dövründə barışıq, dialoq və sabitlik xəttinə sadiqliyinin bariz göstəricisidir. Məhz Prezident İlham Əliyevin siyasi iradəsi və prinsipial mövqeyi nəticəsində Cənubi Qafqazda yeni reallıqlar formalaşıb, sülh gündəliyi əsas prioritetə çevrilib.



Azərbaycan hər zaman ədalətə əsaslanan, beynəlxalq hüquqa söykənən sülh sazişinin imzalanmasının tərəfdarı olub. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri, regionda iqtisadi əlaqələrin və nəqliyyat-kommunikasiya xətlərinin açılması təşəbbüsləri ölkəmizin sülhə verdiyi praktiki töhfələrin göstəricisidir.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev mükafatlandırma mərasimində yayımlanan müraciətində sülh prosesini "tarixi əhəmiyyətli dönüş nöqtəsi" adlandıraraq, "sülhə doğru irəliləyiş göstərir ki, hətta uzunmüddətli münaqişələr də dialoq, məsuliyyət və təmkinlə həll oluna bilər" kimi yüksək dəyərləndirib.

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın sülh sazişi kontekstində təqdim olunması onu göstərir ki, Azərbaycan-Ermənistan arasında normallaşma prosesi artıq regional çərçivədən çıxaraq qlobal miqyasda sülh modeli kimi qəbul edilir. Bu, eyni zamanda Birləşmiş Ərəb Əmirliklərinin humanitar diplomatiya və sülh təşəbbüslərinə verdiyi önəmin təzahürüdür.

Bu mükafat Prezident İlham Əliyevin liderliyi ilə yürüdülən uzaqgörən siyasətin, xalqlar arasında düşmənçilik deyil, əməkdaşlıq və qarşılıqlı hörmət mühitinin formalaşdırılmasına xidmət edən strategiyanın beynəlxalq səviyyədə təsdiqidir. Əminliklə demək olar ki, bu qiymətləndirmə Cənubi Qafqazda davamlı sülhün bərqərar olması yolunda əlavə stimul yaradacaq və regionun gələcək inkişafına mühüm töhfə verəcək.

Azərbaycan və Ermənistan siyasi liderlərinin son 6 ay ərzində ikinci dəfə BƏƏ-nin paytaxtı Əbu-Dabidə görüşməsi dövlətlərarası normallaşma prosesinin ardıcıl və davamlı xarakter aldığını göstərir. Bu görüşlər təkcə siyasi dialoqun davamı deyil, eyni zamanda regionda uzunmüddətli sabitliyin təmin olunmasına yönəlmiş konkret addımların atıldığını nümayiş etdirir.

2025-ci ilin iyununda baş tutan I Əbu-Dabi görüşü tarixi Vaşinqton razılaşmalarına gedən yolun həlledici mərhələsi kimi yadda qaldı. Bu il fevralın 4-də baş tutan II Əbu-Dabi görüşü isə tərəflərin sülh gündəliyinə və normallaşdırma prosesinə sadiqliyini bir daha ortaya qoydu. Liderlərin verdiyi mesajlar göstərir ki, qarşılıqlı etimadın möhkəmləndirilməsi, sərhədlərin delimitasiyası və kommunikasiyaların açılması məsələləri üzrə irəliləyiş mövcuddur. Eyni zamanda iqtisadi-ticari əməkdaşlığın genişləndirilməsi regional inteqrasiyanın əsas sütunlarından biri kimi özünü təsdiqləyir.

Dövlətlərarası normallaşma prosesinin yalnız diplomatik təmaslarla məhdudlaşmaması və real iqtisadi əlaqələr üzərində qurulması prosesin geridönməz olduğunu bir daha təsdiqləyir.

Bunu atılan praktik addımlar da sübut edir. Azərbaycan yanacağının Ermənistana göndərilməsi, eləcə də ölkəmiz üzərindən tranzit yolu ilə Qazaxıstan və Rusiyadan taxıl məhsullarının Ermənistana çatdırılması münasibətlərin yeni mərhələyə keçdiyini göstərir. Bu, regionda qarşılıqlı asılılığın formalaşmasına və iqtisadi maraqların sülhün qorunmasına xidmət etməsinə zəmin yaradır. Bundan əlavə, vətəndaş cəmiyyətləri arasında dialoqun təşviqi də etimad quruculuğunun mühüm elementi kimi dəyərləndirilir.

Əldə olunan razılaşmalar göstərir ki, Bakı və İrəvan münasibətlərin normallaşdırılmasını üçüncü tərəfin vasitəçiliyi olmadan davam etdirmək iqtidarındadırlar. Ən önəmli mesajlardan biri prosesin birbaşa dialoq əsasında aparılmasının mümkünlüyüdür. Hər iki ölkə postmünaqişə mərhələsində öz resurslarına və siyasi iradəsinə güvənərək prinsipial siyasət yürüdür.

Ermənistanın konstitusiyasında müvafiq dəyişiklik etməklə sülh müqaviləsinə mane olan son hüquqi əngəli aradan qaldıracağına ümidlər getdikcə artır. Bu addım nə qədər tez atılarsa, yaxın perspektivdə sülh sazişinin imzalanması da bir o qədər tez reallaşar.

Əbu-Dabi görüşləri regional kommunikasiya layihələrinin, o cümlədən yeni nəqliyyat marşrutlarının reallaşdırılması üçün də mühüm impuls yaradır. Bu isə ümumilikdə Cənubi Qafqazın iqtisadi xəritəsini köklü şəkildə dəyişmək potensialını özündə ehtiva edir.

***Rizvan NƏBİYEV,***
***Milli Məclisin deputatı,***
***siyasi elmlər doktoru***



# İlham Əliyevin sülh missiyası

### Müharibə vəziyyətində olan ölkələr bu təcrübədən yol xəritəsi kimi istifadə edə bilərlər

**"...Hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".**

Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimindəki çıxışı zamanı Prezident İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan ədaləti və barışı öz gücünə təmin etməklə dünya üçün unikal nümunə ortaya qoydu. Bununla sübut etdi ki, bütün çətinliklərə rəğmən nümayiş etdirilən qətiyyətli siyasi iradə sülhü bərqərar etmək iqtidarındadır. Regionda müşahidə olunan de-fakto sülh də buna sübutdur.

Ötən çərşənbə Prezident İlham Əliyevə Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi isə beynəlxalq aləmin Azərbaycanın ədalətli Zəfərinə və tarixi sülh missiyasına verdiyi dəyərin rəsmi təsdiqi oldu.

Bəli, Azərbaycan Prezidenti öz əlləri ilə Cənubi Qafqazda elə bir sülh tağı ucaltdı ki, bu, dünyanın hər yerindən göründü.

#### Sülh təşəbbüsünə verilən ali dəyər

Hazırda bəşəriyyətin qarşısında duran ən vacib çağırışlardan biri davamlı sülhün təmin olunmasıdır. Bu gün dünyanın yenidən bölüşdürülməsi uğrunda böyük güclərin apardıqları siyasi oyunların əksər hallarda bitməyən münaqişələrlə, qanlı müharibələrlə müşayiət olunması təəssüfləndirici gerçəklikdir. Geopolitik maraqların çarpışdığı çətin dövrdə sülhə xidmət edən liderlərin fəaliyyəti qabarıq şəkildə özünü göstərir. Bu mənada Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də təsadüfi xarakter daşımırdı.

Azərbaycanın beynəlxalq nüfuzunun artmasının, ölkəmizin sülh gündəliyinin dünya ictimaiyyəti tərəfindən dəstəklənməsinin bariz göstəricisi olan bu mükafat Qafqazda onilliklər ərzində davam edən münaqişəyə və humanitar əzablara son qoyan "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş"in paraflanmasına görə verilib.

Azərbaycan süni şəkildə dondurulmuş münaqişəni qətiyyətli şəkildə həll etdi. İkinci Qarabağ müharibəsində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini özü icra edərək ərazilərinin işğalına son qoyan, suverenliyini tam təmin edən ölkə kimi tarixə düşdü. Otuz ilə yaxın davam edən Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həllindən sonra ölkəmizin seçdiyi siyasi xətt sülh və qarşılıqlı anlaşma oldu. Bir vacib məqamı da vurğulayaq ki, ölkəmiz yalnız regional deyil, beynəlxalq miqyasda da daim sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edir və qlobal barışın əldə olunması üçün böyük səy nümayiş etdirir. Azərbaycan Prezidentinin qlobal sülh səylərinə verilən ali dəyərin təzahürü olan bu mükafat da bir daha təsdiq etdi ki, Prezident İlham Əliyev dünyada sülh yaradan liderlərdən biridir.

Əbu-Dabidə təşkil olunan təntənəli mükafatlandırma mərasimində Prezident İlham Əliyev bölgədə əldə olunan sülhün vacib əhəmiyyətinə vurğu edərək söylədi ki, bu sülh təkcə iki ölkə üçün deyil, daha geniş region üçün də böyük əhəmiyyət kəsb edir: "Biz 30 ildən artıq müddətdə müharibə şəraitində olmuşuq. İndi isə artıq altı aydır ki, sülh şəraitində yaşayırıq".

Prezident Donald Trampın rəhbərlik etdiyi ABŞ Adminstrasiyası Azərbaycanın Qafqazdakı sülh səylərini daim dəstəkləyib. Elə bunun nəticəsidir ki, ötən il avqustun 8-də Vaşinqtonda sülh sazişinin mətninin paraflanması ilə regionda davamlı sülh üçün geniş qapılar açılıb.

Fevralın 4-də keçirilən mükafatlandırılma mərasimində bu vacib məqama diqqət çəkən ölkəmizin rəhbəri Ağ Ev liderinə öz minnətdarlığını bu sözlərlə bildirdi: "Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olunmasına verdiyi töhfəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa da minnətdarlığımı bildirmək istəyirəm. O, 2025-ci il avqustun 8-də üçtərəfli Zirvə görüşünə evsahibliyi etmişdir. Həmin Zirvə görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflanmış, həmçinin Birgə Bəyannamə imzalanmışdır. Prezident Tramp şahid qismində həmin sənədi də imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur".

Ötən il iyulun 10-da Azərbaycan və Ermənistan liderlərinin Əbu-Dabi görüşü Bakının irəli sürdüyü sülh gündəliyinin həyata keçirilməsi istiqamətində dönüş nöqtəsi oldu. Çıxışında bu fakta toxunan Prezident İlham Əliyev söylədi ki, Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi rəmzi məna daşıyır: "Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir".

#### Beynəlxalq ehtiramın təzahürü

Vurğuladığımız kimi, Azərbaycanın qətiyyətli səyləri ilə əldə olunan regional sülh beynəlxalq səviyyədə rezonans doğurub. "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində laureatlara ünvanlanan təbrik videomüraciətlərinin ana xəttini də elə bu nüans təşkil edirdi.

Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin, Qırğız Prezidenti Sadır Japarovun, Livan Prezidenti Cosef Aunun, Türkiyənin birinci xanımı Əminə Ərdoğanın və İordaniya Haşimilər Krallığının Kralı II Abdullahın "Zayed İnsan Qardaşlığı Mükafatı"nın laureatlarına təbrik videomüraciətləri nümayiş olunub.

Tədbirdə edilən çıxışlarda, videomüraciətlərdə və səsləndirilən məktublarda Azərbaycan ilə Ermənistan arasında sülh istiqamətində əldə olunan razılaşmaların Qafqazın gələcəyində yeni bir səhifə açacağına böyük inam ifadə olunub.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin "Xanımlar və cənablar, parçalanma və münaqişələr məngənəsində olan dünyada Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri hər zaman görünüb, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında sülhə yolun açılmasında, əmin-amanlığın gücləndirilməsində özünü büruzə vermişdir" sözləri Azərbaycan liderinin sülh səylərinə verilən yüksək dəyərin nümunəsidir.

Videomüraciətində Pakistan lideri fikirlərinə əlavə edib: "Biz Prezident İlham Əliyevin müdrik və düşünülmüş rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi yüksək nailiyyətlərdən fəxr hissi duyuruq. O, Qafqazda və onun hüdudlarından kənarda sülh və sabitliyin qətiyyətli carçısı kimi tanınır. Pakistan həmin sazişi nəinki Azərbaycan və Ermənistan, o cümlədən bütöv region üçün yeni əminamanlıq və dayanıqlı sülh dövrünün başlanğıcı kimi alqışladı".

Bəli, Prezident İlham Əliyev sülhə aparan yolun ən çətin mərhələlərində belə prinsipial mövqeyindən geri çəkilməyərək onu təmin etmək üçün böyük qətiyyət və səy nümayiş etdirdi. Azərbaycanın sülhpərvər siyasət yürütməsi sayəsində Cənubi Qafqazda rifah və firavanlığın əsası qoyuldu.

Və ölkəmizin liderinin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycanın haqq və ədalətə əsaslanan mövqeyinin beynəlxalq aləmdə qəbul edilməsinin təsdiqi kimi qızıl hərflərlə tarixə yazıldı.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanın prinsipial sülh siyasətinə verilən yüksək dəyər

"Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim olunması ölkəmizin beynəlxalq nüfuzunu daha da möhkəmləndirdi. Bu, Azərbaycan Prezidentinin güclü siyasi lider kimi sülh istiqamətində göstərdiyi fəaliyyətə verilən yüksək qiymətdir.

Milli Məclisin Gənclər və idman komitəsinin sədr müavini Könül Nurullayeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycanın Vətən savaşında Zəfərin yaratdığı yeni reallıqlar fonunda regionda yeni təhlükəsizlik mühiti formalaşıb. Bir neçə ildir Cənubi Qafqaz regional sabitliyin təmin olunmasına verdiyi töhfələrlə tanınır. "Mükafatlandırma mərasimində çıxışı zamanı Prezident İlham Əliyev bəyan etdi ki, hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda sülh mümkündür. Biz 44 günlük müharibədən sonra Azərbaycanın sülh istiqamətində atdığı addımlara baxsaq, burada rəsmi Bakının tolerant, insani dəyərlərə sadiqliyini açıq şəkildə görmüş olarıq. Dünya ölkələrinin liderləri də bu prosesi nümunə kimi qiymətləndirirlər. 2025-ci ilin avqustunda Vaşinqton görüşündə isə dayanıqlı sülhlə bağlı tarixi razılıq əldə olundu. Həmin Zirvə görüşünün nəticəsi olaraq Ermənistan və Azərbaycan arasında sülh sazişi paraflanıb, həmçinin Birgə Bəyannamə imzalanmışdır. ABŞ Prezident Donald Tramp şahid qismində həmin sənədi imzalamış və bununla da üç onillikdən artıq davam edən qanlı və ölümcül münaqişəyə son qoyulmuşdur", - deyə o bildirib.



Deputat qeyd edib ki, beləliklə, son altı ay Bakı-İrəvan münasibətlərinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Dünyanın ən nüfuzlu humanitar və sülhyönümlü təltiflərindən biri hesabolunan "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Prezident İlham Əliyevə təqdim olunması beynəlxalq ictimaiyyətin onun 35 illik münaqişəni sülh yolu ilə sona çatdırmaq, Cənubi Qafqazda davamlı sülh və sabitlik yaratmaq uğrunda göstərdiyi səylərə və Azərbaycanın prinsipial sülh siyasətinə verdiyi yüksək qiymətin ifadəsidir. "Bu təltif Prezident İlham Əliyevin qlobal liderlik mövqeyini daha da gücləndirən tarixi hadisədir. Burada söhbət yalnız Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından getmir. Azərbaycan Prezidentinin siyasi fəaliyyəti bütövlükdə insan qardaşlığına və qlobal sabitliyə verdiyi töhfələrə görə hər zaman təqdir olunur. Nəzərə alsaq ki, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın da əsas mahiyyəti bu insani dəyərləri özündə ehtiva edir, bu mənada ali mükafat sülh və tolerantlığın daimi dəstəkçisi olan Azərbaycanın hər zaman humanizm prinsiplərinə sadiqliyinə verilən qiymət kimi dəyərləndirilməlidir", - deyə deputat əlavə edib.

K.Nurullayeva vurğulayıb ki, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev xalqımızın və dövlətimizin qarşısında duran ən mühüm məsələlərin uğurlu həllinə nail olan, bu gün də dövlətimizi qətiyyətlə gələcəyə doğru aparan, ən yüksək zirvələri fəth etmiş böyük Liderdir. Beynəlxalq səviyyədə də Prezident Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətləri, onun gələcəyə yönələn baxışları uzunmüddətli ziddiyyətləri kənara qoyaraq, Ermənistanla tarixi sülh sazişi əsasında sülhə yolun açılmasına, əmin-amanlığın gücləndirilməsinə töhfə kimi qiymətləndirilir.

Deputat bildirib ki, Azərbaycanın sülh təşəbbüsləri qardaşlığın təhlükəsizlik, inkişaf və insan ləyaqətinin təmin edilməsi üçün universal prinsip və praktiki təməl olduğunu bir daha təsdiqləyir: "Otuzillik işğala son qoymaqla Azərbaycan regionun hüdudlarından kənarda da sülhün aktuallığını nümayiş etdirir. Bu, həmçinin beynəlxalq münasibətlər sistemində diplomatiyaya etimadı gücləndirir. Dünyanın siyasi mənzərəsi göstərir ki, sülh iradə, cəsarət və prinsipiallıq tələb edir. Bu kontekstdə Azərbaycan Cənubi Qafqazın lider ölkəsi kimi növbəti dəfə sülh və tolerantlıq nümunəsi sərgiləyir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## "Enerji Azərbaycan-Böyük Britaniya strateji tərəfdaşlığının əsas təməli olaraq qalır"

Böyük Britaniya ilə Azərbaycan arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi Bakının inkişaf etməkdə olan çoxvektorlu dünya nizamında artan rolunu əks etdirir.

Britaniyalı ekspert Nil Uotson bu barədə AZƏRTAC-ın saytında yayımlanan "Azərbaycan və Dünya" proqramının son bölümündə bildirib. Onun sözlərinə görə, Ukraynada müharibə bitdikdən sonra Azərbaycanın əhəmiyyəti enerji təhlükəsizliyi, davamlı inkişaf, təhsil və iqlim gündəliyi kontekstində xüsusilə nəzərə çarpacaq. Ekspert əmindir ki, tərəflərin qarşılıqlı faydalı əməkdaşlıq üçün ən böyük potensiala malik olduğu sahələr bunlardır.

Ekspert vurğulayıb ki, Böyük Britaniya ənənəvi olaraq Azərbaycanı əsas enerji tərəfdaşlarından biri kimi görür; bu strateji yanaşma 30 ildən çox əvvəl "Əsrin müqaviləsi"nin imzalanması ilə qurulub və dəyişməz olaraq qalır. Proqramın qonağı əlavə edib ki, qazıntı yanacaqları, əsasən təbii qaz, qlobal iqtisadiyyatda mühüm rol oynamağa davam etdiyi üçün Azərbaycan etibarlı və şaxələndirilmiş enerji təchizatı mənbəyi kimi xidmət edir.

Nil Uotson həmçinin Cənub Qaz Dəhlizinin və digər Xəzər enerji marşrutlarının əhəmiyyətini vurğulayaraq BP-nin onların inkişafında strateji rolunu qeyd edib. O, bu layihələri Avropanın enerji təhlükəsizliyini gücləndirən və Rusiya qazından asılılığı azaldan, eyni zamanda həm beynəlxalq şirkətlərə, həm də Azərbaycanın özünə fayda verən layihələr kimi qiymətləndirib.

# Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə ADA Universiteti arasında Anlaşma Memorandumu imzalanıb




Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və ADA Universiteti arasında şəhərsalma və memarlıq sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb.

Komitədən AZƏRTAC-a verilən məlumata görə, sənədi komitə sədri Anar Quliyev və ADA Universitetinin rektoru Hafiz Paşayev imzalayıblar.

Anlaşma Memorandumu Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə ADA Universiteti arasında 17-22 may 2026-cı il tarixlərində Bakı şəhərində keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü sessiyası (WUF13) çərçivəsində akademik tərəfdaşlığın genişləndirilməsi, şəhərsalma və memarlıq sahələrində konfransların, sərgilərin, seminarların, elmi görüşlərin, təlim və ustad dərslərinin təşkili, akademik proqram və kursların dizaynı, həmçinin tələbələr və akademik heyət üçün təlim və inkişaf proqramlarının təşkili kimi sahələrdə əməkdaşlıq istiqamətlərini əhatə edir.

Qeyd olunub ki, akademik ictimaiyyət ümumilikdə WUF13-ün əsas iştirakçı qruplarından biridir və forum müddətində keçiriləcək tədbirlərdə yerli və beynəlxalq akademik heyətin fəal iştirakının təmin edilməsi istiqamətində birgə tədbirlərin təşkili nəzərdə tutulur.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə ADA Universiteti arasında uzun müddətdir davam edən əməkdaşlığın genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu kontekstdə ADA Universitetinin nəzdində fəaliyyət göstərən İtaliya-Azərbaycan Universitetində dizayn və memarlıq fakültəsinin açılmasının ölkədə urbanistik mühitin keyfiyyətinin artırılmasına, habelə müasir memarlıq, şəhərsalma və dizayn sahələri üzrə ixtisaslı kadrların hazırlanmasına mühüm töhfə verəcəyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 dekabr tarixli 858 nömrəli Sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Dövlət Şəhərsalma və Arxitektura Komitəsi və ADA Universiteti arasında əməkdaşlığın əhəmiyyətini artırmaqla yanaşı, bu istiqamətdə əməkdaşlıq perspektivlərinin daha da genişləndirilməsinə zəmin yaradır.

3 il müddətinə bağlanan memorandum tərəflərin qarşılıqlı razılığı əsasında uzadıla bilər və şəhərsalma və memarlıq sahəsində elmi potensialın artırılmasına, beynəlxalq təcrübənin ölkədə tətbiqinə və Azərbaycanın qlobal urbanistik platformalarda fəal iştirakına xidmət edəcək.

İmzalanma mərasimindən sonra A.Quliyev İtaliya-Azərbaycan Universitetinin yeni tədris korpusu ilə tanış olub.

# Bakıda "II Qoşulmama Hərəkatı Gənclər Həftəsi"nin açılış mərasimi keçirilib

Fevralın 5-də Bakı Konqres Mərkəzində "II Qoşulmama Hərəkatı Gənclər Həftəsi"nin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir qlobal məsələlərdə dialoq, əməkdaşlıq və gənclərin fəal iştirakına həsr olunub.

Açılış mərasimində çıxış edən QHGT-nin sədri, COP29-un iqlim üzrə gənclər çempionu Leyla Həsənova bildirib ki, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının (QHGT) təşkilatçılığı ilə 2 Fevral - Azərbaycan Gəncləri Gününə həsr olunan tədbir gəncləri, dövlət və özəl sektor nümayəndələrini, o cümlədən beynəlxalq təşkilatları bir araya gətirib. O, tədbiri gənclərin gücləndirilməsinə və onların müasir qlobal gənclər gündəminin formalaşdırılmasında rolunun artırılmasına yönəlmiş əsas təşəbbüs kimi qiymətləndirib.

Leyla Həsənova gənclərin təşəbbüsü ilə yaradılan platformaların dialoqun, qarşılıqlı anlaşmanın və beynəlxalq əməkdaşlığın təşviqində mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Proqram Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin "Artan qeyri-müəyyənlik şəraitində müasir qlobal çağırışların həllində diplomatiyanın rolu" mövzusunda əsas məruzəsi ilə davam edib.

Çıxışı zamanı nazir müavini beynəlxalq mühitdə baş verən dəyişikliklər, çoxtərəfli əməkdaşlığın təşviqində diplomatiyanın əhəmiyyəti, eləcə də Azərbaycanın xarici siyasətinin əsas prioritetləri və dəyişən beynəlxalq sistemdə mövqeyi barədə dəyərli fikirlər səsləndirib.

Əsas məruzədən sonra iştirakçılara Qoşulmama Hərəkatı Gənclər Təşkilatının indiyədək həyata keçirdiyi əsas fəaliyyətləri, mühüm mərhələləri və əldə etdiyi nailiyyətləri əks etdirən icmal videoçarx təqdim olunub.

Videoda Qoşulmama Hərəkatı Gənclər Təşkilatının keçdiyi inkişaf yolu əhatəli şəkildə nümayiş olunub.

Növbəti iki gün ərzində 100-dən çox yerli və beynəlxalq iştirakçı panel müzakirələri və interaktiv seminarlar vasitəsilə siyasətçilər, diplomatlar və ekspertlərlə bir araya gələrək aktual beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparacaqlar.

# WUF13-ə hazırlıq çərçivəsində BMT-nin Məskunlaşma Proqramının texniki missiyası Bakıya səfər edib

Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyası (WUF13) çərçivəsində təşkilati koordinasiya, texniki və əməliyyat məsələləri ilə bağlı hazırlıq işlərinin müzakirəsi məqsədilə WUF13 Azərbaycan Əməliyyat Şirkəti ilə BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) texniki missiya üzvləri arasında görüşlər keçirilib.

AZƏRTAC xəbər verir ki, missiyanın səfəri çərçivəsində yayım və media əməliyyatları, məkanın hazırlıq səviyyəsi, "Urban Expo" sərgisinin planlaşdırılması, brendinq və istiqamətləndirici lövhələrin layihələndirilməsi, İKT və audiovizual sistemlər, müyəssərlik, logistika, dayanıqlılıq və maraqlı tərəflərlə koordinasiya da daxil olmaqla, geniş spektrli prioritet məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Canlı yayım və media ilə qarşılıqlı əlaqə planları, tədbir məkanının baş planı, şəhər və tədbir məkanının brendinqinə dair təkliflər üzrə işlər yekunlaşdırılıb, eləcə də nəqliyyat, iaşə, təhlükəsizlik, könüllülərin idarə edilməsi və işçi qüvvəsinin koordinasiyası üzrə əməliyyat hazırlığı üzrə işlər intensiv şəkildə davam etdirilir.

Bu fəaliyyətlər WUF13 tədbirinin peşəkar və səmərəli təşkil olunması, eləcə də inklüziv formatda və yüksək keyfiyyətlə keçirilməsi baxımından mühüm bir mərhələni əks etdirir.

# Xalqımızın zəngin dövlətçilik təcrübəsi var

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.




Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynadı.

Müasir şəraitdə elmin qarşısında dayanan vəzifələrdən biri də sarsılmaz milli müstəqil dövlətçilik düşüncəsi aşılayan əsərlərin yazılmasıdır. Bundan ötrü tarixi müqayisəli üsulla millətimizin qədim və zəngin dövlətçilik təcrübəsinə nəzər yetirmək, haradan-haraya gəldiyini bilmək və onlardan ibrət dərsləri almağı aşılayan kitablar müstəsna əhəmiyyət daşıyır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilovun məsləhətçisi və Ali Məclis Sədrinin müavini, tarix üzrə fəlsəfə doktoru, dosent Arzu Abdullayevin müəllifi olduğu "Konstitusiya, suverenlik və yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar və gələcəyə baxış" adlı kitab diqqəti cəlb edir. Əsər Prezident İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edildiyi 2025-ci ildə yazılıb və mühüm əhəmiyyət kəsb edir.

Yeni çap olunan kitabın elmi redaktoru Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, professor Ziyafət Əsgərov, ön sözün müəllifi Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini, AMEA-nın müxbir üzvü Musa Qasımlı, rəyçiləri isə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev və AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadədir.

III fəsil və nəticədən ibarət olan kitabın Azərbaycan Konstitusiyası: tarixi irsin, yeni çağırışların, strateji hədəflərin hüquqi tənzimlənməsi adlı I fəslində müəllif qeyd etmişdir ki, Azərbaycanda konstitusiya quruluşunun əsası 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti ilə qoyulmuşdur. Ondan əvvəlki dövrlərdə idarəçilik şəriət qaydalarına əsaslanmış, müasir mənada konstitusiya mövcud olmamışdır. Şimali Azərbaycanda çar Rusiyası qanunları, Cənubi Azərbaycanda isə 1906-cı il "Qanun-i Əsasi" tətbiq edilsə də, bunlar müasir konstitusiya nümunəsi sayıla bilməzdi. Azərbaycan milli dövlətçiliyində konstitusionalizmin ilk nümunəsi 1918-ci ildə qəbul olunmuş "İstiqlal Bəyannaməsi"dir. Müəllif bu sənəddə müstəqil, demokratik və parlamentli respublikanın əsas prinsiplərinin müəyyən edildiyini, vətəndaş hüquq və azadlıqlarını, hakimiyyət bölgüsünün və milli suverenliyin bəyan edildiyini vurğulamışdır. Onun fikrincə, bu sənəd tam Konstitusiyanı əvəz etməsə də, Azərbaycan Xalq Cümhuriyyətində müasir konstitusion dövlət quruculuğunun siyasi və hüquqi təməlini qoymuşdur. Cəmi 23 ay mövcud olmasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti demokratik, hüquqi dövlət quruculuğu sahəsində möhkəm təməl yaratmış, bu dəyərlər sonradan müstəqil Azərbaycan Respublikasının bərpası üçün tarixi və hüquqi əsas rolunu oynamışdır.

Müəllif birinci fəsildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiyanın qəbuluna imkan olmadığından, 1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının hazırlanması və qəbulunda Ümummilli Lider Heydər Əliyevin həlledici rolundan bəhs etmiş və onun rəhbərliyi ilə Azərbaycan dilinin konstitusion statusunun tanındığını, milli maraqların qorunduğunu vurğulamışdır. 1978-ci il tarixli Konstitusiyanı respublikanın Əsas Qanunu olmaqla yanaşı, eyni zamanda Heydər Əliyevin müstəqil, suveren, bütöv Azərbaycan strategiyasının əsas "yol xəritəsi" kimi təqdim edilmişdir.

Müstəqil Azərbaycanın yeni Konstitusiyasının hazırlanması tələbi "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında nəzərdə tutulduğu müəllif tərəfindən xüsusi olaraq qeyd edilmişdir. Hətta bundan əvvəl, 1991-ci ilin 9 fevralında Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə Azərbaycanın yeni Konstitusiyasının hazırlanması üçün 74 nəfərdən ibarət komissiyanın da yaradılması ilə bağlı məlumat vermiş, lakin bu istiqamətdə heç bir əməli işin görülmədiyini qeyd etmişdir. Daha sonra müəllif bildirmişdir ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə gəldiyi dövrdən qısa bir zaman keçməsinə baxmayaraq, Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının hazırlanması üçün fəaliyyətə başlamışdır. 1995-ci ilin iyulunda Azərbaycan Respublikası Milli Məclisinin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasının layihəsini hazırlamaqla məşğul olan dövlət komissiyası təşkil edilmişdir. Bu komissiyaya ölkəmizin görkəmli alimləri, hüquqşünaslar, mütəxəssislər, ziyalılar, rəhbər işçilər daxil edilmişdir. Ümummilli Liderin rəhbərliyi altında çalışan komissiya gərgin fəaliyyətdən sonra layihə üzərində işi başa çatdırmış və bu sənədi ümumxalq müzakirəsinə təqdim etmişdir. Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq səsverməsində - referendumda ölkə seçicilərinin 86 faizinin iştirakı ilə 91,9 faiz səslə qəbul edilmişdir.

Əsərin II fəsilində möhkəm təmələ əsaslanan qüdrətli suverenlik kursundan, Prezident İlham Əliyevin suverenlik prioritetlərindən, "Qarabağ Azərbaycandır və Nida"nın Zəfər çağırışlarından, suverenliyin "dəmir yumruq" təminatından söhbət açılır. Müəllif həmçinin Azərbaycanın və ümumən Cənubi Qafqaz regionunun tarixində müstəsna əhəmiyyətə malik hadisə baş verdiyini: 8 avqust 2025-ci ildə Vaşinqtonda, Ağ Evdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla Birgə Bəyannamə imzaladığını və Azərbaycanla Ermənistan arasında sülh sazişinin layihəsinin paraflandığını qeyd etmiş, Azərbaycanla Ermənistan arasında uzun illərdən sonra əbədi sülhün əldə olunmasına, bölgəmizdə bütün tərəflər üçün qarşılıqlı əməkdaşlıq, dayanıqlı inkişaf mühitinin yaranmasına, bu torpaqlarda yaşayan insanların rifah və xoşbəxtliyinə yol açan belə mühüm addımla Cənubi Qafqazda yeni strateji dövr başlandığını vurğulamışdır. Tarixçi alim Vətən müharibəsindəki Zəfərimizin ilk rəsmi təsdiqinin 10 noyabr Bəyanatında Azərbaycan liderinin sülh gündəliyinə daxil etməyə müyəssər olduğunu "Zəngəzur dəhlizi" layihəsinin cənab İlham Əliyevin Qafqaza dayanıqlı sülh və davamlı inkişaf gətirmək missiyasının son dərəcə əhəmiyyətli parçası olduğunu yazmışdır. Bütün bunlarla yanaşı, müəllif haqlı olaraq vurğulamışdır ki, Prezident İlham Əliyev hərb meydanındakı nailiyyətlərini paralel olaraq beynəlxalq diplomatiya arenasında da çox dəqiqliklə yürütmüşdür. Müəllif Vətən müharibəsindəki Zəfərimizdən dərhal sonra azad Qarabağda, Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin başlandığından, bu ərazilərdə Azərbaycanın ümumi inkişaf axarına qovuşması üçün zəruri addımların atılmasından bəhs etmişdir.

Sonuncu - "Yeni siyasi konfiqurasiya: dayanıqlı inkişafın və milli birliyin etibarlı təməli" adlanan III fəsildə isə yeni tarixi mərhələdə yeni siyasi konfiqurasiya, Heydər Əliyev siyasi arxitekturası, siyasi islahatlarda yeni prioritet: siyasi konfiqurasiyanın modernləşməsi, siyasi sistemin möhkəmlənməsi, tarixi ədalətin bərpası, Qərbi Azərbaycana Qayıdış: yeni siyasi konfiqurasiyanın antiazərbaycançı şəbəkəyə böyük zərbələri və IV Sənaye İnqilabı Dövrünün siyasi konsepsiyası geniş təhlil edilmişdir. Müəllif yazır: "5 il öncə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən böyük Zəfərin yaratdığı reallıqlar Azərbaycanın tarixində dönüş mərhələsi olduğu kimi, yeni hədəflərin müəyyənləşməsini də zərurətə çevirdi. Ölkədə bütün sahələrdə aparılan islahatlar daha geniş miqyas və yeni format almış, dövlət quruculuğu prosesində müasir metod və təkmil nümunələrdən istifadə olunmuşdur. Əldə edilən effektiv və səmərəli nəticələr dövlətin qüdrətinə, xalqın rifahına, vətəndaşın inam və güveninə müsbət təsir göstərmişdir. Respublikamızda böyük çətinliklə əldə olunan sabitlik sonradan möhtəşəm iqtisadi sıçrayışın və sosial inkişafın təməli, bu nailiyyətlər isə tarixin ən qüdrətli Azərbaycanının və ən böyük Zəfərinin təminatçıları oldular. Bu gün respublikamız Prezident İlham Əliyevin liderliyi ilə Avrasiya məkanının ən əsas enerji, təhlükəsizlik, nəqliyyat-logistika aktorlarından birinə çevrilərək, etibarlı qlobal əməkdaşlıq platforması kimi qəbul edilir. Avropadan Asiyaya, dənizaşırından Afrikayadək dövlətlərin rəhbərləri Prezident İlham Əliyevi güvənilən lider, sınanmış partnyor, səmimi dost elan ediblər".

Kitabda 2019-cu ildən ölkədə siyasi sistemdə yeni siyasi yol xəritəsinin hazırlanmasından, Prezident İlham Əliyevin müəyyən etdiyi və müəllifi olduğu yeni siyasi konfiqurasiya xəttinə uyğun siyasi partiyalarla iş sahəsində önəmli addımlardan, ölkədəki siyasi dialoqdan, milli həmrəylikdən, partiyaların dövlət qeydiyyatına alınıb qurultaylarının keçirilməsindən bəhs edilir. Həmçinin ölkədə yeni siyasi konfiqurasiyanın müəyyən olunduğu bir vaxtda "Siyasi partiyalar haqqında" yeni qanunun olması zərurəti ilə 20-yə yaxın ölkənin təcrübəsi və Venesiya Komissiyasının Azərbaycana göndərdiyi tövsiyələr əsasında təkmil bir formada layihənin hazırlanmasından geniş söhbət açılır. Əsərdə də qeyd olunduğu kimi, cənab İlham Əliyev dövlətinin və xalqının sabahını yalnız sədr olduğu partiyanın və lideri olduğu iqtidarın maraqları baxımından dəyərləndirmir. O, əsl milli lider, böyük vətənpərvər, tarix yaradan və yazan rəhbər kimi Azərbaycan dövlətini və xalqını dünyanın ən güclüləri, ən müasirləri sırasına çıxarmağı məqsəd seçib. O, Azərbaycanın qarşıdakı beş ilini, on ilini düşünmür, onun hədəfləri əsrləri əhatə edir. Bu gün təməlini atdığı və artıq nəticələrini gördüyü enerji layihələri, nəqliyyat-logistik təşəbbüsləri, iqtisadi planları, sosial məqsədləri necə ki əsrlər sonra da Azərbaycanı qüdrətli və rifahlı edəcək, eləcə də onun siyasi islahatları, yaratdığı yeni siyasi konfiqurasiya respublikamızı onilliklər sonra da dünyanın ən modern, demokratik ölkələri sırasında qərarlaşdıracaq. Siyasi sistemdə islahatlar Prezident İlham Əliyevin yaratdığı tarixin ən qüdrətli Azərbaycanında yeni siyasi münasibətləri formalaşdıran, ölkədə vətəndaş həmrəyliyini və milli birliyi davamlı möhkəmləndirən əsas amillərdəndir. Bəli, yeni dialoq modeli ilə iqtidar-müxalifət münasibətlərində uzun müddət davam edən ətalət dövrü bitdi, siyasi sistemdə böyük canlanma yarandı. Müxalifət partiyaları anladılar ki, yeni siyasi konfiqurasiyada onlardan tələb olunan şərt heç də iqtidarın nəzarətinə keçmək yox, yalnız və yalnız ümummilli məsələlərdə vahid mövqe nümayiş etdirməkdir. "Milli Şura" adlı antimilli cəfəng qurumda toplaşan qaragüruh istisna olmaqla, siyasi spektrin bütün çalarları Prezidentin dialoq təşəbbüsünə müsbət cavab verdilər.

Əsərin nəticə hissəsində müəllif Konstitusiyanı dövlətin siyasi-hüquqi sisteminin əsasını təşkil edən ali normativ sənəd adlandıraraq Azərbaycan konstitusionalizminin başlanğıcını 1918-ci il "İstiqlal Bəyannaməsi" ilə qoyulduğunu qeyd edir. Müəllif 1978-ci il Konstitusiyasında Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsini milli dövlətçilik tarixində mühüm dönüş nöqtəsi hesab edir. "2020-ci ilin 44 günlük Vətən müharibəsində və 2023-cü ilin antiterror əməliyyatında əldə olunan tarixi qələbələr Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir", - deyən tarixçi alim Konstitusiyanın real icra müstəvisinə keçidini qeyd etmişdir. O daha sonra vurğulayır ki, tarixi zəfər Azərbaycanın regional və qlobal mövqeyini gücləndirmiş, Zəngəzur dəhlizi kimi strateji layihələri aktuallaşdırmış, Şuşa Bəyannaməsi ilə Azərbaycan-Türkiyə müttəfiqliyi yeni mərhələyə yüksəlmişdir.

Postmüharibə dövründə həyata keçirilən "Böyük qayıdış" proqramından, Qarabağ və Şərqi Zəngəzurun bərpasından, "Azərbaycan 2030" Milli Prioritetləri və yeni siyasi konfiqurasiya islahatlarından bəhs edən müəllif dövlət-vətəndaş münasibətlərinin möhkəmlənməsini, milli həmrəyliyin güclənməsini diqqətə çatdırır, Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan yeni siyasi yol xəritəsi haqqında danışarkən Azərbaycanın müasir, suveren və dayanıqlı dövlət kimi inkişafını təmin edən əsas strateji çərçivə haqqında yüksək elmi təhlil ortaya qoyur. Kitabda Azərbaycanın konstitusiya, suverenlik və siyasi sistem quruculuğu tarixi, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan milli inkişaf strategiyasının real nəticələri, respublikamızda son 30 ildən artıq dövrdə həyata keçirilən düzgün iqtisadi-sosial, siyasi, hüquqi, xarici siyasətin təntənəsi, Azərbaycanın çağdaş siyasi tarixinə yeni missiya ilə daxil olan cənab İlham Əliyevin milli dövlət quruculuğu və siyasi idarəçiliyinin şərəfli mərhələsi, onlardan çıxan nəticələrin ümumiləşdirilməsi müfəssəl təsəvvürün formalaşmasına xidmət edir.

Hesab edirəm ki, "Konstitusiya, Suverenlik və Yeni siyasi konfiqurasiya: tarixi irs, müasir çağırışlar, gələcəyə baxış" kitabı elm və təhsil ictimaiyyəti, tədqiqatçılar, politoloqlar, xüsusən də gənc nəsil üçün dəyərli vəsaitdir. Kitabın oxucularda özünə inam, milli qürur və müstəqil milli dövlətçilik hisslərini artıracağına inanırıq.

***Anar İSGƏNDƏROV,***
***Milli Məclisin Elm və təhsil komitəsinin sədri,***
***tarix elmləri doktoru, professor***

# Heydər Əliyev Mərkəzində "Vəhşi təbiətin super qəhrəmanları" sərgisi açılıb

Fevralın 4-də Heydər Əliyev Mərkəzində təsirli ictimai sənət nümunələri yaradan məşhur sənətkarlar - britaniyalı və avstraliyalı heykəltaraşlar Cili və Mark Şatnerin (Gillie&Marc Schattner) "Vəhşi təbiətin super qəhrəmanları" (The Superheroes of Wildlife) adlı sərgisinin açılışı olub.







AZƏRTAC xəbər verir ki, açılışda Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, incəsənət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Bakı layihəsi müəlliflərin bu günədək təqdim etdikləri ən böyük sərgidir. Vəhşi təbiətin fədakar müdafiəçiləri kimi tanınan Cili və Mark yaradıcılıqları ilə incəsənəti təbiətin mühafizəsi üçün mühüm bir platformaya çeviriblər. Sərgi vəhşi təbiətin qarşılaşdığı problemləri bir daha gündəliyə gətirməklə yanaşı, tamaşaçıya cəsarət və ümid dolu baxış bucağı təqdim edir.









Sərginin açılışından əvvəl heykəltaraş Cili Şatner jurnalistlərə bildirib ki, sərgidə əsas missiya sənət vasitəsilə vəhşi təbiətin qorunması və sevgi mesajlarını yaymaqdır.

"Məqsədimiz dünyanın müxtəlif ölkələrinə səyahətlərimiz zamanı əldə etdiyimiz təcrübələr əsasında tamaşaçıları nəsli kəsilmək təhlükəsi altında olan heyvanları qorumağa təşviq etməkdir. Biz heyvanları öyrənir, müşahidə edir, çəkir və təsvir edirik. Sərgidə nümayiş olunan bütün heykəllər real həyatda gördüyümüz heyvanlara əsaslanır", - deyə Cili Şatner vurğulayıb.

Heykəltaraş Mark Şatner isə Bakıda və ümumilikdə Azərbaycanda təbiətin qorunmasına xüsusi əhəmiyyət verildiyini deyib: "Söhbətlərimiz zamanı Bakının və bütövlükdə Azərbaycanın vəhşi təbiətin mühafizəsi, eləcə də ətraf mühitin qorunması istiqamətində həyata keçirdiyi dəyərli təşəbbüslər barədə ətraflı məlumat aldıq. Məhz bu amil bizi ölkəyə cəlb edən əsas səbəblərdən biridir. Çünki burada təbiətlə dərin və səmimi bir bağlılıq mövcuddur", - deyə o qeyd edib.

Açılış mərasimində çıxış edən Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, mərkəzdə Cili və Mark Şatnerin 100-ə yaxın əsəri sərgilənir. Onun sözlərinə görə, heykəltaraşların əsərləri dünyanın bir çox ölkəsində nümayiş etdirilib.

Anar Ələkbərov vurğulayıb ki, layihənin unikallığı məhz heykəltaraşların təbiətin qorunması istiqamətində gördükləri mühüm işlərdə öz əksini tapır və onların bu sahədə böyük rolu var. O bildirib ki, "Vəhşi təbiətin super qəhrəmanları" sərgisi bir ildən artıq müddət ərzində fəaliyyət göstərəcək.

Anar Ələkbərov həmçinin layihənin Heydər Əliyev Mərkəzində keçirilməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya layihənin reallaşmasına göstərdiyi böyük dəstəyə görə dərin minnətdarlığını ifadə edib. Heykəltaraş Cili Şatner çıxışında deyib ki, bu sərgi onlar üçün adi bir layihə deyil, təbiətə olan sevgilərinin ümumi bir təntənəsidir.

"Bu sərgi ilə biz qəlblərimizi, hekayələrimizi və danışa bilməyən heyvanların səsini insanlara çatdırmaq istəyirik. Biz hər zaman inanmışıq ki, incəsənət qəlbləri birləşdirən ən güclü vasitədir".

O, həmçinin bildirib ki, onların monumental heykəlləri indiyədək Nyu York, London, Sinqapur, Sidney, Şanxay da daxil olmaqla dünyanın 250-dən çox şəhərində nümayiş etdirilib.

Tədbirdə çıxış edən heykəltaraş Mark Şatner bildirib ki, Azərbaycana ilk dəfə səfər edirlər və Heydər Əliyev Mərkəzində belə möhtəşəm bir məkanda sərgilərinin açılması onlar üçün böyük sevincdir. Heykəltaraş ərsəyə gətirdikləri əsərlər barədə danışıb: "Əsərlərimiz elə qurulub ki, tamaşaçı onların üzərində otura, ətrafında gəzə və hətta toxuna bilərlər. Bu isə işimizin mahiyyəti baxımından əsərlərlə həm emosional, həm də fiziki təmas qurmağa imkan yaradır".

Heykəltaraşlar Cili və Mark Şatner həmçinin vurğulayıblar ki, indiyə qədər ərsəyə gətirdikləri əsərlər bir məhəbbət hekayəsindən başlayıb. Belə ki, Cili və Mark Şatner cütlüyü təsadüfi görüş nəticəsində 1990-cı ildə Honkonqda bir filmin çəkiliş meydançasında tanış olublar. O dövrdə model olan Cili və kreativ direktor kimi çalışan Mark yeddi gün sonra ailə həyatı qurublar. "The New York Times" qəzeti onları "Nyu York tarixində ən uğurlu və ən çox əsər yaradan ictimai sənət müəllifləri" adlandırır. Daha sonra qonaqlar sərgi ilə tanış olublar.

"Vəhşi təbiətin super qəhrəmanları"nda nəsli kəsilməkdə olan canlıların gələcək taleyi mövzusu aktuallaşdırılır. Ekspozisiya təbiəti qorumaq missiyasını üzərinə götürən, bir-birindən fərqli, lakin ayrılmaz iki qəhrəman - "Dovşan xanım" ("Rabbit woman") və "İt adam"ın ("Dog man") macəralarını əks etdirir. Bu iki qəhrəman özlərində "fərqliyik, amma bir-birimizlə harmoniya yaradaraq yaşayıb, təbiətin qayğısına qala bilərik" ideyasını canlandırır. Sərgidəki rəngkarlıq əsərləri, kiçik və iriölçülü heykəllər bizi təbiətin mühafizəsində ortaq məsuliyyətimiz haqqında düşünməyə səsləyir. Bununla da incəsənət vasitəsilə dünyaya vacib çağırış edilir: vəhşi təbiəti sevgi ilə əhatə etmək, onun qorunub-saxlanılması üçün mübarizə aparmaq.

Bakı sərgisi təkcə canlı aləmin mühafizəsi haqqında deyil, həm də şəfqət, cəsarət və birlik haqqında hekayədir.

# Kahramanmaraşdakı Heydər Əliyev adına məktəb Türkiyə-Azərbaycan qardaşlığına töhfədir



Azərbaycan hökumətinin xətti ilə Türkiyənin Kahramanmaraş şəhərində inşa edilən Heydər Əliyev adına ibtidai məktəb 2023-cü il zəlzələlərindən təsirlənən Türkiyə bölgələrində təhsil sisteminin inkişafına əhəmiyyətli töhfələr verməkdə davam edir.



Qardaş ölkənin 53 mindən çox sakininin həyatına son qoyan təbii fəlakətin üçüncü ildönümündə AZƏRTAC-ın müxbiri müasir təhsil müəssisəsinin tez bir zamanda inşa edildiyi Kahramanmaraşın "Azərbaycan" məhəlləsinə baş çəkib.

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) Kahramanmaraşda sosial və yaşayış obyektlərinin tikintisi layihəsi üzrə Azərbaycan hökumətinin icraçı orqanı kimi çıxış edib.

Kahramanmaraşdakı Heydər Əliyev adına ibtidai məktəb 2024-cü ilin sentyabr ayında Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin milli təhsil naziri Yusuf Tekinin iştirak etdiyi mərasimlə açılıb. Müasir üslubda tikilmiş üçmərtəbəli məktəb və uşaq bağçası binasında 20 ibtidai sinif otağı və üç uşaq bağçasına aid sinif yerləşir. Burada həmçinin laboratoriya, musiqi otağı, sənətkarlıq və incəsənət emalatxanaları, ayrıca texnologiya, riyaziyyat və mühəndislik otaqları var.

Sinif otaqlarında və dəhlizlərdə iki ölkənin bayraqları asılıb, məktəbin əsas girişində isə Ümummilli Lider Heydər Əliyevin portreti olan stend qoyulub.

Məktəbin direktoru Murat Demirçi bildirib ki, fəlakət zonasındakı digər məktəblərdə yer çatışmazlığı səbəbindən məktəb tədris planını iki növbədə təşkil edib və Kahramanmaraşdakı digər məktəblərdən bəzi şagirdlər Heydər Əliyev adına ibtidai məktəbə köçürülüb.

"Kahramanmaraşda yüzlərlə uşaq bu gün Türkiyə və Azərbaycan arasında dostluq ruhunda tərbiyə olunur, bu, iki qardaş ölkənin gənc nəsillərinə yaraşır", - deyə Demirçi vurğulayıb. O, Türkiyədəki fəlakət zonasının bərpasına verdiyi töhfələrə görə Azərbaycan rəhbərliyinə və şəxsən Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

# Yeni metro stansiyaları, tramvay və genişləndiriləcək şəhərətrafı dəmir yolu şəbəkəsi

## Paytaxtda nəqliyyat və sərnişin sıxlığını aradan qaldırmaq üçün tədbirlər görülür

Dünyada baş verən şəhərləşmə prosesi son dövrlər daha da sürətlənib. Bunun sayəsində inkişaf etmiş ölkələrdə əhalinin mütləq əksəriyyəti indi iri şəhərlərdə yaşayır. Urbanizasiya adlanan bu mərhələ ölkəmizdən də yan keçmir.



Urbanizasiya prosesi həmçinin şəhərlərdə bir sıra sosial problemlər də yaradır. Bu, özünü mənzil, nəqliyyat, tibb, təhsil, kommunal infrastruktur sahələrində daha qabarıq göstərir. Bakıda isə əhalinin qarşılaşdığı problemlərin önündə sərnişin və nəqliyyat sıxlığı dayanır. Amma problem varsa, o həll edilməlidir.

Ötən il bu məqsədlə Bakı şəhəri və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi üçün 2025-2039-cu illəri əhatə edən dövlət proqramı qəbul olunub. Həmin proqramın icrası çərçivəsində artıq bir sıra işlərə başlanılıb. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov bu barədə deyib ki, paytaxtın mərkəzindən nisbətən uzaqda yerləşən Yeni Günəşli, Masazır, Saray və digər yaşayış massivlərinə metro xətlərinin çəkilməsi növbəti mərhələlərdə nəzərdən keçiriləcək: "Yanaşmanın əsas məqsədi ondan ibarətdir ki, şəhərin mərkəzinin yükü azalsın. İndi metroda mərkəzi stansiyalar rolunu ən çox "28 May" və "Sahil" stansiyaları daşıyır. Digər stansiyalardan gələnlər əsasən bu iki stansiyaya gəlir. İlkin olaraq keçid stansiyalarını inşa etməyimizin əsas səbəbi mərkəzin nəqliyyat yükünü azaltmaq və sərnişinlərin mərkəzə gəlməsi və mərkəzdən getməsi üçün alternativ stansiyalar təklif etməkdir, yəni şəbəkəni şaxələndirməkdir. "28 May" stansiyasına keçid stansiyası olaraq "Cəfər Cabbarlı" stansiyası mövcuddur. 2030-cu ilədək "Nizami", "Sahil" və "Xətai" stansiyaları üçün də keçid stansiyaları inşa olunacaq və bununla da mərkəzi stansiyaların yükü azalacaq. Bundan sonrakı mərhələlərdə isə artıq şəhərətrafı ərazilərə metro xətlərinin çəkilməsi məsələsi gündəmə gətiriləcək".

Metro şəbəkəsində aparılan yenidənqurma və xətlərin ayrılması zamanı sərnişin daşınmasında müəyyən dəyişikliklərin yaranması təbii haldır. O üzdən daşımada fasilələrin yaranmaması üçün yeni avtobus marşrutları yaradılacaq. Bu məqsədlə 11 müvəqqəti avtobus xətti fəaliyyət göstərəcək ki, həmin marşrutlar əsasən "Nizami-28 May", eləcə də "Əcəmi-28 May" kimi intensiv istiqamətlər üzrə əlaqəni təmin edəcək. Beləliklə, metronun fəaliyyətində yarana biləcək məhdudiyyətləri avtobuslar kompensasiya edəcək.

Məlum olduğu kimi, Bakıda sərnişin daşınmasında metro ən önəmli nəqliyyat vasitəsidir, xüsusən paytaxtda qar yağanda bu nəqliyyat növünün üstünlükləri daha qabarıq görünür. Paytaxtda yeni metro xətləri və stansiyalarının tikilməsi həm də bu zərurətdən yaranır. Bundan əlavə, Bakının ətraf ərazilərində sərnişin daşınmasının səmərəliliyini artırmaq üçün ənənəvi tramvay xətlərinin yenidən çəkilməsi qərara alınıb. Yeni və sürətli tramvaylar əvvəlkilərdən fərqlənərək daha çox sərnişin daşınmasına imkan yaradacaq. Planlaşdırılan "Mehdiabad-28 May" (HUB) tramvay xətti paytaxtın şimalındakı qəsəbələrin mərkəzlə birbaşa bağlantısını təmin edəcək.

Yeni çəkiləcək tramvay xəttinin paytaxtda sərnişin daşınmasına verəcəyi üstünlük barədə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov demişdir: "Tramvay xətti istifadəyə verildikdən sonra bu dəmir yolu stansiyasında, həmçinin metronun "Azadlıq prospekti" stansiyası yaxınlığında sərnişin mübadiləsi baş tutacaq. Yəni tramvayla gələn sərnişinlər səfərlərini dəmir yolu və ya metro ilə davam etdirə biləcəklər. Növbəti sərnişin mübadiləsi isə son dayanacaq kimi nəzərdə tutulan Bakı şəhərinin əsas nəqliyyat mübadilə mərkəzi olan "28 May"da baş tutacaq. Hesablamalara görə, bu dəhliz istifadəyə verildikdən sonra həmin istiqamətdə təxminən 20 mindən çox avtomobilin gedişinin azalacağı gözlənilir".

R.Hümmətov qeyd etmişdir ki, tramvay xətləri keçən ərazilərdə infrastrukturun sürətli inkişafı baş verəcək: "Tramvayın bir çox üstünlüyü var: o, yüksək sərnişindaşıma qabiliyyətinə malikdir, ekoloji cəhətdən təmizdir, uzunömürlüdür (istismar müddəti 50 ilə qədərdir) və xüsusi yollarla hərəkət etdiyinə görə tıxaca düşmür. Bu da avtobus və trolleybuslarla müqayisədə daha rahat və sürətli hərəkəti təmin edir. Tramvaylar vasitəsilə irihəcmli sərnişin axınlarının sürətli və rahat şəkildə mobilliyini təmin etmək mümkündür. Tramvaylar ilk növbədə həmin dəhlizlər üzrə olan avtobus marşrutları ilə inteqrasiya olunur. Burada avtobuslar əlaqələndirici rol oynaya bilir, yəni sərnişinlər bu nəqliyyat növü vasitəsilə tramvay dayanacaqlarına çata bilirlər. Digər tərəfdən əgər həmin dəhlizlər üzrə metro və ya dəmir yolu stansiyaları mövcuddursa, tramvaylar mütləq şəkildə həmin stansiyalarla da inteqrasiya olunurlar. Bu zaman sərnişinlər səyahətlərini özlərinə uyğun və rahat nəqliyyat növləri ilə davam etdirə bilirlər".

Paralel olaraq şəhərətrafı ərazilərdəki dəmir yolu şəbəkəsi də genişləndirilir. Bu məqsədlə 2030-cu ilədək həmin istiqamətdə əlavə 25 dayanacaq və stansiyaların istifadəyə verilməsi proqnozlaşdırılıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Ədalətin qələbəsi

## Müharibə cinayətləri törədənlər layiq olduqları cəzalarını alıblar

Ədalət gec-tez öz hökmünü verir. Hər kəs öz əməllərinə görə cavab verməli olur. Bir zamanlar Qarabağda, Şərqi Zəngəzurda haqqı, insanlığı unudaraq ən ağır, ən dəhşətli cinayətlər törətməkdən çəkinməyənlərin də bir çoxu bunu Bakı Hərbi Məhkəməsində qanun qarşısında cavab verərkən gördülər.

1980-ci illərin sonlarından başlayaraq Qarabağı münaqişə ocağına çevirəndə, keçmiş SSRİ rəhbərliyinin ikili oyunlarından yararlananda, himayədarlarının verdikləri silah-sursatla, hərbi texnika ilə əllərindən ov tüfəngləri belə alınmış azərbaycanlılara qarşı vuruşanda, dinc sakinlərə hücum edəndə, günahsız körpələrə, qız-gəlinlərə, qocalara, əlillərə divan tutanda, işgəncələr verəndə qəddar ermənilər dəhşətli əməllərinin cəzasız qalacağını güman edirdilər.

Lakin 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatları nəticəsində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində qəhrəman Azərbaycan Ordusu işğalçı ölkənin silahlı qüvvələrini məğlubiyyətə uğradaraq Zəfər qazandı. Ermənistanın işğalı altında otuz ilə yaxın qalmış Qarabağ və Şərqi Zəngəzur azad edildi.

2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın suverenliyi tam təmin edildi. Qürur duyduğumuz üçrəngli, ay-ulduzlu bayrağımız ölkəmizin bütün ərazilərində dalğalandırıldı.

Azərbaycanın hüquq-mühafizə orqanları antiterror tədbirləri nəticəsində Qarabağdakı qondarma rejimin başçıları olmuş Arkadi Qukasyan, Bako Saakyan, Arayik Harutyunyan, habelə "sabiq xarici işlər naziri" David Babayan, "parlament sədri" David İşxanyan, "generallar" Lyova Mnatsakanyan, David Manukyan və "keçmiş dövlət naziri" Ruben Vardanyan və digər separatçılar qandallanaraq Bakıya gətirildilər. Onların törətdikləri cinayət əməllərinə görə istintaq prosesi başladı.

Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə təqsirləndirilən 15 şəxs ədalət mühakiməsinə cəlb olunublar. Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni,



Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham ediliblər. Təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunublar.

Qanun qarşısında cavab verən erməni hərbi cinayətkarların 1989-cu ildən 2023-cü il sentyabrın 20-dək Azərbaycana qarşı ağır cinayətlər törətdiklərinə dair faktlar və sübutlar kifayət qədərdir. Dövlətimizin başçısı İlham Əliyevin "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda qeyd edildiyi kimi: "Açıq mənbələrdə və internet resurslarında Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş insanlığa sığmayan əməlləri sübut edən kifayət qədər foto və videolar mövcuddur. Müharibə cinayətləri və bəşəriyyətə qarşı cinayətlər törətmiş bəzi şəxslər bu gün Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab versə də, Ermənistanda buna görə hələ bir nəfər belə məsuliyyətə cəlb olunmamış, əksinə, onlar qəhrəmanlaşdırılmışdır".

Erməniəsilli hərbi cinayətkarların Azərbaycan xalqına qarşı törətdikləri cinayət əməllərinin nə qədər ağır və dəhşətli olduğunu çoxsaylı dəlillər, sübutlar təsdiqləyib. Respublikamızın hüquq-mühafizə orqanları tərəfindən erməni quldurlarının bütün müharibə cinayətlərinin faktları torpaqlarımızın işğala məruz qaldığı ilk vaxtlardan etibarən diqqətlə, həssaslıqla, yüksək peşəkarlıqla toplanılıb. Bakıda keçirilən ədalət məhkəməsində qanun qarşısında cavab verən erməniəsilli şəxslər necə böyük cinayətkar olduqlarını videoyazılar, qəzet, jurnal, televiziya materialları, sənədli ədəbiyyat, internetdə, sosial şəbəkələrdə yer almış çıxışlar, çəkilişlər, fotolar və başqa inkarolunmaz faktlar bütün reallığı ilə aşkara çıxarıb.

Məhkəmə iclasları zamanı tribunalarda yer alan zərərçəkənlər, onların hüquqi varisləri və nümayəndələri özlərinin, doğmalarının başlarına erməni cinayətkarların gətirdikləri tükürpədici cinayətləri dilə gətiriblər.

Məhkəmə prosesinin ötən il mayın 2-də davam etdirilən baxış iclasında zərərçəkmiş şəxs, Qaradağlı kənd sakini Rafiq Quliyev Ermənistan silahlı qüvvələrinin kəndə hücumlar etməsi, mülki şəxsləri və avtobusları atəşə tutması, azərbaycanlılara işgəncə verilməsi, onların qətlə yetirilməsi və digər hadisələr barədə danışıb. O, kəndin işğalı ilə bağlı sualları cavablandırarkən bildirib: "Bizə deyirdilər ki, Qarabağ ermənilərindir, çıxın gedin". Rafiq Quliyev Qaradağlı kəndi işğal olunan zaman özünün, atasının və anasının Ermənistan hərbçiləri tərəfindən girov götürüldüyünü söyləyib. R.Quliyev özünün, atası Əlastan Quliyevin digər azərbaycanlılarla birlikdə "KamAz"lara mindirilərək Xankəndiyə aparıldığını, yolda "Bəylik bağı" adlanan yerdə maşını saxlayaraq girovların bir qisminin qətlə yetirildiyini deyib. Zərərçəkmişin atası Ə.Quliyev bir müddət girovluqda qalandan sonra Ermənistan hərbçilərinin verdiyi işgəncələr nəticəsində ölüb. "Anam 13 gün girovluqda saxlanıldıqdan sonra qaytarıldı. Mən isə 45 gündən sonra girovluqdan azad edildim. Girovluqda olan zaman bizi hər axşam döyürdülər. Hər gün bir tikə çörək, azca su verirdilər ki, ölməyək, sağ qalaq. Amma işgəncə verməkdə davam edirdilər".

Zərərçəkmiş şəxs, Qaradağlı Kənd Xalq Deputatları Sovetinin sədri olmuş Cavay Hüseynov ifadəsində Ermənistan silahlı qüvvələrinin kəndə dəfələrlə hücum etməsindən və özünün yaralanmasından danışmışdı.

Ötən il sentyabrın 22-də məhkəmə prosesi sənədlərin tədqiqi ilə davam etdirilib. 1991-ci il avqustun 23-də Əsgəran rayonunun Cəmilli kəndində "UAZ" markalı avtomobilin atəşə tutulması faktı üzrə sənədin tədqiqi zamanı bildirilib ki, içərisində çoxsaylı sərnişin olan "UAZ" markalı avtomobilin ermənilər tərəfindən avtomat silahlardan atəşə tutulması nəticəsində N.F.Salahov, V.İ.Sadıxov və M.S.Abdullayeva həlak olub, çoxlu sayda sərnişin yaralanıb.

Digər cinayət işi Ermənistan ordusu tərəfindən 1992-ci ilin fevralında Şuşa rayonunun Malıbəyli və Quşçular kəndlərinin iri və kiçikçaplı silahlardan intensiv atəşə tutulması, ağır texnikalardan istifadə etməklə hər iki kəndə hücumla bağlı olub. Bu hadisələr nəticəsində Malıbəyli kənd sakinlərindən çoxlu sayda şəxs öldürülüb, bir neçə nəfər itkin düşüb, Quşçular kəndində isə bir neçə nəfər öldürülüb, çoxlu sayda şəxs isə girov götürülüb.

Daha bir cinayət işi - 1991-ci il sentyabrın 8-də Xocavənd rayonunda "LAZ" markalı avtobusun atəşə tutulması faktı üzrə sənəd tədqiq olunarkən bildirilib ki, Kiş kəndinin fermasının yaxınlığında avtomat silahlarla silahlanmış ermənilər tərəfindən avtobusa açılan atəş nəticəsində bir neçə nəfər hadisə yerində ölüb, onlarla şəxs yaralanıb.

Digər bir ittiham 1991-ci il noyabrın 4-5-də Qazax rayonunun Xeyrımlı kəndinin silahlılar tərəfindən müxtəlif növ silahlardan atəşə tutulması ilə bağlı olub. Hadisə nəticəsində həmin kənd sakinlərindən çoxlu sayda şəxs həlak olub və müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Erməni hərbi cinayətkarlar tutarlı faktların qarşısında qalaraq cinayət əməllərini etiraf etməli olublar.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesi fevralın 5-də Bakı Hərbi Məhkəməsində davam etdirilib və təqsirləndirilən şəxslərə hökm oxunub. Azərbaycan xalqına qarşı dəhşətli cinayətlər törətmiş hərbi cinayətkarlar layiq olduqları cəzanı alıblar. Oxunan hökm bir daha göstərdi ki, cinayət nə unudulur, nə də cəzasız qalır. Zərərçəkənlərin ifadələri, toplanmış saysız-hesabsız sübutlar, faktlar və etiraflar erməni hərbi cinayətkarların törətdikləri vəhşiliklərin miqyasını bütün dünyaya bir daha nümayiş etdirdi.

Bakı Hərbi Məhkəməsində keçirilən açıq və şəffaf məhkəmə prosesi sübut etdi ki, Azərbaycan dövləti hər zaman ədalət yolu tutur. Bu hökm eyni zamanda itkin düşmüş minlərlə soydaşımızın ruhuna bir ehtiram, onların ailələrinə isə mənəvi təsəlli oldu. Azərbaycan dövləti öz vətəndaşlarının haqqını qorumağa qadir olduğunu, suverenliyini və ərazi bütövlüyünü təkcə döyüş meydanında deyil, hüquq müstəvisində də tam təmin etdiyini təsdiqlədi.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan və Ermənistan iqtisadi inteqrasiyaya əsaslanan sülh modelini təşviq edir

Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyan arasında Əbu-Dabidə keçirilən növbəti görüş göstərir ki, tərəflər danışıqlar prosesini regional vasitələrdən kənar birbaşa praqmatik formatda davam etdirmək niyyətindədirlər. Bu görüş eyni zamanda hər iki ölkənin dialoqu davam etdirməyə üstünlük verdiyini təsdiqlədi.



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Fuad Abdullayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, hər iki ölkə rəhbəri əsas məqsədin sülh müqaviləsinin imzalanması və regionda postmünaqişə reallıqlarının hüquqi çərçivəyə salınması olduğunu bəyan edirlər: "Sülh mühitinin formalaşması istiqamətində artıq gözlə görülə biləcək əlamətlər mövcuddur. Azərbaycan Ermənistan üçün tranzit imkanlarını açmaqla sülhə yönəlik niyyətini praktiki addımlarla nümayiş etdirir. Azərbaycan üzərindən taxıl Ermənistana daşınır və ölkəmizdən neft məhsulları tədarük olunur. Eyni zamanda Ermənistandan Azərbaycan istiqamətində bəzi məhsulların ixracı ilə bağlı danışıqlar aparılır. Bu proses iqtisadi və texniki xarakter deyil, siyasi məna daşıyır. Bu hər iki ölkə rəhbərliyinin regionda qarşıdurma deyil, iqtisadi və nəqliyyat inteqrasiyasına əsaslanan sülh modelini təşviq etdiyini göstərir".

Siyasi şərhçi qeyd edib ki, son zamanlar Paşinyanın çıxışlarında, xüsusilə BƏƏ-də "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimetmə mərasimində sülhlə bağlı açıqlamaları qarşı tərəfin də müəyyən mənada xoş niyyətindən xəbər verir. Ermənistanda bu konstruktiv mövqeyin ortaya çıxması bir neçə amillə bağlıdır.

F.Abdullayevin fikrincə, bunların əsas səbəbi Ermənistanın regional təcriddən çıxmaq istəyi və iqtisadi imkanlar əldə etmək üçün Azərbaycanla münasibətlərinin normallaşmasının alternativsiz olduğunu dərk etməsidir: "Ermənistan Azərbaycandan daxil olan avtomobil yanacağının iqtisadi effektini hiss edir və anlayır ki, sülh sazişi bağlandıqdan sonra ölkə üçün yeni iqtisadi imkanlar və bununla bağlı sosial rifah perspektivləri açılacaq. BƏƏ-də keçirilən görüşdə yalnız rəsmi siyasi dialoqun deyil, həmçinin vətəndaş cəmiyyətləri arasında olan danışıqların əhəmiyyəti də vurğulanıb. Çünki uzun illər davam etmiş münaqişə yalnız dövlətlərarası deyil, həmçinin cəmiyyətlərarası münasibətləri də zədələyib. Vətəndaş cəmiyyətləri, ekspertlərin və qeyri-hökumət aktorlarının dialoqa cəlb edilməsi etimad mühitinin formalaşmasına xidmət edir. Bu istiqamətdə atılan addımlar göstərir ki, tərəflər sülhü yalnız sənəd üzərində deyil, cəmiyyətlərin şüurunda da möhkəmləndirmək istəyirlər. Məhz buna görə BƏƏ-dəki görüşdə bu komponentin ayrıca qeyd olunması prosesi daha geniş və perspektivli dövrdə davam etdirmək baxımından əhəmiyyətli siqnal kimi dəyərləndirilə bilər".

Siyasi şərhçi bildirib ki, iki ölkə arasında sülhün tam bərpa olunması və sazişin bağlanmasının təmin edilməsi üçün Ermənistan konstitusiyasında və digər normativ hüquqi aktlarında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması zəruridir. Azərbaycanın bu məsələdə mövqeyi aydın və dəyişməzdir. Onu da əlavə edək ki, Azərbaycanın irəli sürdüyü tələblər əsaslı xarakter daşıyır. Hazırda Ermənistanda faktiki seçkiqabağı vəziyyət formalaşır. "Ermənistanda müxalif qüvvələrin əhəmiyyətli hissəsi revanşizm mövqeyindən çıxış edir və sülh prosesinə açıq şəkildə qarşıdırlar. Məhz buna görə də Azərbaycan sülh sazişinin yalnız bəyanatlarla deyil, hüquqi mexanizmlərlə möhkəmləndirilməsini tələb edir", - deyə o əlavə edib.

F.Abdullayev vurğulayıb ki, Ermənistan konstitusiyasında müstəqillik bəyannaməsinə olan istinadda Azərbaycana olan ərazi iddialarının aradan qaldırılması tələbi də bu kontekstdən irəli gəlir. Ermənistanın ədliyyə naziri yeni konstitusiya mətninin təxminən 6 ay ərzində hazırlanacağını bəyan edib. Lakin ölkə daxilindəki mövcud ictimai-siyasi vəziyyət nəzərə alınarsa, bu prosesin nə dərəcədə stabil və ardıcıl həyata keçiriləcəyi sual doğurur. Bu baxımdan Azərbaycan üçün əsas meyar Ermənistan rəhbərliyinin səsləndirdiyi bəyanatlar deyil, İrəvanın hüquqi müstəvidə atacağı konkret addımlardır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Fransa yenə təəccübləndirmədi

## Senat Bakı və İrəvan arasında sülh prosesini sabotaj etməyə çalışır

Azərbaycan və Ermənistan arasında dayanıqlı sülhün bərqərar olması üçün mühüm diplomatik addımların atıldığı bir vaxtda, Fransa növbəti dəfə qərəzli mövqe nümayiş etdirib. Fransa Senatı beynəlxalq hüququn prinsiplərini və Azərbaycanın suveren hüquqlarını heçə sayaraq, Bakıda mühakimə olunan erməni separatçıların himayəsinə hesablanmış yeni qətnaməyə imza atıb. Ermənistana yaxın dairələrin və ələlxüsus erməni lobbisinin təzyiqi ilə qəbul edilən bu sənəd Fransanın sülh prosesinə açıq-aşkar pozucu müdaxiləsi, məqsədyönlü təxribatı kimi qiymətləndirilir. Bu addım həm beynəlxalq hüquq normaları, həm də regionda davamlı sülhün yaradılması cəhdləri ilə ziddiyyət təşkil edir.

183 senatorun dəstəklədiyi kağız parçası Parisin qeyri-konstruktiv siyasətinin və regiondakı reallıqlardan uzaq düşdüyünün növbəti bariz nümunəsidir. Qətnamə Fransa-Ermənistan dostluq qrupu tərəfindən irəli sürülüb və senator Loran Vokyenin təşəbbüsü ilə gündəmə gəlib. Loran Vokyen Ermənistandakı revanşist qüvvələrin və radikal müxalifətin "ümid işığına" çevrilmiş fiqurlardan biridir. Onun bölgəyə dair səsləndirdiyi bəyanatlar sülh prosesinə xidmət etmir, əksinə, Ermənistan daxilindəki destruktiv qüvvələri daha da cəsarətləndirir. Ermənistandakı köhnə düşərgə xalqı inandırmağa çalışır ki, guya hakimiyyət dəyişərsə, Fransa kimi dövlətlər hərbi yolla onlara kömək edəcək. Vokyen kimi təxribatçıların populist təşəbbüsləri bu yanlış inamı qidalandırır. Lakin dəfələrlə sübut olunub ki, xarici siyasətçilərin emosional dəstəyi real böhran anlarında Ermənistanı xilas etməyib.

Senatın bu addımı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı birbaşa hörmətsizlikdir. Bakıda mühakimə edilən separatçıların "hərbi əsir" kimi qələmə verilməsi hüquqi cəhətdən əsassızdır. Çünki bu şəxslər konkret cinayət əməllərinə, o cümlədən separatçılıq və terrorçuluq fəaliyyətlərinə görə məsuliyyətə cəlb olunublar.

Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi üzrə intensiv danışıqların getdiyi, liderlər arasında təmasların sıxlaşdığı, ikitərəfli ticarətin və sərhədlərin delimitasiyası prosesinin başladığı bir vaxtda belə absurd bir sənədin qəbulu ermənidən daha artıq erməni olmaq cəhdidir. Ermənistandakı revanşist qüvvələri stimullaşdıran bu cür zərərli təşəbbüslər regionda uzunmüddətli sabitlik üçün vacib olan etimad quruculuğu tədbirlərinə də mane olur.



Paradoks odur ki, Ermənistan Baş naziri Nikol Paşinyan mövcud reallığı qəbul edərək, ölkəsini gələcək fəlakətlərdən sığortalamaq üçün separatizm mövzusunu və keçmiş iddiaları birdəfəlik kənara atıb. Paşinyan da anlayır ki, bu şəxslər Azərbaycanın suverenliyinə qarşı ağır cinayətlər törədiblər və onların məsuliyyətə cəlb olunması hüquqi prosesdir. Fransa tərəfi isə süni şəkildə artıq külü də qalmamış separatçılığı yenidən körükləmək həvəsindədir. Paris bu məsələni siyasiləşdirməklə tərəflər arasında sülh sazişinin imzalanmasını sabotaj edir. Ermənistandakı revanşistlərə "hələ hər şey bitməyib" mesajı verərək onları şirnikləndirir. Qətnamənin səsçoxluğu ilə qəbul edilməsi Fransadakı erməni lobbisinin və daxili siyasi maraqların xarici siyasəti necə üstələdiyini də göstərir. Müəyyən kəsimin rəğbətini qazanmaq naminə beynəlxalq ədalətin qurban verilməsi qəbuledilməzdir. Senatın qətnaməsi hüquqi baxımdan əhəmiyyətsiz olsa da, siyasi müstəvidə Azərbaycan-Fransa münasibətlərini daha da soyuqlaşdırır, münasibətlərin normallaşmasına imkan vermir. Əvvəllər də Parisin ölkəmizə zidd olan xeyli sayda sənəd və bəyanatları ilə qarşılaşmışıq. Hətta 2020-ci ilin noyabr ayında Fransa Senatı bütün səlahiyyətlərini aşaraq, dünya hüquq sistemini gözardı edərək, hökuməti Qarabağdakı separatçı rejimi tanımağa çağıran qətnamə qəbul etmişdi.

Azərbaycan heç zaman Fransa ilə bağların kəsilməsini arzulamayıb, əksinə, əməkdaşlığın irəliləməsini dəstəkləyib. Amma 44 günlük Vətən müharibəsindən bu yana Fransa tərəfinin ölkəmizə qarşı ardıcıl qaralama siyasəti yürütdüyünün şahidi oluruq. Senatın sonuncu qətnaməsi Parisin normal əməkdaşlıqda maraqlı olmamasından xəbər verir. Fransanın hətta İrəvan üçün belə bağlanmış məsələni qurdalaması Parisin onsuz da azalmış beynəlxalq nüfuzuna xələl gətirir. Fransa rəhbərliyi artıq regionda yaranmış yeni vəziyyəti dərindən dərk etməli və Azərbaycanla əlaqələrin bərpasına can atmalıdır. Çünki Azərbaycan öz potensialı və qətiyyəti sayəsində bölgədə tamamilə yeni mühit formalaşdırıb. Bakı belə önəmsiz təzyiq metodlarına məhəl qoymadan haqlı bildiyi yolda uğurla irəliləməyə davam edəcək. Erməni xalqı da anlamalıdır ki, Vokyen kimilərin "dəstəyi" onlara yeni münaqişə və fəlakətlərdən başqa heç nə vəd etmir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Ermənistan vətəndaşlarının məhkəməsində hökm elan olunub

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası fevralın 5-də davam etdirilib.**
**Ötən il yanvar ayının 17-də başlamış və bir ildən çoxdur davam edən məhkəmə prosesində təqsirləndirilən şəxslərin barəsində yekun məhkəmə qərarı (hökm) elan edilib.**





AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar, habelə Azərbaycan dövləti adından zərərçəkmiş qismində Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov iştirak edib.

Məhkəmə qərarında elan olunub ki, dövlət ittihamını müdafiə edən prokurorların təklifi nəzərə alınmaqla məhkəmə tərəfindən Arayik Harutyunyana, Arkadi Qukasyana, Bako Sahakyana, Davit İşxanyana, Levon Mnatsakanyana, David Babayana və David Manukyana cinayət məsuliyyətinə cəlbetmə müddətinin keçməsi ilə əlaqədar olaraq təqsirli bilindikləri aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllərə dair cəza təyin edilməyib.

Qeyd edilib ki, təqsirləndirilən şəxslər Arkadi Qukasyan və Bako Sahakyan ömürlük azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutan cinayətlərin törədilməsində ittiham olunmalarına və həmin ittihamların məhkəmə istintaqı zamanı sübuta yetirilməsinə baxmayaraq, hökm çıxarılanadək 65 yaşına çatdıqları üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tələblərinə əsasən onlara ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilməz.

Təqsirləndirilən şəxslər Arayik Harutyunyana, Arkadi Qukasyana, Bako Sahakyana, Davit İşxanyana, David Babayana, Levon Mnatsakanyana, David Manukyana, Madat Babayana, Melikset Paşayana, Qarik Martirosyana, Davit Allahverdiyana, Vasili Beqlaryana, Qurgen Stepanyana, Levon Balayana və Erik Qazaryana Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.3-cü maddəsi ilə elan edilmiş ittihamlar həmin Məcəllənin 228.2.1-ci maddəsinə tövsif edilib.

Bundan başqa, ittihamın Arkadi Qukasyana, Bako Sahakyana, Levon Mnatsakanyana və David Manukyana aid hissəsindən Cinayət Məcəlləsinin 218.1, 218.2, 279.1 və 279.2-ci maddələri rəqəmlə ifadədə xaric edilib.

Həmçinin Arayik Harutyunyana, Davit İşxanyana, David Babayana, Madat Babayana, Melikset Paşayana, Qarik Martirosyana, Davit Allahverdiyana, Vasili Beqlaryana, Qurgen Stepanyana, Levon Balayana və Erik Qazaryana qarşı irəli sürülmüş ittihamdan Azərbaycan Respublikası CM-nin 279.1 və 279.2-ci maddələri rəqəmlə ifadədə xaric edilib.

Daha sonra məhkəmə iclasına sədrlik edən elan edib ki, **Harutyunyan Arayik Vladimiri (Vladimiroviç)** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin.

**Mnatsakanyan Levon Henrixi** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin.

**Manukyan David Azati** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin.

**İşxanyan Davit Rubeni** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin.

**Babayan David Klimi** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasını həbsxanada çəksin.

**Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç)** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.



**Sahakyan Bako Sahaki** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, qanunsuz sahibkarlıq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər, dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Babayan Madat Arakeli** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə, soyqırımı, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 19 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 10 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Paşayan Melikset Vladimiri** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 19 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 8 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Martirosyan Qarik Qriqori** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, köləlik, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə, işgəncə, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 18 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 8 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Allahverdiyan Davit Nelsoni** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 6 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Balayan Levon Romiki** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, insanları zorakılıqla yoxa çıxarma, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 16 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Beqlaryan Vasili İvani** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, hərbi soyğunçuluq, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Stepanyan Qurgen Homerosi** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məhv etmə, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

**Qazaryan Erik Roberti** Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma, əhalini məcburi köçürmə, təqib, müharibə qanunlarını və adətlərini pozma, silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma, qəsdən adam öldürmə, terrorçuluq, cinayətkar birlik (təşkilat) yaratma, qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə, hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma cinayətlərini törətməkdə təqsirli bilinərək qəti olaraq 15 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edilsin və cəzasının ilk 5 ilini həbsxanada, qalan hissəsini ciddi rejimli cəzaçəkmə müəssisəsində çəksin.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs məhkum edilib.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə təqsirli biliniblər.

# Azərbaycanın xarici siyasəti milli təhlükəsizlik kontekstində

**XXI əsrin gəlişi ilə dünya dövlətləri milli təhlükəsizlik məsələsinə yeni çağırışları nəzərə alaraq yanaşmağa başladılar. Xüsusilə böyük dövlətlər bununla bağlı konseptual yeniliklərə baş vurmaqdadırlar. ABŞ-nin 2025-ci ilin noyabrında milli təhlükəsizlik strategiyasını yeniləməsi də məhz bu kontekstdə diqqət çəkir. Görünür, bu, əsasən ABŞ-nin dünyanın ən qüdrətli dövləti olması ilə bağlıdır. Çünki Amerika bu statusda qlobal miqyasda təhlükəsizliyə təsir edə biləcək potensiala malikdir.**



Bununla yanaşı, ABŞ-nin yeni təhlükəsizlik strategiyasını ayrı-ayrı müstəqil dövlətlərin milli təhlükəsizlik konsepsiyası rakursundan qiymətləndirmək də aktualdır. Əgər söhbət dünyanın yeni geosiyasi düzəninin formalaşmasından gedirsə, bir çox istiqamətdə milli təhlükəsizlik konsepsiyalarının müqayisəsi daha da aktuallaşır.

Digər tərəfdən dünyanın müxtəlif regionlarında yerləşən və xarici siyasəti ilə regional və qlobal miqyaslarda təsiri olan dövlətlərin milli təhlükəsizlik strategiyaları arasında müəyyən nisbətlərin olması da geosiyasi zərurətdir. Çünki son nəticədə söhbət çox sayda dövlətlərin dinc yanaşı yaşaması formatının axtarışından gedir.

Bu müqayisələr, əlbəttə, xarici siyasətlə bağlılıqda aparılmalıdır. Ona görə ki, dövlətlərin milli təhlükəsizliyinin ilk "təmas sferası" məhz xarici siyasətdir. Dövlətin yeritdiyi xarici siyasətin mahiyyəti, məzmunu, prioritetləri və məqsədlərində milli təhlükəsizliyin mühüm aspektləri ifadə olunur. Bu tezisin işığında ABŞ ilə Azərbaycanın milli təhlükəsizliyə yanaşmalarının əsas məqamlarını müqayisə etmək mümkündür.

## Milli təhlükəsizlik və milli maraqlar

2004-cü il iyunun 29-da qəbul edilmiş "Milli təhlükəsizlik haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddəsində yazılmışdır: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, insanın, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir".

Həmin qanunun 5-ci maddəsi "Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin olunmasının əsas prinsipləri" adlanır. Onun 5.0.5. və 5.0.6. altbəndlərində milli təhlükəsizliyin təmin olunmasının əsas prinsipləri kimi aşağıdakılar vurğulanır: "beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiya; insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti".

Qanunun 6-cı maddəsində Azərbaycanın milli maraqları izah edilir. Orada göstərilir ki, "Azərbaycan Respublikasının milli maraqları - Azərbaycan xalqının fundamental dəyər və məqsədlərinin, habelə insanın, cəmiyyətin və dövlətin inkişaf və tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur".

Həmin bəndin bir neçə altbəndində isə siyasi, iqtisadi, sosial, hərbi, informasiya, ekologiya, elm, mədəniyyət və mənəviyyat sahələrində milli maraqların anlamları verilir.

Beləliklə, aydın olur ki, Azərbaycanın milli təhlükəsizliyi milli maraqların təmin edilməsini ciddi şəkildə nəzərə alır. Bu zaman milli maraqlar insan, cəmiyyət və dövlət kimi faktorların qarşılıqlı əlaqəsi fonunda nəzərdən keçirilir. Azərbaycanın milli təhlükəsizliyinin milli maraqlar üzərində qurulması müasir dövrün tələbləri baxımından prinsipial məqamdır.

Azərbaycan Prezidenti tərəfindən 23 may 2007-ci ildə təsdiq edilən "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası"nda 2004-cü ildə qəbul edilmiş qanunun əsas müddəaları əsaslı şəkildə nəzərə alınmışdır. Konsepsiyada Azərbaycanın dövlət kimi ümumi strategiyasının başlıca məqsədi belə ifadə edilmişdir: "...Azərbaycan Xəzər-Qafqaz məkanında regional əməkdaşlıq üçün olduqca mühüm, bir çox hallarda isə həlledici dövlət olub, xüsusən enerji və nəqliyyat layihələrinin həyata keçirilməsində əvəzsiz rol oynamaqdadır. Bu ümumi strategiyanın başlıca məqsədi Azərbaycan Respublikasının çiçəklənməsi, davamlı inkişafı və əhalinin rifahının təmin edilməsi, eləcə də bütün regionda təhlükəsizlik və sabitliyin təmin olunmasına töhfə verməkdən ibarətdir".

Bu əsasda konsepsiya aşağıdakı kimi xarakterizə edilir: "Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyası dövlətin müstəqilliyini, ərazi bütövlüyünü və demokratik inkişaf yolunu, strateji seçimi kimi Avro-Atlantik məkana inteqrasiyasını, bununla yanaşı, tarazlaşdırılmış xarici siyasətinin çoxşaxəliliyini vurğulayan, Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövləti xarici və daxili təhdidlərdən qorumağa yönəlmiş siyasət və tədbirlərin məqsəd, prinsip və yanaşmalarının məcmusudur".

Vurğuladığımız bu iki müddəa əsasında konsepsiyanın 1-ci bəndində "təhlükəsizlik mühiti" anlayışı aşağıdakı kimi müəyyən edilmişdir: "Azərbaycan Respublikasının təhlükəsizlik mühiti onun suverenliyi, ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı, milli maraqları, davamlı inkişafı, əhalisinin rifah və dəyərlərinin qorunmasına təsir edən amillərin məcmusudur".

Nəhayət, 2-ci bənddə "milli maraqlar" anlayışı bir neçə altbənddə izah edilmişdir.

Beləliklə, Azərbaycanın milli təhlükəsizlik strategiyasının hüquqi əsaslarını "Milli təhlükəsizlik haqqında" qanun və "Milli təhlükəsizlik konsepsiyası" sənədləri təşkil edir və məhz onlarla tənzimlənir. Hər iki sənəddə milli maraqların milli təhlükəsizliyin təməl faktorlarından birini təşkil etdiyini görürük. Yəni müasir Azərbaycan dövlətinin təhlükəsizliyinin təmininin fəlsəfəsində və praktiki reallaşmasında milli maraqlar prioritet xarakter daşıyır və aparıcı rollardan birini oynayır. Bütövlükdə həmin özəlliyin müasir tarixi mərhələdə Azərbaycanın milli təhlükəsizliyinin təminində və onun xarici siyasətdə nəzərə alınması baxımından həlledici rol oynaması XXI əsrin çağırışlarına cavab kimi böyük əhəmiyyət kəsb edir. Bu həqiqətin işığında ABŞ-nin yeni milli təhlükəsizlik strategiyasının bir sıra müddəalarına nəzər salaq.

## Strategiyanın ümumi xarakteristikası

Əlbəttə, bir paraqrafda 29 səhifədən ibarət ABŞ-nin milli təhlükəsizlik strategiyasının hərtərəfli xarakteristikasını vermək imkansızdır. Ancaq sənədin bir sıra mühüm məqamları üzərində dayanmaq mümkündür.

Sənəddə strategiya "konkret, realistik plan" kimi təqdim edilir. O, "məqsədlərlə vasitələr arasında əsas əlaqələri" izah edir. Bu kontekstdə strategiya arzuolunan nəticəyə nail olmaq üçün alətlərdən istifadəni dəqiq müəyyən etməlidir. O cümlədən "strategiya prioritetləri qiymətləndirməli, çeşidləməli və punktlaşdırmalıdır".

Bunlar əsasında milli təhlükəsizlik strategiyasının başlıca məqsədi aşağıdakı kimi müəyyən edilir: "Xarici siyasətin məqsədi əsas milli maraqları qorumaqdır ki, bu da strategiyanın əsas məqsədidir".

Deməli, ABŞ-nin milli təhlükəsizlik strategiyasında başlıca məqsəd milli maraqları qorumaq kimi müəyyən edilmişdir və onun reallaşma mexanizmi xarici siyasətdir. Dövlətin xarici siyasətinin əsas məqsədi milli maraqları təmin etməkdir.

Bu müddəanın Azərbaycanın milli təhlükəsizlik konsepsiyasında qarşıya qoyulan məqsədlə eyni olduğunu görürük. Yəni strateji məqsəd baxımından ABŞ ilə Azərbaycanın milli təhlükəsizlik sahəsində qarşıya qoyduqları məqsədlər fərqlənmir. Bu baxımdan sənəddə təqdim edilən aşağıdakı əsas məqsədlər də diqqət çəkir.

Sənədin "biz nəyi istəyirik" bölümündə vurğulanır: Hər şeydən öncə, ABŞ-nin müstəqil, suveren respublika kimi bundan sonra da həyatda qalmasını və təhlükəsizliyini istəyirlər. Ölkəni, onun xalqını, ərazisini, iqtisadiyyatını və həyat tərzini düşmən xarici dairələrdən qorumaq əzmindədirlər. O cümlədən dağıdıcı kənar təsirlərdən qorumağı, pozucu təbliğatı və yad təsirləri neytrallaşdırmaq istəyi vardır. Mədəniyyətə qarşı neqativ təsirləri rədd etməyə üstünlük verilir.

Amerikanın sərhədləri və nəqliyyat şəbəkəsi üzərində tam nəzarəti əsas götürürlər. Elə dayanıqlı infrastruktur nəzərdə tutulur ki, xaricdən xalqa və iqtisadiyyata olan dağıdıcı təsirləri tam aradan qaldıra bilsin.

Vurğulanan bu mühüm məqamlar Azərbaycanın da xarici siyasətində xüsusi yer tutur. Ölkənin suverenliyi, sərhədlərinin toxunulmazlığı, nəqliyyat şəbəkəsinin tam nəzarətdə saxlanması, xalqın və mədəniyyətin təhlükəsizliyinin təmini və dayanıqlı milli infrastrukturun yaradılması dövlət başçısının müəyyən etdiyi xarici siyasətin başlıca məqamlarıdır.

Beləliklə, ABŞ kimi qüdrətli dövlətin milli təhlükəsizliyinin təmin edilməsinin strateji məqamları ilə Cənubi Qafqazın lideri olan Azərbaycanın xarici siyasət prioritetləri arasında uyğunluq vardır. Bu da tərəflər arasında xarici siyasət sferasında bir çox mühüm məsələnin uzlaşdırılmasına geniş imkanlar açır. Onun nümunələrindən biri kimi, 2025-ci ilin avqust ayında Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişinin təməl şərtlərini Azərbaycanın təklif etdiyi beş əsas prinsipin təşkil etməsini göstərə bilərik.

## Milli təhlükəsizlik və yenilikçi ruh

Maraqlıdır ki, sənəddə "Amerikan novator (yenilikçi) ruhu" xüsusi qeyd edilmişdir. Yəni novatorluğu milli təhlükəsizlik strategiyası səviyyəsində prioritet olaraq qəbul etmək adi hadisə deyildir. Bu o deməkdir ki, ABŞ rəsmi olaraq cəmiyyətin yaradıcı, innovativ, yenilikçi olmasını bütövlükdə XXI əsrdə tərəqqinin təməl şərtlərindən biri kimi təsəvvür edir. Onu "açar sütunlardan biri" olaraq qiymətləndirir.

Digər tərəfdən, həmin kontekstdə ABŞ-nin "yumşaq güc"ünə, ölkənin keçmişini obyektiv öyrənməyə və gələcəyə pozitiv yanaşmaya, müxtəlif dini dəyərlərə, mədəniyyətlərə hörmət etməyə ciddi əhəmiyyət verilir. Bunların fonunda çox maraqlı olan digər məqam "başqa ölkələrin idarəetmə sistemlərinə hörmət"lə bağlıdır.

Bunlardan başqa, sənəddə vurğulanır ki, "Amerikanın mənəvi və mədəni intibahı" olmadan uzunmüddətli təhlükəsizlik xəyaldır. Bütün bunlar "nikbinliklə zəngin xalq" formalaşdıracaq.

Bütün bu özəllikləri ümumiləşdirsək, belə bir mənzərə yaranır: ABŞ-nin yeni milli təhlükəsizlik strategiyasında xalqın mənəvi, əxlaqi, mədəni və tarixi dəyərlərinin önəmi çox ciddi yer tutur. Bu kontekstdə, ümumiyyətlə, Amerika cəmiyyətinin yaradıcı və innovativ olması mühüm şərt hesab edilir. ABŞ gələcəyə nikbin baxa bilən toplum formalaşdırmağa böyük əhəmiyyət verir. Cəmiyyətin keçmişi və onun mənəvi dəyərləri strateji aspektdə dəyər kimi qəbul edilir. O cümlədən ailə institutunun möhkəmləndirilməsi də başlıca hədəflərdən biri kimi müəyyənləşdirilir.

Dünyanın ən nüfuzlu dövlətinin vurğulanan strateji məqsədlərinin fonunda Azərbaycanda həyata keçirilən siyasətin əsas məqamlarını müqayisə etdikdə, çox maraqlı qənaətlərə gəlmək mümkündür. Cəmiyyətin yaradıcı və ya kreativ keyfiyyətə malik olması elmi olaraq da ciddi şəkildə araşdırılan mövzudur. ABŞ sosioloqu R.Floridanın bununla bağlı ciddi araşdırmalarından bəhs edilir. O yazır ki, müasir dövrdə hər bir cəmiyyətin yaradıcı (kreativ) kəsimi olmalıdır ki, birgə fəaliyyətləri "yeni, vacib sosial-mədəni formalar yarada bilsin".

Bununla yanaşı, toplumun yaradıcılığını milli təhlükəsizliyin strateji hədəflərindən biri kimi dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevirmək bir qədər fərqli yanaşmadır. Bu yanaşmanın təməlində məhz milli maraqların dayanması mütləq şərtdir. Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetlərinin birinci sırasında "Milli maraqlara və beynəlxalq hüquqa söykənən müstəqil və prinsipial xarici siyasətin davam etdirilməsi" müddəasının yerləşdirilməsi bu baxımdan heç də təsadüfi deyildir. Məsələyə həmin həqiqət prizmasından baxdıqda düşündürücü mənzərə alınır.

Nümunə kimi Azərbaycan Prezidenti İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından bir fraqmenti xatırlayaq. Orada dövlət başçısı xüsusi vurğulamışdır ki, "Yeri gəlmişkən, kiçik bir aydınlıq gətirmək istərdim. Mən Trampın qələbəsini proqnozlaşdırmırdım. Sadəcə dedim; onun bizim kimi fundamental dəyərləri, o cümlədən ailə dəyərlərini bölüşdüyünü nəzərə alsaq, Azərbaycan xalqı üçün daha yaxşı olardı".

Fikirlərinin sonrakı hissəsində də Azərbaycan Prezidenti dövlət siyasəti kontekstində müqayisələr aparmışdır. Ölkə rəhbəri demişdir: "Beləliklə, indi biz hazırda Birləşmiş Ştatlarla güclü tərəfdaşlıq münasibətləri üçün böyük potensialı görürük. Biz Vaşinqtondan çox müsbət mesajlar almışıq və Azərbaycandan gedən mesajlar da çox müsbətdir. Bizim enerji təhlükəsizliyi və bütövlükdə, təhlükəsizlik və daşımalara aid sahələrdə güclü tərəfdaşlıq tariximiz var". Və fikirlərinə Azərbaycan lideri aşağıdakı məzmunda davam edir: "…ümid edirik ki, yaxın gələcəkdə ABŞ-Azərbaycan münasibətlərini yüksək səviyyəyə qaldıracaq mühüm hadisələr olacaq. Düşünürəm ki, bu, tamamilə təbiidir, çünki bir çox məsələ bizi, xüsusən də cənab Trampın Administrasiyası ilə birləşdirir. Yeri gəlmişkən, onun ilk prezidentliyi dövründə ABŞ-Azərbaycan münasibətləri çox müsbət olmuşdur. Fikrimcə, artıq gördüyünüz və söylədiyim həmin müsbət tendensiyaların davamı olacaq. Hazırda o, bütöv qlobal məsələlərlə və müharibələrin dayandırılması ilə çox məşğuldur. Lakin eyni zamanda o, Cənubi Qafqaz prosesində fəal iştirak edir və uzunmüddətli münaqişənin həllinin tapılması üçün Azərbaycana və Ermənistana yardım etməkdə əla iş görür. Beləliklə, düşünürəm ki, gələcəkdə daha çox yaxşı xəbərlərimiz olacaq".

Bütün bunların əsasında ABŞ-nin yeni milli təhlükəsizlik strategiyası ilə Azərbaycanın milli təhlükəsizlik konsepsiyasının müqayisəli təhlilinə xarici siyasət kursu kontekstində aidiyyəti olan bir sıra ümumiləşdirici müddəalar irəli sürmək olar.

Birincisi, Prezident İlham Əliyevin və Prezident Donald Trampın fikirləri göstərir ki, dünyada sülhün qorunması, müharibələrin qarşısının alınması və ailə institutunun təməllərinin sarsıdılmasına qarşı səylərin birləşdirilməsi istiqamətində hər iki dövlət ciddi səviyyədə əməkdaşlıq edə bilərlər. Daha konkret desək, milli təhlükəsizlik məsələsində Azərbaycan rəhbərliyinin mövqeyi ilə Donald Trampın müdafiə etdiyi əsas prinsiplər tam uyğunluq təşkil edir.

İkincisi, Azərbaycan və ABŞ üçün beynəlxalq geosiyasi, geoiqtisadi və siyasi balansın sülh yolu ilə əldə edilməsi prioritetdir.

Üçüncüsü, Azərbaycan və ABŞ ailə dəyərləri ilə yanaşı, milli təhlükəsizlik, əməkdaşlıq platformaları, regionlararası münasibətlərin qurulması, milli suverenlik, informasiya təhlükəsizliyi və digər istiqamətlərdə ortaq mövqeyə malikdirlər. Əlbəttə, bütün bunlar ailə institutunun möhkəmləndirilməsi və bütövlükdə dəyərlərin qorunması sferalarında mühüm əməkdaşlıq faktorudur. Eyni zamanda münaqişələrin qarşısının alınması baxımından da onlar əhəmiyyətli rol oynayır.

Dördüncüsü, müasir mərhələdə milli təhlükəsizliyi təmin edən faktorlar sırasında, ümumiyyətlə, siyasətdə insanı, ailə institutunu və sülhü mərkəzə alan liderlik modeli böyük önəm kəsb edir və hətta həlledici təsirə malikdir. Hər iki dövlətin xarici siyasətində bu liderlik xüsusiyyəti əhatəli şəkildə öz əksini tapmışdır.

Beşincisi, ABŞ-nin yeni milli təhlükəsizlik strategiyasında dünyanın müxtəlif regionlarına olan baxışların təhlili göstərir ki, Vaşinqton hər regionun liderləri ilə birgə fəaliyyət göstərməyə üstünlük verir. Nümunə kimi strateji sənəddə Avropa, Yaxın Şərq, Afrika, Asiya, Uzaq Şərq istiqamətlərində ABŞ-nin önəm verdiyi geosiyasi faktorlar sırasında regional liderlərin xüsusi əhəmiyyəti vurğulanır.

Buradan belə bir məntiqi nəticə çıxır ki, Cənubi Qafqazda Amerikanın milli maraqları və təhlükəsizliyi üçün vacib olan faktor Azərbaycanın liderliyini qəbul edib, onunla daha yaxından əməkdaşlıq etməkdir. Azərbaycanın xarici siyasət prioritetləri sırasında "Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması" müddəasının vurğulanması da qeyd edilən məqama tam uyğundur.

Bundan başqa, Azərbaycanın Milli Təhlükəsizlik Konsepsiyasının 4-cü bəndi olan "Azərbaycan Respublikasının milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri"nin 4.1.2-ci altbəndində qeyd edilir: "Azərbaycan Respublikası Avropa və Avro-Atlantik siyasi, təhlükəsizlik, iqtisadi və digər strukturlara inteqrasiya strateji məqsədini güdür. Azərbaycan Respublikası Avro-Atlantik strukturlarla tərəfdaşlığı bütövlükdə Avro-Atlantik məkanda ümumi təhlükəsizliyə, iqtisadi inkişafa və demokratiyaya dəstək verəcək vasitə kimi görür".

Beləliklə, Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri ilə qlobal miqyasda formalaşmış ümumi səmərəli əməkdaşlıq və təhlükəsizliyin təmin edilməsi xətti arasında uyğunluqlar var. Hətta dünyanın ən qüdrətli dövlətinin milli təhlükəsizliyinin xarici siyasətdə yeri və rolu baxımından Azərbaycanın hələ 2007-ci ildə hazırlanmış Milli Təhlükəsizlik Konsepsiyasının başlıca xüsusiyyətləri, məzmunu və məqsədləri bir çox məqamda oxşarlıq təşkil edir. Əlbəttə, nəzərə almaq lazımdır ki, ABŞ dünyanın ən güclü dövlətidir və onun strateji geosiyasi vizyonu digər dövlətlərdən fərqlənir. Ancaq müstəqil Azərbaycanın regional lider kimi təhlükəsizlik məsələsində qarşısına qoyduğu məqsədlərlə ABŞ-nin yanaşması arasında prinsipial mövqe fərqi yoxdur.

Bütün bunlar onu göstərir ki, Azərbaycan Prezidenti xarici siyasət kursunu XXI əsrin yeni çağırışlarına tam cavab verən məzmun və məqsədlər əsasında müəyyən etmişdir və bunun səmərəsindən Azərbaycan dövlətçiliyi faydalanır. Dövlət başçısı İlham Əliyev davamlı olaraq müxtəlif ölkələrə səfərlər edir, siyasi-diplomatik təşəbbüsləri ilə geniş bir geosiyasi məkanda əməkdaşlıq, təhlükəsizlik, dinc yanaşı yaşama, regionlararası əlaqələrin qarşılıqlı faydalılıq prinsipi üzrə inkişaf etdirilməsinə əvəzsiz töhfələrini verir.

Bu kimi məqamlar təsdiq edir ki, Azərbaycanın xarici siyasəti yeni mərhələdə daha da inkişaf edir və müstəqil dövlətçiliyə milli maraqlar əsasında böyük fayda verir.

Burada yeni liderlik faktorunu da mütləq vurğulamaq lazımdır. Çünki XXI əsrdə məhz liderlərin qüdrəti ümumən milli dövlətlərin beynəlxalq nüfuzunun artmasının təməlində dayanır. Bu baxımdan Azərbaycan kifayət qədər ümidverici bir statusdadır. Həmin kontekstdə Azərbaycan Prezidentinin nüfuzlu bir sülhyaratma prosesinə - ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasına dəvət edilməsi xüsusi əhəmiyyət kəsb edir. Sülh Şurasının təsisçilərindən biri kimi Azərbaycan beynəlxalq platformalarda fəal iştirak etməklə sülh gündəliyinin formalaşmasına və qlobal etimadın güclənməsinə töhfə verəcəkdir.

***Kamal ADIGÖZƏLOV,***
***beynəlxalq münasibətlər üzrə ekspert***

# BMT süni intellektlə bağlı mütəxəssis komissiyası yaradır

**BMT Baş Assambleyasının nəzdində süni intellektin (AI) sürətli inkişafı fonunda tənzimləyici tövsiyələr hazırlamaq məqsədilə Beynəlxalq Elmi Panel yaradılır. Komissiya qismində fəaliyyət göstərəcək bu quruma AI sahəsində mütəxəssislər daxil ediləcək.**




AZƏRTAC BMT-nin məlumatına istinadla xəbər verir ki, təşkilatın Baş katibi Antonio Quterreş sürətlə irəliləyən bu texnologiyanın tənzimlənməsinin təcililiyini vurğulayaraq deyib: "Süni intellekt işıq sürəti ilə hərəkət edir. Effektiv maneələr qurmaq, ümumi rifah naminə innovasiyanı açmaq və əməkdaşlığı inkişaf etdirmək üçün ortaq anlayışlara ehtiyacımız var. Panel dünyaya həqiqi faktları saxtakarlıqdan, elmi isə yalandan ayırmağa kömək edəcək".

Panelin kökləri 2023-cü ilə, ABŞ-də ChatGPT-nin və digər qabaqcıl texnologiyaların buraxılmasından sonraya gedib çıxır və bu da süni intellekt sahəsində yeni bir dövrün başlanğıcını qoyur. Quterreş aparıcı texnoloqlar və akademiklərdən ibarət bir qrup yaradıb və ona təhlükəsiz idarəetmə üçün tövsiyələr irəli sürməyi tapşırıb. Aparılan geniş müzakirələrdən sonra mütəxəssislər bəşəriyyətə fayda verə biləcək süni intellekt idarəçiliyinə yanaşma vizyonu müəyyənləşdiriblər. İdeyalar arasında müstəqil, lakin BMT tərəfindən dəstəklənən Beynəlxalq Elmi Panelin yaradılması da olub.

A.Quterreşin sözlərinə görə, yeni qurum süni intellektin bilik boşluğunu aradan qaldırmasına, habelə iqtisadiyyatlar və cəmiyyətlər arasında onun real təsirlərini qiymətləndirməyə kömək etməyə həsr olunmuş ilk qlobal, tam müstəqil elmi platforma olacaq. Panel iştirakçıları fikir mübadiləsi aparacaq, səhiyyə, enerji və təhsil kimi prioritet sahələr üzrə tövsiyələr hazırlayacaq və ən son qabaqcıl tədqiqatları paylaşacaqlar.

Fevralın 4-də Quterreş və onun texnologiya üzrə xüsusi elçisi Amandip Gill jurnalistlərə bildiriblər ki, qurumun 40 potensial üzvünün adları Baş Assambleyaya təqdim olunacaq və orada son qərar veriləcək.

A.Gill siyahıdakı ekspertlərin süni intellekt sahəsində dünya miqyasında tanınmış təcrübələrinə görə seçildiyini bildirib. Coğrafi təmsilçilik və gender balansı da bu seçimdə rol oynayıb. Cəmi 19 qadın və 21 kişidən ibarət namizədlər arasında London İqtisadiyyat Məktəbinin professoru və rəqəmsal mühitdə media savadlılığı və hüquqları üzrə məsləhətçi Sonia Livinqstone, Hindistan Texnologiya İnstitutunun Məlumat elm və süni intellekt şöbəsinin müdiri Balaraman Ravindran və tanınmış jurnalist, Nobel Sülh Mükafatı laureatı Mariya Ressa (Filippin) var.

Baş Assambleyanın üzvlüklə bağlı son qərarı fevralın 12-də verəcəyi və Beynəlxalq Elmi Panelin ilk hesabatının cari ilin iyul ayına qədər təqdim ediləcəyi gözlənilir.

# Antonio Quterreş nüvə silahları ilə bağlı təhlükənin artması barədə xəbərdarlıq edib

**BMT-nin Baş katibi Antonio Quterreş xəbərdarlıq edib ki, "Yeni START" müqaviləsinin müddətinin başa çatması beynəlxalq sülh və təhlükəsizlik üçün "ağır məqam" deməkdir, çünki ABŞ və Rusiyanın strateji nüvə silahlarına dair məcburi məhdudiyyətlər qlobal gərginliyin artması fonunda aradan qalxır.**

AZƏRTAC təşkilatın məlumatına istinadla xəbər verir ki, həmin müqavilənin müddəti fevralın 5-də başa çatır. Baş katib bununla bağlı açıqlamasında dünyanın məchul bir vəziyyətlə üzləşdiyini və planetimizin nüvə silahlarının böyük əksəriyyətinə sahib olan iki ölkənin - ABŞ və Rusiyanın nüvə arsenallarına heç bir hüquqi məhdudiyyət qoyulmadığını bildirib. O vurğulayıb: "Biz 50 ildən çox müddət ərzində ilk dəfə olaraq iki ölkənin strateji nüvə arsenallarına dair heç bir məcburi məhdudiyyətin olmadığı bir dünya ilə qarşılaşırıq".



Rəsmi olaraq "Strateji Hücum Silahlarının Azaldılması və Məhdudlaşdırılması Tədbirləri haqqında Müqavilə" kimi tanınan "Yeni START" sənədi 2010-cu ildə imzalanıb və növbəti il qüvvəyə minib.

Bu müqavilə hər iki tərəfin yerləşdirilən strateji nüvə başlıqlarının sayını 1550 ilə məhdudlaşdırıb, həmçinin qitələrarası ballistik raketlər və ağır bombardmançılar kimi çatdırılma sistemlərinə məhdudiyyətlər qoyub. Sənəd həmçinin etimadsızlığı azaltmaq və səhv hesablamaların qarşısını almaq üçün hazırlanmış məlumat mübadiləsi, bildirişlər və yerində yoxlamalar da daxil olmaqla nəzarət tədbirlərini də əhatə edirdi.

A.Quterreş bildirib ki, onilliklər ərzində imzalanmış nüvə silahlarına nəzarət sazişləri fəlakətin qarşısının alınmasında və qlobal nüvə ehtiyatlarının azaldılmasında mühüm rol oynayıb. O əlavə edib: "Soyuq müharibə boyunca və ondan sonrakı dövrdə bu müqavilə əsasında hökumətlər arasında nüvə silahlarına nəzarət olunması fəlakətin qarşısını almağa kömək edib. Bu çərçivələr sabitlik yaradıb və dağıdıcı səhv hesablamaların qarşısını alıb". Baş katib xəbərdarlıq edib ki, məhdudlaşdırma sisteminin dağılması geosiyasi gərginliyin artması və nüvə silahının istifadəsi riskinin onilliklər boyu ən yüksək olduğu ən təhlükəli bir vaxtda baş verir. Lakin o əlavə edib ki, bu, ABŞ və Rusiya prezidentlərinin yenilənmiş nüvə silahlanması yarışının təhlükələrini etiraf edən açıqlamaları fonunda dəyişən təhlükəsizlik mühiti üçün silahlara nəzarəti yenidən nəzərdən keçirmək üçün bir fürsət yaradır.

"Dünya indi sözləri əmələ çevirmək üçün Rusiya Federasiyası və ABŞ-yə ümid edir" deyən Quterreş hər iki tərəfi gecikmədən danışıqlar masasına qayıtmağa və yoxlanıla bilən limitləri bərpa edən, riskləri azaldan, qlobal təhlükəsizliyi gücləndirən yeni müqavilə barədə razılığa gəlməyə çağırıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

# İşğaldan azad olunan təkcə torpağımız yox, həm də suyumuzdur

## Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış su anbarları bərpa edilir, yeniləri tikilir

**Su təchizatının işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulub məskunlaşdırılmasında ən ümdə amillərdən biri olduğu hər kəsə məlum olan həqiqətdir. Ümumiyyətlə, su təchizatı hər yerdə həyati məsələdir və təsadüfi deyil ki, Prezident İlham Əliyev cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bu məsələdən də bəhs etdi.**

Yanvarın 12-də isə dövlətimizin başçısı Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirdi. Bu tədbirdə də Qarabağın və Şərqi Zəngəzurun su təchizatı məsələsi diqqət mərkəzində oldu.

Su təzhizatı olmadan oraya heç kəs köçə bilməz və orada heç kəs yaşaya bilməz. Prezidentimiz müsahibəsində fikirlərini bax, belə aydın və birbaşa bildirərək sözünə davam etdi: "Bu məsələ də öz həllini tapır və su anbarları - bir neçə su anbarını yenidən qurmuşuq, sıfırdan qurulan, məsələn, Zabuxçay su anbarı, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçayda üç, Xaçınçay. Bütün bunlar həm böyük vəsait, həm də işçi qüvvəsi tələb edir və onu da deməliyəm, bu işlər, əlbəttə ki, vəsait hesabına görülür. Əgər vəsait olsa, amma işçi qüvvəsi, yaxud da ki, hazırlıqlı kadrlar olmasa, biz bu işi görə bilməzdik".

İki-üç il əvvələ qayıdaq. Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 2023-cü il dekabrın 24-də Ağdam rayonunda Xaçınçay su anbarının təmir-bərpadan sonra istifadəyə verilməsində iştirak etdiklərini xatırlayaq.

Xaçınçay su anbarının təmiri və bərpası 7 kilometr uzunluğunda kanalla birlikdə aparılıb. Bu su anbarı 1964-cü ildə istismara verilib. Anbarın ümumi su tutumu 23 milyon kubmetr, bəndin hündürlüyü 44, uzunluğu 940 metr, su səthinin güzgü sahəsi 176 hektar təşkil edir.

Su anbarının yerləşdiyi ərazi 28 il işğal altında olduğundan bu mənbədən ümumilikdə suvarılan 7 min hektar torpaq sahəsinin su təminatında ciddi çətinliklər yaranmışdı. İndi texniki sxemlə Xaçınçay anbarına daxil olan sular tənzimlənərək ümumi suburaxma qabiliyyəti saniyədə 3,2 kubmetr olan əsas magistral kanala ötürülür. Kanalın başlanğıc 6,64 kilometr hissəsi də bəndlə bərabər təmir və bərpa olunub. Su anbarında yeni inzibati bina və gözətçi binası, təmir emalatxanası və nasosxana tikilib.

2024-cü il mayın 10-da isə dövlətimizin başçısı Füzuli rayonunda Köndələnçay su anbarları kompleksinin təmir-bərpadan sonra açılışını etdi. Xatırladaq ki, Köndələnçayın məcrasında tikilmiş ümumi su tutumu 3,9 milyon kubmetr, faydalı həcmi 3,6 milyon kubmetr, hündürlüyü 14 metr olan birinci su anbarı 1962-ci ildə istismara verilib. İşğaldan azad olunmuş ərazilərdə kompleks meliorasiya-irriqasiya tədbirləri çərçivəsində anbarda müvafiq təmir-bərpa işləri görülüb. Nəticədə bəndin qurğuları və mexaniki avadanlıqları sabit iş rejiminə gətirilib və istismarı üçün normal vəziyyət yaradılıb. Belə ki, layihəyə torpaq bəndin yuxarı byefində dağıdılmış bermanın və bütün bəndboyu beton üzlüyün, qülləli suburaxıcı-sutullayıcının estakadasının və çıxış hissəsinin, eni 6 metr, uzunluğu 283 metr olan səthi sutullayıcının yenidən bərpası, birmərtəbəli gözətçi evinin və çirkab su quyusunun tikintisi, xarici elektrik təchizatının təmin edilməsi və su anbarı ərazisində abadlıq-yaşıllaşdırma işlərinin görülməsi daxil idi.

1951-ci ildə istismara verilən ikinci Köndələnçay su anbarının ümumi su tutumu isə 2,1 milyon kubmetr (faydalı həcmi 1,6 milyon kubmetr), hündürlüyü 23,35 metrdir. Burada daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət-ölçü cihazları quraşdırılıb. Eləcə də suburaxıcı borunun çıxış başlığının dağılmış beton hissəsi bərpa edilib, diametri 600 millimetr olan siyirtmələr yenilənib, aparıcı kanal lildən təmizlənib, qurğunun beton konstruksiyası, uzunluğu 177 metr olan səthi sutullayıcının dəmir-beton üzlüyü yenidən qurulub. Həmçinin birmərtəbəli gözətçi evi və çirkab su quyusu tikilib, xarici elektrik təchizatı təmin edilib. Su anbarının ərazisi abadlaşdırılıb və yaşıllaşdırılıb.

Ümumi su tutumu 9,5 milyon kubmetr (faydalı həcmi 9 milyon kubmetr), hündürlüyü 25 metr olan Aşağı Köndələnçay su anbarı 1980-ci ildə istismara verilib. Təmir-bərpa zamanı burada daş örtüklü torpaq bəndin yuxarı byefində çökmüş daş örtüyü bərpa olunub, drenaj sistemi və nəzarət-ölçü cihazları quraşdırılıb. Qülləli suburaxıcının yükdaşıyan elementlərinin dəmir-beton konstruksiyalarında, dib borusunun bütün mexaniki və qaldırıcı avadanlıqlarında, qurğunun estakadasında da bərpa işləri aparılıb. Eni 6 metr, uzunluğu 780 metr olan səthi sutullayıcının bütün beton konstruksiyaları, binanın mexaniki və hidromexaniki avadanlıqları yenidən qurulub. Eləcə də yarımstansiya və elektrik xətti bərpa olunub. Quruçay üzərində suqəbuledici qurğu tikilib ki, oradan da gələn sular anbara yönəldilsin.

Keçən ilin iyun ayında Laçın rayonunda yerləşən Zabuxçay su anbarı da istifadəyə verilib. Tikintisinə 2023-cü ildə başlanan bu anbar 12 min 100 hektar əkin sahəsini (əsasən Qubadlı və Zəngilan rayonları) suvarma suyu ilə təmin etmək



və bölgədə aqrar inkişafı dəstəkləmək məqsədi daşıyır. Onun bəndinin hündürlüyü 40, uzunluğu 615 metrdir. Layihə çərçivəsində 51,6 kilometr uzunluğunda magistral boru kəməri çəkilib. Bu kəmər vasitəsilə Həkəri çayının sağ və sol sahillərindəki torpaqlar suvarılır.

İstismara verildiyi il Zabuxçay anbarı 2900 hektar aqropark sahəsini su ilə təmin edib. Bu su anbarı həmçinin Güləbird SES-ə aid infrastrukturla inteqrasiya olunub.

Prezident İlham Əliyev yuxarıda adıçəkilən müşavirədə su təchizatı ilə bağlı Qarabağda və Şərqi Zəngəzurda görülən bu və digər işlərdən bəhs edərək demişdir: "Bu gün biz azad edilmiş ərazilərdə içməli su və suvarma layihələrini icra edirik. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. Onların arasında ilk növbədə Sərsəng su anbarını qeyd etməliyəm. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. Sərsəng və Suqovuşan su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə Suqovuşan su anbarı, Sərsəng su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda Köndələnçay - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda Xaçınçay su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş Zabuxçay su anbarı bu gün artıq istismardadır".

Dövlətimizin başçısı azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - Həkəriçay, Bərgüşadçay su anbarlarının tikintisinin də nəzərdə tutulduğunu bildirdi. Bunun üçün artıq hazırlıq işləri gedir və cari ildə praktik işlərin başlanacağı gözlənilir. Deməli, bu yerlərin su təchizatı getdikcə daha da yaxşılaşacaq. Su isə həyatdır, dirçəlişdir. İndi Qarabağın və Şərqi Zəngəzurun bol suyu yurda dönən insanların ürəyinə sərinlik, çöllərə, düzlərə isə rayihə, bar-bərəkət gətirəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Şəhərsalma və Memarlıq İli"

# Dünya təcrübəsi, Azərbaycan nümunəsi

**Bütün zamanlarda şəhərsalma cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafını əks etdirən mühüm sahələrdən olub. İndi də davam edən proses nəqliyyat sistemlərinin səmərəli təşkili, ekoloji tarazlığın qorunması, ictimai məkanların əlçatanlığı və tarixi irsin saxlanılması kimi çoxşaxəli məsələləri əhatə edir. Bu baxımdan müasir şəhər planlaşdırılması həm iqtisadi, həm sosial, həm də ekoloji amillərin balanslı şəkildə nəzərə alınması tələbini qarşıya qoyur.**

Şəhərlər  hər bir ölkənin güzgüsüdür. Onların necə salınması, böyüməsi və idarə olunması həmin cəmiyyətin inkişaf səviyyəsini açıq şəkildə göstərir. Xaotik və plansız şəhər narahat cəmiyyətin, düşünülmüş və balanslı şəhər isə uzaqgörən yanaşmanın göstəricisidir. Şəhər mühiti insan həyatına birbaşa təsir edən səssiz, lakin güclü amildir. Bu mənada Azərbaycandakı şəhərsalma ilə dünya ölkələrində tətbiq olunan şəhərsalma modelləri arasında həm oxşar cəhətlər, həm də diqqətçəkən fərqlər mövcuddur. Qlobal hadisələr şəhərləri bir-birinə bənzətsə də, yerli reallıqlar onu tam eyniləşdirmir.

Azərbaycanda  son illər bu istiqamətdə mühüm addımlar atılır. Xeyli sayda park salınması, şəhər mərkəzlərinin abadlaşdırılması və yeni nəqliyyat layihələri göstərir ki, ölkə şəhərsalma sahəsində qlobal trendlərə uyğunlaşmağa çalışır. Xüsusilə Bakı şəhərində aparılan yenidənqurma və abadlıq işləri  dəyişikliklərin ən bariz nümunəsidir. Paytaxtda yeni bulvar zolağının istifadəyə verilməsi, piyada zonalarının genişləndirilməsi, ictimai nəqliyyat infrastrukturunun yenilənməsi şəhər mühitinin daha yaşanılan hala gətirilməsinə xidmət edir. Bakı həm müasir memarlıq nümunələri, həm də tarixi şəhər simasını bir arada yaşatmağa çalışan şəhər kimi formalaşma mərhələsindədir.

Bununla belə bir sıra problemlər hələ də açıq şəkildə özünü göstərir. Artan avtomobil sayı və yol infrastrukturunun qeyd olunan artıma tam uyğunlaşmaması şəhərdə başgicəlləndirici tıxaclara meydan verir. İctimai nəqliyyatın inkişaf etdirilməsi məqsədilə atılan addımlara baxmayaraq, hələ də şəxsi avtomobildən asılılıq yüksək olaraq qalır. Xüsusilə pik saatlarda şəhərin əsas prospekt və küçələrində yaranan sıxlıq paytaxtın gündəlik həyat tempini xeyli ləngidir.

Digər mühüm problem bəzən sıx və plansız şəkildə  tikilən çoxmərtəbəli yaşayış binalarıdır. Bu binaların sayının sürətlə artması bir çox ərazidə yaşıllıq sahələrinin yox olmasına, sosial infrastrukturun isə inkişaf tempinin azalmasına gətirib çıxarır. Uşaq bağçaları, məktəblər, dayanacaqlar və istirahət məkanları yeni salınan yaşayış massivlərinin ehtiyaclarını tam olaraq qarşılaya bilmir. Və  bu vəziyyət şəhər mühitində rahatlıq anlayışını sual altına qoyur.

Bakıda müşahidə olunan  mənzərə şəhərsalmanın yalnız yerli deyil, eyni zamanda qlobal müzakirə mövzusu olduğunu göz önünə qoyur. Belə bir şəraitdə sual yaranır: dayanıqlı şəhərlərin formalaşmasında qərarverici mexanizmlər necə qurulmalıdır? Sual ətrafında aparılan müzakirələr bu günlər 13-cü Ümumdünya Şəhərsalma Forumuna



(WUF13) həsr olunmuş "Parlamentlərin dayanıqlı şəhər inkişafında rolu" mövzusunda beynəlxalq tədbirdə öz əksini tapdı. Onlayn keçirilən tədbir dünyanın 30 ölkəsindən 32 parlament üzvünü bir araya gətirərək WUF13-ün əsas məqsəd və proqramları barədə məlumatlandırmaq və parlamentlərin forumdakı iştirakını təşviq etmək məqsədi daşıyırdı. Qeyd edək ki,  2026-cı ilin mayında "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri"  mövzusunda 13-cü  Beynəlxalq Şəhərsalma Forumu keçiriləcək. Hökumət, akademiya, biznes və vətəndaş cəmiyyəti nümayəndələrini bir araya gətirərək şəhərlərin gələcəyinə dair qlobal dialoqa Bakı evsahibliyi edəcək.  Prezident İlham Əliyevin sərəncamı ilə  2026-cı ilin Azərbaycanda  "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də təbii ki, bu amilə bağlıdır.  Qlobal səviyyədə şəhərsalma təşəbbüslərində Azərbaycanın fəal iştirakı və evsahibliyi göstərir ki, ölkəmizdə şəhərsalmanın strateji inkişafı prioritet məsələlərdən biridir. Lakin yerli reallıqlar diktə edir ki, dünya şəhərlərində uzunmüddətli strategiyalarla həyata keçirilən planlaşdırma Azərbaycanda bəzən sürətli inkişafın kölgəsində qalır və planlı yanaşmanın tam reallaşmasına əngəl olur. Dünyanın başqa yerlərində isə  ölkələr fərqli şəhərsalmalarla  diqqət çəkirlər.

Avropa şəhərlərində, məsələn, Paris, Roma və Praqada planlaşdırma uzunmüddətli strategiyalar əsasında aparılır və tarixi irsin qorunması ön planda götürülür. Burada ictimai məkanların əlçatanlığı, piyada və velosiped infrastrukturunun inkişafı, "yaşıl zona"ların qorunması əsas prioritetlərdəndir. Avropada şəhərlər həm estetik, həm də sosial tarazlığı qoruyaraq yenilənir.

Avropanın şimal şəhərləri olan Kopenhagen və Amsterdamda dayanıqlı şəhərsalma konsepsiyası tamamilə ekoloji yanaşma üzərində qurulub. Enerji səmərəliliyi, ictimai nəqliyyatın üstünlüyü və yaşıl məkanların genişləndirilməsi strateji hədəflərdir. Burada yeni tikililər və tarixi məkanlar arasında balans qorunur, planlaşdırma ictimaiyyətin iştirakı ilə aparılır.

Asiya şəhərlərindən olan Tokio və Sinqapura üz tutsaq  görərik ki, burada sürətli inkişaf planlı şəhərsalma ilə paralel gedir. Tokioda yüksək əhali sıxlığına baxmayaraq, nəqliyyat və sosial infrastruktura xüsusi diqqət yetirilir, Sinqapurda isə "yaşıl şəhər" konsepsiyası çərçivəsində parklar, yaşıllıq sahələri və su resursları diqqətlə qorunur.

Beləliklə, dünyada şəhərsalma təcrübəsi çoxşaxəlidir: bir tərəfdən tarixi irsin, ictimai və yaşıl məkanların balansını qorumaq, digər tərəfdən sürətli inkişaf və modernizasiya arasında tarazlığı təmin etmək şərtdir. Başqa bir tərəfdən isə dünya təcrübəsində ictimaiyyətin iştirakının şəhərsalmada vacib olduğu diqqətlərdən qaçmır. Şəhər sakinlərinin rəyinin nəzərə alınması, açıq müzakirələr və şəffaf qərarvermə mexanizmləri şəhərlərin daha yaşanılan olmasına xidmət edir. Azərbaycanda isə bu proses hələ formalaşma mərhələsindədir. Buna baxmayaraq, cəmiyyətin şəhər mühitinə marağının artması gələcək üçün ümidverici tendensiyadır.

Göründüyü kimi, uğurlu şəhərsalma yalnız tikinti ilə ölçülmür. O, insanların həyat keyfiyyətini, ictimai məkanların əlçatanlığını, tarixi və ekoloji dəyərlərin qorunmasını, həmçinin uzunmüddətli strateji planlaşdırmanı əhatə etməlidir. Azərbaycanda şəhərsalmada potensial imkanlar və təkmilləşdirilməli sahələr mövcuddur. Bakı və digər şəhərlərimiz sürətli inkişaf fonunda bu balansı qorumağı öyrəndikcə həm yerli sakinlərin rifahı, həm də beynəlxalq səviyyədə şəhərsalma uğurları daha aydın görünəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## "Bərpaolunan enerjiyə qoyulan investisiyalar yeni iş yerlərinin sayını 3 qat artırır"

**"Bərpaolunan enerjiyə qoyulan investisiyalar 3 qat daha çox iş yeri yaradır. Azərbaycan üçün bu, xüsusilə aktualdır". Bunu AZƏRTAC-a müsahibəsi zamanı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı bildirib.**

O qeyd edib ki, "yaşıl keçid" artıq, sadəcə, ekoloji gündəm deyil, eyni zamanda iqtisadiyyatın strukturunu və əmək bazarının tələbini dəyişən qlobal transformasiyadır.

"Bu yeni investisiya dalğasıdır və məşğulluq üçün real bazar yaradır. Dünya İqtisadi Forumunun (DİF) builki illik toplantısında gedən müzakirələrdə səslənən fikirlərdən birinə istinadən deyə bilərəm ki, bərpaolunan enerjiyə qoyulan investisiyalar 3 qat daha çox iş yeri yaradır. Yəni bu, təkcə enerji istehsalı deyil, paralel olaraq layihələndirmə, tikinti-quraşdırma, istismar, texniki xidmət, şəbəkə modernləşməsi və yerli təchizat zəncirləri deməkdir. Bütövlükdə baxdıqda istər süni intellekt, istərsə də "yaşıl keçid" kimi müasir tendensiyalar tamamilə yeni peşələrin yaranmasından daha çox mövcud peşələrin yenilənməsidir. Bu da təbii olaraq, əvvəlcə də qeyd etdiyim kimi, yenidən ixtisaslaşdırma (reskilling) və bacarıqların artırılmasını (upskilling) zəruri edir. Azərbaycan üçün bu, xüsusilə aktualdır. Bildiyiniz kimi, Azərbaycan böyük həcmdə bərpaolunan enerji potensialına malikdir. Təkcə Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialı 10 min meqavat gücündə qiymətləndirilir. Bundan başqa, bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının gücünün ümumi gücdə payı 20 faizdən çoxdur və bu mənbələr hesabına istehsal olunmuş elektrik enerjisinin payı son 5 ildə davamlı olaraq artmaqdadır. Təbii ki, bu potensial enerji sektorunda və onun ətraf dəyər zəncirlərində yeni peşə tələbləri yaradır", - deyə V.Qasımlı diqqətə çatdırıb.

## 4SİM 15 müəssisəyə transformasiya üzrə yol xəritəsi təqdim edib

**İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən həyata keçirilən "Sənaye 4.0 Hazırlıq" Proqramına qoşulan 15 müəssisədə qiymətləndirmə prosesi başa çatıb.**

Mərkəzdən verilən məlumata görə, qiymətləndirmə nəticəsində müəssisələrin texnoloji transformasiya və dayanıqlı inkişaf üzrə hazırlıq səviyyələri təhlil edilib. Proses ərzində yerli və beynəlxalq mütəxəssislərin iştirakı ilə müəssisələrin hər birində yerində qiymətləndirmələr aparılıb. İstehsal prosesi, əməliyyatların idarə edilməsi, texnoloji infrastruktur, avtomatlaşdırma səviyyəsi və rəqəmsallaşma göstəriciləri qeydə alınıb. Bununla yanaşı, müəssisələrdə enerji səmərəliliyi, resursların idarə olunması, tullantıların optimallaşdırılması, sosial məsuliyyət və korporativ idarəetmə sahələri üzrə mövcud vəziyyət araşdırılıb.

Qiymətləndirmə nəticələrinə əsasən, biznes subyektlərinə transformasiya üzrə fərdi yol xəritələri təqdim edilib. Yol xəritələrinin icrası müəssisələrin daha çevik, məlumatlara əsaslanan və dayanıqlı istehsal mühitinə keçidini sürətləndirəcək.


# Mədəniyyət


● Musiqi xadimləri

# Bənzərsiz ifası ilə sevilirdi

**Dünyasını dəyişdiyi vaxtdan uzun zaman keçməsinə baxmayaraq, tez-tez radio dalğalarından onun ürəklərə yatan məlahətli səslə ifa etdiyi bir-birindən şən, oynaq mahnılarına böyük sevgi ilə qulaq asırıq. Həmin mahnılar əlimizdən tutub bir anlıq da olsa, bizi xəyalən arxada qalmış illərə aparır. Müğənninin böyük şövqlə ifa etdiyi mahnılarını sevməyən, ona həvəslə qulaq asmayan çətin ki, kimsə tapılsın. Çünki o, oxuduğu mahnıları ilə sanki dünyada yaşayan insanların ürəyini, qəlbini fəth edir. Təbiidir ki, söhbət Azərbaycanın tanınmış müğənnisi, bütün zamanlarda sevilə-sevilə dinlənən Anatollu Qəniyevdən gedir. Onun bir zamanlar həyat verdiyi mahnılar bu gün bizimlə yol yoldaşlığı edir, üzü işıqlı sabahlara doğru qanadlanır.**

Anatollu Qəniyev sadə, amma olduqca mənalı bir ömür yaşayıb. O, 10 fevral 1931-ci ildə Xəzərin sahilində yerləşən Neftçala rayonunda dünyaya göz açıb. Hələ kiçik yaşlarından ürəyində musiqiyə böyük maraq pöhrələnib. Gələcəkdə musiqiçi olmaq arzusu ilə böyüyüb. 1953-cü ildə əsgəri xidmətini yerinə yetirib doğmalarının yanına qayıtdıqdan sonra görkəmli müğənni Bülbülün məsləhətilə Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbinə qəbul olub. Bülbül onun mahnılarını dinləyəndə heyranlığını gizlətməyib. İlk addımlarını atmağa başladığı bu təhsil ocağının Anatollu Qəniyevin musiqiçi kimi formalaşmasında çox böyük rolu olub. Burada zəngin təcrübəsi olan Firudin Mehdiyevin sinfində təhsil alıb, musiqinin sirlərinə dərindən yiyələnib.

Anatollu Qəniyev sonralar Azərbaycanın görkəmli müğənniləri olmuş Zeynəb Xanlarova, Oqtay Ağayev, İslam Rzayev, Məmməd Salmanovla bir parta arxasında oturub.1959-cu ildə musiqi məktəbini uğurla başa vurduqdan sonra Azərbaycan Dövlət Radio və Televiziyasının solisti kimi çalışıb. O, peşəkar ifaçılıq fəaliyyətinə Cahangir Cahangirovun rəhbərlik etdiyi Azərbaycan Televiziyasının xorunda başlayıb. 1970-ci illərin axırlarında isə "Azkonsert" kimi tanınan Dövlət Konsert-Qastrol Birliyinin solisti olub.

İfa etdiyi mahnıları ilə milyonların sevgisini qazanan Anatollu Qəniyev heç vaxt rəsmi şəxslərin diqqətində olmağa çalışmayıb, fəxri adlar almaq üçün kiminsə qapısını döyməyib. Sadəcə olaraq, müğənni kimi ürəyinə yatan mahnıları sevə-sevə oxuyub, xalqımızın musiqisinə yeni nəfəs verib. Ən böyük mükafatı isə tamaşaçı alqışı və sevgisi idi. Fəxri adlardan söz düşəndə həmişə deyərmiş ki, "xalqın sevimli artistiyəm, bu, mənə bəsdir". Ulu Yaradanın bəxş etdiyi lirik bariton səsinin təkrarsız imkanlarından bacarıqla istifadə edən A.Qəniyev yeni-yeni mahnılara həyat verib. Bənzərsiz ifa tərzi, şirin, məlahətli səsi ilə diqqət çəkib, özündən sonra musiqi dünyasında dərin, silinməz izlər qoyub. Bacarığı və peşəkarlığı ilə əlçatmaz zirvələri fəth edib.

Fəaliyyətə başladığı ilk günlərdən adına şöhrət gətirəcək, onu xalqa tanıdacaq musiqi dünyasında uğurlu addımlar atıb. 1959-cu il Anatollu Qəniyevin həyatında böyük əlamətdar hadisə ilə yadda qalıb. Həmin il müğənni keçmiş ittifaqın mərkəzi şəhəri olan Moskvada böyük təntənə ilə keçirilən Azərbaycan mədəniyyəti ongünlüyündə maraqlı konsert proqramı ilə çıxış edib. Gözəl ifası ilə tədbir iştirakçılarının rəğbət və sevgisini qazanıb.

Ömrünün sonrakı illərində Anatollu Qəniyev musiqi aləmində daha da yaddaqalan uğurlar əldə edib. 1960-cı illərin əvvəllərində Azərbaycan Dövlət Filarmoniyasının solisti olan böyük sənətkar Tofiq Əhmədovun rəhbərlik etdiyi "Azteleradio"nun estrada orkestrinin solisti kimi Polşada, Almaniyada,



Çexoslovakiyada, Kubada, ərəb ölkələrində, həmçinin dünyanın başqa yerlərində qastrol səfərlərində olub. Heç vaxt unudulmayacaq bu səfərlər zamanı bir-birindən gözəl mahnılar oxuyub. Qastrolda olduğu ölkələrdə Azərbaycan musiqisini böyük iftixarla səsləndirib, qürurla tərənnüm edib.

Oxuduğu mahnılarla xalqın böyük sevgisini qazanmış Anatollu Qəniyev səhnədə olduğu illər ərzində bir çox istedadlı bəstəkarla yaradıcılıq əməkdaşlığı edib. Görkəmli bəstəkarlar Tofiq Quliyev, Hacı Xanməmmədov, Arif Məlikov, Hökümə Nəcəfova, Vasif Adıgözəlov, Oqtay Rəcəbov, Ramiz Mirişli, Emin Sabitoğlu, Şahid Əbdülkərimov bir neçə mahnını onun üçün bəstələyiblər. Anatollu Qəniyev ürəyəyatımlı avazı ilə həmin mahnılara, necə deyərlər, öz möhürünü vurub. Bu gün də böyük maraq və sevgi ilə dinlənilən "Süfrə", "Nuş olsun", "Naznaz", "Badamlı" mahnılarını ilk dəfə o ifa edib.

Anatollu Qəniyevin səsi həm də müxtəlif illərdə kinofilmlərimizə yaraşıq verib. O, "Koroğlu", "Möcüzələr adası", "Ulduzlar sönmür", "Qanun naminə", "Alma almaya bənzər" və başqa filmlərdə mahnılar ifa etməklə kino musiqisində də özünün heç vaxt silinməyəcək izini qoyub.

Bu gün hamımız Anatollu Qəniyevin oxuduğu "Çıx yaşıl düzə", "Reyhan", "Teymurun mahnısı", "Dəyişmərəm", "Bakının ulduzları", "Şəlalə", "Ay qız", "Qonşular" (Elmira Rəhimova ilə duet), "Yaşa, könül", "İlk görüşdən gəlirəm", "Səni haylaram", "Bu dərə uzun dərə", "Badamlı", "Nuş olsun", "Naz-naz", "Bana-bana gəl", "Məni gördü güldü yar", "Evləri var xana-xana" və başqa mahnılara böyük maraqla, zövq ala-ala qulaq asırıq. Adlarını çəkdiyimiz və çəkmədiyimiz bu mahnılar zaman-zaman müğənniyə böyük şöhrət qazandırıb.

Anatollu Qəniyevin oğlu Xalq artisti Heydər Anatollu mətbuata verdiyi müsahibələrin birində atasını kövrək hisslərlə xatırlayıb: "Artıq 40 ilə yaxındır ki, atam dünyasını dəyişib, o vaxtdan bu günə kimi həmişə xatırlanır. Anatollu Qəniyev adı çəkiləndə ancaq xoş sözlər eşidirəm. Onun insanlığından, mənliyindən, sənətindən... Fəxr edirəm ki, belə bir insanın, belə bir sənətkarın övladıyam. Bacardığım qədər onun adını uca tuturam, yaşadıram, nə qədər varam, onun adını yaşadacam. O özü də deyirdi ki, fəxri adım oldu-olmadı, məni xalq istəyir. Küçədə gedəndə 10 nəfərdən 9-u yaxınlaşır, ürək sözlərini deyirdi. Bakının ən elit təbəqəsinin toy məclislərini o zamanlar atam idarə edirdi. Onun vaxtına görə toy tarixini təyin edirdilər. Mən həmişə deyirəm, səhnəyə çıxanda, ya hər hansı bir tədbirdə adım çəkiləndə onun da adı çəkilir".

Səsi ürəklərdə, qəlblərdə yaşayan Anatollu Qəniyev 1985-ci il oktyabrın 1-də kəskin ürək çatışmazlığından dünyasını dəyişib. O, yaddan çıxmır, əbədi olaraq ürəklərdə və qəlblərdə yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

● "Şəhərsalma və Memarlıq İli"

# Xaqani Şirvaninin adını daşıyan köhnə "Molokan bağı"

**Qədim Bakının memarlıq tikililəri, məhəllə və meydanları, tarixi yerləri sırasında park və bağların da mühüm yeri var. Belə tarixləşən ünvanlardan biri də şəhərin mərkəzində yerləşən, ta qədimdən "Molokan bağı" kimi tanınan indiki "Xaqani bağı"dır. "Şəhərsalma və Memarlıq İli" çərçivəsində bağın tarixi və taleyi ilə tanışlıq bizi xəyalən ötən əsrin əvvəllərinə apardı.**

Məxəzlərdən məlum olur ki, Bakı şəhərinin ən qədim parklarından hesab edilən bu park 1860-cı illərdə molokanlar tərəfindən salınmışdır. Bağın mərkəzində üç elementin təcəssümü "Üç lütf" heykəltaraşlıq qrupu olub: günəş, hava və su. Təbii daşdan böyük bloklar heykəl üçün postament rolunu oynayıb. 1860-cı illərdə parkın ətrafında bir neçə karvansara olub. Bu karvansaralarda rayonlardan və Bakıətrafı ərazilərdən satış üçün mallarla Bakıya gələn molokanlar yaşayıblar. Bəziləri yaxınlıqda məskunlaşaraq, Molokan qəsəbəsini təşkil etmişdilər. Daha sonra, yəni 1870-ci ilin əvvəllərində onlar kiçik bir park düzəltmişdilər. Parkın mərkəzindəki fəvvarə yaxınlıqda, Mariinskaya (Rəsul Rza) və Molokanskaya (Xaqani) küçələrinin kəsişməsində yaşayan molokan Kaşçeyev tərəfindən tikilmişdir. 1915-ci ildə şəhərin mərkəzi məhəllələrinin inkişafı ilə əlaqədar həyətləri və tövlələri olan Molokan qəsəbəsi sökülmüş, molokanlar isə Dəmir yolu vağzalı istiqamətinə köçürülmüşlər. O zaman meydanın adı dəyişdirilərək "Mariinski" meydanı adlandırılmışdı.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bağa bolşevik Həşim Əliyevin adı ve-



rilmiş, sonralar isə 1905-ci ilin Qanlı bazar günü xatirəsinə "9 Yanvar bağı" adlandırılmışdır. Ötən əsrin sonlarında Azərbaycan öz tarixi müstəqilliyini bərpa etdikdən sonra bağ başdan-başa yenilənib, adı dəyişdirilərək Xaqani Şirvaninin şərəfinə adlandırılıb. Bağın arxitektura-landşaft kompozisiyasının əsası üç qızın heykəlindən təşkil edilmiş "Üç gözəl" heykəllər qrupu ilə əyri cızıqlı formalı hovuzdan ibarətdir. Heykəllər qrupu adi daşın böyük parçaları üzərində oturdulmuşdur.

Bağ pavilyonunun cərgələri su hovuzundan başlayır. Bağın yolları elə istiqamətlənib ki, onlar mərkəzdə yerləşən hovuza qədər diaqonal şəklində davam edir. Ərazisi 0,8 hektar olan bu tarixi məkan cənubdan Üzeyir Hacıbəyli, şimaldan Xaqani, şərqdən Qoqol, qərbdən Rəsul Rza küçələri ilə məhdudlaşır. Park gözəlliyi və qədimliyi ilə Bakıya gələn turistlərdə və gənc nəsildə böyük maraq doğurur.

*R.SALMANLI,*
*"Azərbaycan"*

# Qubada milli-mənəvi dəyərlər mövzusunda tədbir keçirilib

**Qubanın Alekseyevka kəndində rayon icra hakimiyyəti, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Quba-Xaçmaz regional bölməsi, Quba-Xaçmaz Regional Gənclər və İdman, eləcə də Təhsil idarələrinin birgə təşkilatçılığı ilə "Xalqımızın birliyinin möhkəmlənməsində milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda tədbir keçirilib.**



Qeyd edilib ki, hər bir xalqın milli-mənəvi dəyərləri, zəngin mədəniyyəti, özünəməxsus adət-ənənələri onun tarixi qədimliyinin əsas göstəricilərindəndir. Əsrdən-əsrə keçən, nəsildən-nəslə ötürülən bu dəyərləri qoruyub saxlamaq və inkişaf etdirmək hər kəsin doğma xalqı qarşısında mənəvi borcu, müqəddəs vəzifəsidir. Bildirilib ki, Azərbaycan xalqının keçdiyi tarixi yol, minilliklərlə formalaşmış bir çox ənənə bu gün də davam edir. Əsrlər boyu azərbaycanlılar dünya xalqları arasında humanist milli-mənəvi dəyərləri ilə tanınıblar. Xalqımız həssaslıqla yanaşdığı, qoruyub saxladığı, yaşatdığı və təbliğ etdiyi milli xüsusiyyətləri, adət-ənənələri ilə dünya mədəni irsində özünəməxsus yer tutur. Xalqımızın milli birliyinin möhkəmlənməsində milli-mənəvi dəyərlərimizin rolu danılmazdır. Təhsil müəssisələrinin bu baxımdan polu böyükdür. Gənclərin ailədə təməli qoyulan mənəvi tərbiyəsi məktəblərdə inkişaf etdirilir. Bütün müsbət dəyərlər də məhz bu iki ocağın birliyinin hesabına formalaşır.

Sonda qonaqlar iştirakçıların suallarını cavablandırıblar.

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

● Nəcib əməllərin işığı

# Amalı gənc nəslin milli ruhda yetişməsinə töhfə verməkdir



**Dünyaşöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev müəllim əməyinə yüksək dəyər verərək demişdir: "Mən Yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir".**

Belə müəllimlərdən biri də qonşu Gürcüstanın Bolnisi rayonunun Faxralı kəndində taleyini həmişəlik müəllimlik peşəsinə bağlamış, "Şərəf" ordenli Bayram Abbasovdur. O, azərbaycanlıların kompakt yaşadığı Faxralı kənd orta məktəbində uşaqlara bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən bacarıqla gəlir.

Bayram müəllim 75 il bundan əvvəl, 1951-ci il yanvarın 1-də elə bu kənddə ziyalı ailəsində anadan olub. O, 1967-ci ildə Faxralı orta məktəbini, daha sonra Tbilisidə Azərbaycan Pedaqoji İnstitutunun Rus dili və ədəbiyyatı fakültəsini bitirib. 1972-ci ildə boya-başa çatdığı doğma kəndlərindəki orta məktəbə təyinatla müəllim işləməyə göndərilib.

Uşaqlıqdan arzusunda olduğu müəllimlik peşəsinin çətinliklərinə şövqlə sinə gərir, mövzunu qavrama qabiliyyətini diqqətdə saxlamaqla şagirdlərinə xüsusi qayğı göstərirdi. Şagirdləri isə qayğıkeş və yaxşı müəllim kimi Bayram müəllimin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirirdi. Gənc müəllimin zəhməti bəhrə verdikcə qəlbən çox sevinirdi. Altı ilə yaxın bu qaydayla dərs keçən Bayram müəllim 1991-ci ildə Faxralı 1 saylı ictimai məktəbin direktorunun tərbiyə işləri üzrə müavini vəzifəsinə irəli çəkilir. Daha sonra Talaveri 2 saylı (Faxralı) əsas məktəbinin direktoru təyin edilir. Beş il bu vəzifədə çalışdıqdan sonra özünün təşəbbüsü ilə məktəbin tərbiyə işləri üzrə direktor müavini vəzifəsi ona həvalə olunur. Bu illərdə Bayram müəllim gənc nəslə bilik vermək, elm öyrətmək kimi mühüm vəzifənin öhdəsindən bacarıqla gəlir, onun tələbkarlığı sayəsində məktəbdə nizam-intizamın və təhsilin keyfiyyəti yüksəlir. Talaveri 2 saylı (Faxralı) əsas məktəbi rayonun qabaqcıl və istinad məktəbi kimi tanınır. Bayram Abbasovun təşkilatçılıq bacarığı və pedaqoji fəaliyyəti respublika rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir, Gürcüstan Prezidentinin 2003-cü il 28 avqust tarixli sərəncamı ilə gənc nəslin təlim-tərbiyəsində şəxsi nümunəsinə, təhsil islahatı prosesində fəal iştirakına, məhsuldar ictimai-pedaqoji fəaliyyətinə və respublikada gürcülərin və azərbaycanlıların dostluğunun daha da möhkəmlənməsində yüksək xidmətinə görə Gürcüstanın maarif işçisi Bayram İsrafil oğlu Abbbasov "Şərəf" ordeni ilə təltif edilir.

Bayram müəllimin rayonun ictimai-siyasi həyatında da fəaliyyəti diqqətçəkəndir. O, 2014-cü ildə Bolnisi rayon bələdiyyəsinə üzv seçilir. Şərəfli müəllimlik peşəsi ilə bərabər, Bolnisi rayon bələdiyyəsində ictimai-siyasi fəaliyyətini davam etdirir, ölkənin inkişafı naminə əlindən gələni edir. 2012-ci ilin parlament və 2013-cü ilin prezident seçkilərində Bayram müəllim əsl iradə göstərərək siyasi baxışından dönməyərək dövlətə bir daha sadiqliyini nümayiş etdirir. Bayram müəllimin sayəsində Faxralının yerli əhəmiyyətli bir çox problemi həllini tapır, Adgözəlli, Vəlioğlü, Dadaşlar, Musalar, Göyüşlər adlanan məhəllələrin əhalisi içməli su ilə təmin olunur, kəndlə rayon mərkəzini əlaqələndirən nəqliyyatın hərəkəti qaydaya salınır, onun rayon rəhbərliyinə müraciəti əsasında qəbiristanlıq üçün əlavə ərazi ayrılır və s. Seçiciləri onun fəaliyyətinə, habelə işgüzarlığına yüksək qiymət verir və razılıq edirlər. Onun üstün əxlaqi keyfiyyətlərindən, Vətənə, torpağa bağlılığından, yüksək intellektual səviyyəsindən, təcrübəli və savadlı pedaqoq olmasından qürur duyurlar.

"Şərəf" ordenli müəllim həm də yaxşı ailə başçısıdır. Həyat yoldaşı Svetlana xanım özü ilə bərabər, məktəbdə 40 ildən çoxdur ki, müəllim işləyir. Hər iki qızı - Elnarə və Elonora ali təhsillidir. Elnarə Bakı Dövlət Universitetinin Riyaziyyat fakültəsini, Elonora isə Tbilisi Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir.

75 yaşlı Bayram müəllim 55 illik pedaqoji fəaliyyəti dövründə təşkilatçılıq bacarığı və gənc nəslin təlim-tərbiyəsində, habelə ictimai-siyasi sahədə əldə etdiyi uğurlara görə dəfələrlə diplom, fəxri fərman və təşəkkürnamələrə layiq görülüb. Ötən ay Gürcüstan Azərbaycanlıları Konqresində Bolnisi rayonunun fəxri vətəndaşı Bayram Abbasovun 75 illik yubileyi böyük təntənə ilə qeyd olunub. Gürcüstan Azərbaycanlıları Konqresinin nümayəndələri və Qafqaz Türk Medianın yaradıcı heyətinin, habelə ictimaiyyət nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Bayram Abbasov azərbaycanlı və gürcü gənclərin milli ruhlu vətənpərvər kimi formalaşmasında əməyinə, eləcə də ölkənin ictimai-siyasi həyatındakı xidmətlərinə görə GAK-ın fəxri fərmanı ilə təltif edilib.

Müəllim müqəddəsdir, bütün dövrlərdə bu peşə sahiblərinin üzərinə böyük vəzifələr düşür. Məmnunluq doğuran odur ki, maarif fədaisi Bayram müəllim bu gün də gənc nəslin gələcək xoşbəxt həyatı üçün bütün imkanlarını səfərbər edərək, xalqımıza layiq vətəndaşların yetişdirilməsində əlindən gələni edir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# "Gənclər Paytaxtı"nın rəmzi açarı Goranboya təhvil verildi

**Goranboyun 2026-cı il üçün "Gənclər Paytaxtı" seçilməsi münasibətilə rayon icra hakimiyyətinin, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə açılış mərasimi keçirilmişdir.**




Mərasimdə gənclər və idman naziri Fərid Qayıbov, rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, Milli Məclisin deputatı Müşfiq Cəfərov, Naxçıvan MR gənclər və idman naziri səlahiyyətlərini icra edən Mirməcid Seyidov, Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov, YAP Gənclər Birliyinin nümayəndəsi Emil Aslanlı, eləcə də ölkənin, o cümlədən Goranboyun bir qrup gənci iştirak etmişlər.

Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirələrinin yad edilməsi ilə başlayan tədbirdə çıxış edənlər - Məhərrəm Quliyev, Fərid Qayıbov, Teymur Səmədov və Müşfiq Cəfərov ölkəmizdə həyata keçirilən dövlət gənclər siyasətindən danışmışlar. Nazir Fərid Qayıbov "Gənclər Paytaxtı"nın rəmzi açarını Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədovdan təhvil alaraq Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə təqdim etmişdir.

İstedadlı və yaradıcı gənclər mükafatlandırıldıqdan sonra Azərbaycanda Gənclər Gününə həsr olunmuş videoçarx nümayiş etdirilmiş, Goranboyun "Gənclər Paytaxtı" loqosu və maskotu ictimaiyyətə təqdim olunmuşdur. Heydər Əliyev parkında təşkil olunan GəncFestdə gənclər düşərgələrinə baxış keçirilmiş, gənclər hərbi-vətənpərvərlik, yaradıcılıq, stolüstü oyunlar, intellektual yarışlar, interaktiv təlimlər və əyləncə zonalarında müxtəlif fəaliyyətlərdə iştirak etmişlər.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# *Stiv UİTKOFF:* "Davamlı diplomatik əlaqələr müharibənin sona çatmasına töhfə verir"

## Ukrayna və Rusiya 314 məhbus mübadiləsi aparacaq

ABŞ-nin iştirakı ilə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə keçirilən danışıqlarda Ukrayna və Rusiya nümayəndə heyətləri 314 məhbus mübadiləsi barədə razılığa gəliblər. Bu barədə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff "X" sosial media platformasında məlumat verib.



"Bu nəticə ətraflı və məhsuldar sülh danışıqları yolu ilə əldə edilib. Hələ görüləsi çox iş qalsa da, bu addımlar davamlı diplomatik əlaqələrin gözəçarpan nəticələr verdiyini və Ukraynadakı müharibənin sona çatmasına töhfə verdiyini göstərir", - deyə o yazıb və qeyd edib ki, bu, 5 ay ərzində ilk məhbus mübadiləsidir. S.Uitkoffun sözlərinə görə, müzakirələr davam edəcək və qarşıdakı həftələrdə daha da irəliləyiş gözlənilir.

Xatırladaq ki, fevralın 4-5-də Əbu-Dabidə Ukrayna, ABŞ və Rusiya arasında danışıqların növbəti mərhələsi keçirilib. Üçtərəfli məsləhətləşmələr qrup işi formatında keçirilir və mövqelərin daha da sinxronlaşdırılmasını nəzərdə tutur.

Bir gün əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski diplomatik işlərin və danışıqlar qrupunun səylərinin gücləndirilməsi sayəsində Ukraynadakı müharibənin gələn ilin əvvəlində başa çatacağına ümid etdiyini bildirib.

Əsir mübadiləsi Rusiya və Ukrayna arasında əvvəlki danışıqlar raundunun əsas nəticəsi idi. Tərəflər 2025-ci ilin yaz və yay aylarında Türkiyədə görüşmüşdülər, lakin ABŞ bu prosesdə iştirak etməmişdi.

TASS Agentliyinin məlumatına görə, danışıqlardakı atmosfer əvvəlki görüşlərlə müqayisədə daha işgüzardır, baxmayaraq ki, nümayəndə heyəti üzvləri arasında fikir ayrılıqları var. Agentlik həmçinin üç ölkənin nümayəndələrinin iqtisadi aspektləri, ərazi məsələləri və atəşkəs mexanizmini müzakirə etdiklərini bildirib.

Keçən dəfə olduğu kimi, Rusiya nümayəndə heyətinə Baş Kəşfiyyat İdarəsinin rəisi İqor Kostyukov, Ukrayna nümayəndə heyətinə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, ABŞ nümayəndə heyətinə isə Prezident Donald Trampın xüsusi elçisi Stiv Uitkoff rəhbərlik ediblər.

Xatırladaq ki, danışıqların birinci mərhələsi yanvarın 23-24-də Əbu-Dabidə baş tutub və bütün iştirakçılar onları məhsuldar adlandırıblar. Görüşdən sonra nümayəndə heyətlərinin yenidən görüşmək niyyətindən başqa heç bir rəsmi razılaşma elan edilməyib.

"New York Times" qəzetinin yaydığına görə, Rusiya nümayəndə heyəti Kiyevin enerji təchizatına zərbələri dayandırmaq tələbini şifahi şəkildə qəbul edib.

BƏƏ-dəki görüşdən qısa müddət sonra Donald Tramp Rusiya Prezidenti Vladimir Putinin şaxtalı hava səbəbindən Kiyevə və Ukraynanın enerji sektoruna zərbələri bir həftə təxirə salmağa razı olduğunu açıqlamışdır. Kreml bu məlumatı təsdiqləmiş, lakin moratoriumun əvvəlcə ikinci mərhələ üçün planlaşdırılan fevralın 1-nə qədər davam edəcəyini açıqlamışdı. Kiyev Moskvanın hərəkətlərinə eyni cavabı verəcəyini bildirmişdi.

Həqiqətən də, bir neçə gün enerji sektoruna zərbələr endirilməmişdir. Lakin Moskva fevralın 3-dən enerji infrastrukturuna hücumları bərpa edib. Həmin günün axşamı Rusiyanın Belqorod şəhəri və ətraf bölgə də raket hücumu nəticəsində elektriksiz qalıb. Hücumlar fevralın 4-də danışıqların ikinci mərhələsi başladıqdan sonra da davam edib.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Tənhalıq geniş yayılmış problemə çevrilib

Rəqəmsal dövrün ən paradoksal nəsli hesab olunan Z nəsli bu gün ciddi sosial və psixoloji böhranla üz-üzədir. Sosial şəbəkələrdə minlərlə izləyicisi olan, daim onlayn görünən, texnologiya ilə böyüyən bu nəsil eyni zamanda özünü ən tənha hiss edən yaş qrupu kimi önə çıxır. Böyük Britaniyada aparılan son araşdırmalar göstərir ki, tənhalıq artıq Z nəsli üçün fərdi hiss yox, geniş yayılmış sosial problemə çevrilib. Bu tənhalıq isə gəncləri getdikcə daha çox emosional dəstək və ünsiyyət üçün süni intellektə, xüsusən də çatbotlara yönəldir.

Böyük Britaniya Milli Statistika İdarəsinin məlumatlarına görə, 16-29 yaş arası gənclərin 33 faizi özlərini tez-tez tənha hiss etdiklərini bildirirlər. 1997-2012-ci illər arasında doğulan və "ilk rəqəmsal nəsil" kimi xarakterizə edilən Z nəslinin bu göstəriciləri təkcə statistika deyil, eyni zamanda dərin psixoloji və sosial problemlərin xəbərçisidir.

Tənhalıq hissinin artmasında COVID-19 pandemiyasının xüsusi rolu olduğu qeyd edilir. Karantin dövrləri, sosial məsafə, onlayn oxuma və işləmə bir çox gəncin real ünsiyyət bacarıqlarını zəiflədib. Pandemiya dövründə yetkinliyə çatan gənclər üçün sosiallaşma təbii proses olmaqdan çıxıb, çətin və narahatedici bir sınağa çevrilib. BBC-yə danışan 22 yaşlı rejissor Sem Tullen bu dövrün təsirlərini "rəqəmsal olaraq əlaqəli, amma sosial cəhətdən təcrid olunmuş bir nəsil" kimi xarakterizə edir. Bu vəziyyətin real insan hekayələrində necə təzahür etdiyini "Tənha Nəsil" adlı sənədli filmdə görmək mümkündür. Filmdə Mançesterdə yaşayan Peysli adlı gəncin hekayəsi xüsusi diqqət çəkir. O, məktəbi bitirdikdən dərhal sonra evdən işləməyə başladığını və bunun onun sosial bacarıqlarını daha da zəiflətdiyini deyir. Peysli özünü çaşqın hiss etdiyini, insanlarla necə ünsiyyət quracağını bilmədiyini etiraf edir. Bu boşluqda isə o, emosional dəstək üçün "ChatGPT"yə üz tutub. Onun sözlərinə görə, robotla danışmaq ən asan əlaqə nöqtəsi idi. Belə ki, o, mühakimə olunmadan cavab alırdı.



Araşdırmalar göstərir ki, Peyslinin hekayəsi istisna deyil. "Onside" xeyriyyə təşkilatının hesabatına əsasən, Böyük Britaniyada 11-18 yaş arası gənclərin 39 faizi emosional dəstək və məsləhət üçün çatbotlardan istifadə edir. 5000-dən çox gənc arasında aparılan sorğuda Şimal-Qərbi İngiltərədə respondentlərin 21 faizi süni intellektlə danışmağın insanla danışmaqdan daha asan olduğunu bildirib. Bu rəqəmlər süni intellektin gənclərin həyatında təkcə texnoloji alət deyil, emosional sığınacaq rolunu oynadığını göstərir.

Mütəxəssislər bu tendensiyanın təhlükəli tərəflərinə diqqət çəkirlər. Onların sözlərinə görə, süni intellekt sürətli, əlçatan və həmişə "dinləyən" olduğu üçün gəncləri cəlb edir. Amma o, insan münasibətlərini əvəz edə bilməz. Bəzi gənclər çatbotlardan aldıqları məlumatları şübhəsiz doğru qəbul edir və bu, xüsusilə emosional və psixoloji mövzularda ciddi risklər yaradır.

Böyük Britaniyanın Mançester Universitetinin süni intellekt üzrə akademiki Dr. Jennifer Cearns isə problemin daha dərin psixoloji tərəfinə diqqət çəkir. O bildirir ki, çatbotların daim nəzakətli, etirazsız və təsdiqləyici olması gənclərin inkişafı üçün təhlükəli ola bilər. Belə ki, süni intellekt adətən dediklərinizə qarşı çıxmır, sorğu-sual etmir. Bu isə bir növ güzgü ilə danışmaq hissi yaradır. Real həyatda qarşılaşdıqları fikir ayrılıqları, sərhədlər və mübahisələr gənclərin emosional yetkinliyi üçün olduqca vacibdir.

Z nəslinin üzləşdiyi problemlər təkcə tənhalıqla məhdudlaşmır. Bu nəsil eyni zamanda dərin tükənmişlik hissi ilə yaşayır. Bir çox gənc özünü "başlamazdan əvvəl yorulmuş" kimi təsvir edir. Bunun əsas səbəblərindən biri üzərlərindəki davamlı müvəffəqiyyət və mükəmməllik təzyiqidir. Ailə, cəmiyyət və sosial media gənclərdən eyni anda akademik uğur, ideal karyera, aktiv sosial həyat və onlayn populyarlıq gözləyirlər. Bu gözləntilər isə real insan imkanlarını çox vaxt aşır.

Sosial media bu təzyiqi daha da gücləndirir. Gənclər daim başqalarının "mükəmməl" həyatlarını izləyir, özlərini onlarla müqayisə edir və nəticədə öz həyatlarını yetərsiz hesab edirlər. Bu davamlı müqayisə emosional tükənməyə və depressiyaya yol aça bilər. Z nəsli üçün "yaxşı olmaq" artıq kifayət etmir, onlar "daim ən yaxşı olmaq" məcburiyyəti ilə yaşayırlar.

Buna əlavə olaraq, Z nəsli COVID-19 pandemiyası, iqlim dəyişikliyi, iqtisadi qeyri-sabitlik və siyasi gərginliklər kimi qlobal problemlərlə formalaşıb. Gələcəyə dair qeyri-müəyyənlik hissi gənclərin psixoloji yükünü daha da artırır. Onlar bir tərəfdən uğurlu olmağa çalışır, digər tərəfdən isə bu uğurun mənasının nə olduğunu sual edirlər. Bu qədər təzyiq altında sosial əlaqələri qorumaq çətinləşir. Stres və tükənmişlik gənclərin ünsiyyətə marağını azaldır, nəticədə təcrid və yalnızlıq hissi daha da dərinləşir. İnsanlarla əlaqə qurmaqdan çəkinən gənclər bu boşluğu texnologiya ilə doldurmağa çalışırlar.

Mütəxəssislər hesab edirlər ki, bu vəziyyətdən çıxış yolu mövcuddur, lakin bu, təkcə gənclərin üzərinə düşən məsuliyyət deyil. Z nəsli üçün daha realist və əldə edilə bilən hədəflər müəyyən etmək vacibdir. Psixoterapiya və peşəkar məsləhət dəstəyi emosional sağlamlığın qorunmasında mühüm rol oynaya bilər. Meditasiya, nəfəs məşqləri və digər rahatlama texnikaları stresin azaldılmasına kömək edə bilər. Sosial media istifadəsinin şüurlu şəkildə məhdudlaşdırılması isə real dünyada münasibətlərin güclənməsinə şərait yaradır. Ən əsası isə ailə və dost dəstəyidir. Gənclərin özlərini başa düşülmüş hiss etməsi, tənha olmadıqlarını bilməsi psixoloji sağlamlıq üçün həlledici amildir. Z nəslinə mükəmməllik standartlarının dəyişdirilə bilən və insanın dəyərinin təkcə nailiyyətlərlə ölçülmədiyi mesajını vermək vacibdir.

Z nəslinin yaşadığı tənhalıq və tükənmişlik hissi müasir cəmiyyətin yaratdığı təzyiqlərin bir nəticəsidir. Bu problemləri görməzdən gəlmək əvəzinə onları anlamaq və həll yolları axtarmaq cəmiyyətin üzərinə düşən əsas vəzifələrdən biridir. Əks halda getdikcə daha da tənhalaşan bir nəsil ilə üz-üzə qalacağıq.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Bakıda 78 ağac sınıb





Bir neçə gün öncə Bakı şəhərində şiddətli külək nəticəsində ümumilikdə 78 ağacın sınması, 40 ağacın budaqlarının qırılması qeydə alınıb.

Bu günlərdə gücləndirilmiş iş rejimində çalışan Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyinin əməkdaşları tərəfindən sınan ağaclar və qırılan budaqlar birliyin növbətçi briqadaları tərəfindən operativ şəkildə götürülüb və ərazi təmizlənib.

***"Azərbaycan"***





# Bakıda yağış yağacaq, rayonlarda hava əsasən yağmursuz keçəcək

Azərbaycanda fevralın 6-na gözlənilən hava proqnozu açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə zəif duman, çiskin olacağı, axşam isə yağış yağacağı ehtimalı var. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-3, gündüz 6-9 dərəcə isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 764 millimetr civə sütununa enəcək. Nisbi rütubət 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1-6, gündüz 7-10 dərəcə isti, dağlarda gecə 3-8 dərəcə şaxta, gündüz 1-6 dərəcə isti olacaq. Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

# Bakı-Ağdam qatarına bilet azad olunmuş ərazilərə 7 günlük səfər icazəsini təmin edir

"Azərbaycan Dəmir Yolları" QSC (ADY) ilə Ağdama səfər bileti işğaldan azad olunmuş ərazilərə artıq 7 günlük giriş icazəsini təmin edir.

ADY-dən AZƏRTAC-a bildirilib ki, bilet rəsmiləşdirilən zaman Daxili İşlər Nazirliyinin elektron portalından sözügedən icazə avtomatik əldə edilir. Səfər günündən bir həftə sonra, yəni növbəti şənbə günü Ağdamdan Bakıya qatarla da rahat qayıtmaq mümkündür.





**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Eldar Əzizov və Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının kollektivi Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılova əzizi

**NƏZƏR ŞAHBAZOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3238**
**Sifariş 173**

**Qiyməti 60 qəpik**